Xalqın qəzeti!

# Xalq qəzeti

№ 142 (30836) 13 iyul 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycan Suriyanın dirçəlişinə önəmli dəstək verir

### Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraanın Azərbaycana səfəri

### Prezident İlham Əliyevlə görüş

**İyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə geniş tərkibdə görüşü olub.**

Dövlətimizin başçısı Suriya Ərəb Respublikasının keçid dövrü Prezidentini qarşıladı.

Azərbaycan Prezidenti İlham Əliyev və Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraa rəsmi foto çəkdirdilər.

Prezident İlham Əliyev Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraanın ölkəmizə səfərinin ikitərəfli əlaqələrimizin inkişafında mühüm əhəmiyyət kəsb edəcəyinə ümidvarlığını bildirdi.

Uzun illər ərzində Azərbaycana münasibətdə qeyri-dost siyasəti həyata keçirən Suriyadakı əvvəlki hökumətin vaxtında münasibətlərimizdə durğunluğun olduğunu deyən dövlətimizin başçısı vurğuladı ki, Suriyada yeni hakimiyyətin qurulmasından sonra əlaqələrimizin inkişafı üçün böyük perspektivlər açılıb.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin və Baş nazirin müavininin rəhbərliyi ilə nümayəndə heyətinin Suriyaya səfərini xatırladan Prezident İlham Əliyev həmin səfər zamanı keçirilən görüşlərdə müxtəlif sahələrdə əməkdaşlığımızın inkişafı ilə əlaqədar layihələrin müzakirə edildiyini vurğuladı.



Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa Antalya Diplomatiya Forumu çərçivəsində dövlətimizin başçısı ilə görüşünü məmnunluqla xatırladı.

O, Azərbaycanın Suriyaya göstərdiyi qardaşlıq dəstəyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Əhməd Əl Şaraa əvvəlki hakimiyyətin Suriyanın bir çox ölkələrlə, o cümlədən Azərbaycanla əlaqələrə xələl gətirdiyini təəssüflə qeyd etdi. O, ölkəsinin Azərbaycanla siyasi, iqtisadi-ticari, mədəni, humanitar və digər sahələrdə əməkdaşlıqda maraqlı olduğunu dedi.

Azərbaycanın əldə etdiyi uğurlar və torpaqlarımızın işğaldan azad edilməsi münasibətilə təbriklərini çatdıran Suriyanın keçid dövrü Prezidenti ölkəmizin ötən əsrin 90-cı illərində çətinliklərlə üzləşdiyini, amma onların öhdəsindən layiqincə gəldiyini və hazırda inkişaf etdiyini vurğuladı.

*(ardı 2-ci səhifədə)*

## Azərbaycan Prezidenti Ankaranın "Terrorsuz Türkiyə" məramını alqışlayıb



**İyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.**

Azərbaycan Prezidenti PKK terror qruplaşmasının özünü ləğv etməsi və silahı yerə qoyması ilə bağlı qardaş Türkiyə xalqını ürəkdən təbrik edib. Dövlətimizin başçısı bu mühüm hadisənin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə ölkədə həyata keçirilən qətiyyətli siyasətin, güclü liderliyin, sarsılmaz iradənin, milli birliyin və həmrəyliyin parlaq təntənəsi olduğunu vurğulayıb.

Telefon danışığı zamanı Prezident İlham Əliyev "Terrorsuz Türkiyə" hədəfinə çatmaq yolunda atılan bu addımı regionda sülh və sabitliyə xidmət edən mühüm dönüş nöqtəsi kimi dəyərləndirib və qəbul edilmiş qərarın tam icrası istiqamətində Türkiyə dövlətinə və xalqına uğurlar arzulayıb.

Prezident Rəcəb Tayyib Ərdoğan göstərilən dəstəyə və diqqətə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib, Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb.

Telefon danışığı zamanı dövlət başçıları Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

*Prezidentin Mətbuat Xidməti*

## *Heydər Əliyev:*

## "Regionda bizim müstəqilliyimizi boğmağa cəhd edən ölkələr var"



səhifə ⇨ 5

## "Azərbaycanın sülh şərtləri dəyişməyib"

səhifə ⇨ 4

## Azərbaycan Mətbuat Şurası Rusiya Jurnalistlər İttifaqının qərəzli açıqlamasını cavablandırıb



**"Son illər Rusiya Federasiyası xarici siyasətdə təsir aləti kimi mediadan daha fəal istifadə edir. İnformasiya fəaliyyəti pərdəsi altında ictimai rəyin formalaşdırılması və suveren dövlətlərdə siyasi vəziyyətin sabitliyinin pozulmasına yönəlmiş genişmiqyaslı kampaniyalar aparılır. Başqa ölkələrin daxili işlərinə müdaxilə olan belə hərəkətlər yerli ictimai institutların fəaliyyətini pozur və hakimiyyətlərə etimadın səviyyəsini azaldır. Bu praktika Rusiyanın "Sputnik" agentliyinin və onun əməkdaşlarının fəaliyyətində özünü daha çox büruzə verir".**

ardı səhifə ⇨ 8

## Tovuz döyüşləri Azərbaycanın hərbi qüdrətini nümayiş etdirdi

*Düşmənin bu gerçəyi anlamaması Vətən müharibəsinə apardı*



**Bu ilin payızında Azərbaycanın 30 il müddətində itirilmiş ərazi bütövlüyünü bərpa etmiş Vətən müharibəsinin başlanmasının və 44 gündə qələbə ilə başa çatmasının 5 ili tamam olur. Müstəqil Azərbaycan dövlətinin Konstitusiyasının qəbul edilməsinin 30 illiyi və Qarabağ Zəfərinin 5 illiyi şərəfinə ölkəmizdə davam edən "Konstitusiya və Suverenlik İli"nin əlamətdar tarixləri sırasında Vətən müharibəsinə aparan yolun uğur başlanğıcı sayılan, Azərbaycanın işğalçı Ermənistana sonuncu xəbərdarlıq dərsi olmuş 2020-ci ilin iyul Tovuz döyüşləri də öyünclə yad edilir.**

*(ardı 6-cı səhifədə)*

## İddialar uydurma, ritorika təhlükəlidir

### *Xaçikyanın sülh prosesini hədəfə alan təxribatçı çıxışına cavab*

**Bir sıra erməni siyasi ekspertlər, politoloqlar var ki, onların fikirləri ilə tanış olduqda heyrətlənməmək olmur. Həmin ekspertlər İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsindən sonra regionda yaranmış yeni reallıqları doğru-dürüst şərh etmək, hayları bu vəziyyətlə barışmağa çağırmaq, erməni cəmiyyətinə düşdüyü vəziyyətdən çıxış yolu göstərmək əvəzinə toplumu radikal mövqe tutmağa səsləyir, aranı qızışdırmağa çalışırlar. Sanki onlar xəyallar aləmində yaşayır, "fantaziyalar dəryaçası"na baş vurur, avantürist fikirlərlə, necə deyərlər, günlərini keçirirlər. Belələrindən biri də Artur Xaçikyandır.**

*(ardı 4-cü səhifədə)*

## BTC Azərbaycan neftini dünya bazarına qovuşdurur

### *Ötən müddətdə bu kəmərlə 600 milyon ton neft nəql olunub*

səhifə ⇨ 11

# Prezident İlham Əliyevlə görüş





**(əvvəli 1-ci səhifədə)**

Görüşdə ölkələrimiz arasında xüsusilə enerji sahəsində əməkdaşlığın vacibliyi qeyd edildi, Suriyanın hazırda ciddi enerji problemi ilə üzləşdiyi bildirildi. Bu xüsusda yaxın zamanlarda Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracı layihəsinin həyata keçiriləcəyi vurğulandı və bunun Suriyanın enerji təhlükəsizliyinə töhfə verəcəyi qeyd olundu. Azərbaycanın Suriyanın energetika sahəsinin bərpasına töhfə vermək iqtidarında olduğu diqqətə çatdırıldı.

Əhməd Əl Şaraa hazırda ölkəsinin üzləşdiyi ciddi enerji problemlərinin həllində Azərbaycanın töhfəsinin əhəmiyyətini vurğulayaraq, bunun Suriyanın inkişafına xidmət etdiyini dedi.

Söhbət zamanı Azərbaycanla Suriya arasında humanitar, təhsil və mədəniyyət sahələrində əməkdaşlığa toxunuldu, o cümlədən suriyalı tələbələrə Azərbaycanda təqaüdlərin verilməsi və mədəni abidələrin bərpası ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Ölkəmizin işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işlərində təcrübəsinin olduğu nəzərə alınaraq vurğulandı ki, bu xüsusda Azərbaycan Suriyanın postmünaqişə dövründə bərpa və quruculuq prosesinə öz töhfəsini verə bilər.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

*

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə məhdud tərkibdə görüşü keçirildi.

# Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət



**Ölkəmizdə işgüzar səfərdə olan Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa iyulun 12-də Fəxri xiyabanı ziyarət edib.**

Əhməd Əl Şaraa xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 203** **Bakı şəhəri, 8 iyul 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 iyun tarixli 427 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci iI 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 448, 469, № 7, maddələr 895, 915, № 8, maddə 996, № 12 (I kitab), maddə 1326, (II kitab), maddə 1428; 2025, № 3 maddələr 273, 294) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın 1-ci hissəsinə aşağıdakı məzmunda onuncu abzas əlavə edilsin:

"1-9/ Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 204** **Bakı şəhəri, 9 iyul 2025-ci il**

**"Sosial xidmət müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə və səmərəliliyinə nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

"Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 22 aprel tarixli 183-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 may tarixli 385 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Sosial xidmət müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə və səmərəliliyinə nəzarətin həyata keçirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Neft şirkəti Suriya Hökuməti ilə Anlaşma Memorandumu imzalayıb

**İyulun 12-də Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraanın ölkəmizə işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Suriya Ərəb Respublikası Hökuməti arasında Anlaşma Memorandumu imzalanıb.**



Memorandumu Azərbaycanın iqtisadiyyat naziri, ARDNŞ-nin Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Suriyanın energetika naziri Məhəmməd Əl Bəşir imzalayıblar.

***XQ***

# Suriyanın keçid dövrü Prezidentinin Azərbaycana səfəri başa çatıb



**Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraanın Azərbaycan Respublikasına işgüzar səfəri iyulun 12-də başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraanı Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

# Əli Əsədov Ukraynanın energetika naziri ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 12-də Ukraynanın energetika naziri German Qaluşenko ilə görüşüb.**

Nazirlər Kabinetindən bildiriblər ki, görüş zamanı Azərbaycan ilə Ukraynanın tarixən bir-birinin ərazi bütövlüyü və suverenliyinə göstərdiyi ardıcıl dəstəyin vacibliyi vurğulanıb. İki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olunub.

Hökumətlərarası Komissiyanın bu gün Bakıda keçirilmiş iclasının müxtəlif istiqamətlərdə iqtisadi əlaqələrin genişləndirilməsi baxımından əhəmiyyəti diqqətə çatdırılıb. Azərbaycanın Ukrayna xalqına göndərdiyi humanitar yardımlara görə minnətdarlıq ifadə edilib.

Görüş zamanı Azərbaycan-Ukrayna ikitərəfli əlaqələrinin gündəliyinin aktual məsələləri, o cümlədən iqtisadi, energetika, kənd təsərrüfatı, humanitar və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Azərbaycan və onun təmsilçiləri 40 gündə 6 beynəlxalq quruma seçiliblər

**Son 40 gün ərzində beynəlxalq təşkilatlar çərçivəsində keçirilmiş və Azərbaycan Respublikası və onun vətəndaşlarının namizəd olduğu 6 seçkidən hamısında qələbə qazanılması beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycan Respublikasına artan etimadın bariz göstəricisidir. Bu barədə XİN-dən bildirilib.**

Qeyd olunub ki, Azərbaycan Respublikası və onun vətəndaşları aşağıda göstərilən beynəlxalq səviyyəli seçkilərdə qalib gəliblər:

- BMT-nin Məskunlaşma Proqramının İcraiyyə Şurası (2025-2029-cu illər üzrə)
- BMT Turizmin İcraiyyə Şurası (2025-2029-cu illər üzrə),
- UNESCO-nun Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqi üzrə Komitə (2025-2029-cu illər üzrə),
- BMT-nin Əməkçi Miqrantlar üzrə Komitəsinin üzvlüyü (2026-2029-cu illər üzrə),
- BMT-nin Ətraf Mühit Proqramının Daimi Nümayəndələr Komitəsinə sədrlik,



- Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Katibi.

# Bakıdan Dəməşqə dostluq və əməkdaşlıq körpüsü

**Azərbaycan Respublikasının həyata keçirdiyi çoxşaxəli və prinsipial xarici siyasət bu gün təkcə Cənubi Qafqazda deyil, daha geniş geosiyasi məkanda ölkəmizin nüfuzunun artmasına xidmət edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan bu siyasət Azərbaycanın beynəlxalq münasibətlər sistemində sabitlik, əməkdaşlıq və ədalət naminə səmərəli təşəbbüslərlə çıxış edən, etibarlı və qətiyyətli tərəfdaş imicini möhkəmləndirib.**



Məhz bu siyasətin məntiqi davamı kimi, Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraanın ölkəmizə səfəri Azərbaycan–Suriya münasibətlərində yeni tarixi mərhələnin başlanğıcını qoyur. Bu mühüm səfər iki ölkə arasında qarşılıqlı etimada və mehriban dostluğa əsaslanan münasibətlərin keyfiyyətcə yeni müstəviyə keçdiyinin bariz ifadəsidir.

Azərbaycan Prezidenti İlham Əliyevlə Suriya keçid dövrünün Prezidenti Əhməd Əl Şaara arasında keçirilən təkbətək və geniş tərkibdə görüşlər zamanı tərəflər siyasi, iqtisadi, enerji, humanitar və mədəniyyət sahələrində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı mühüm müzakirələr apardılar. Bu səfər iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin tarixində dönüş nöqtəsi kimi dəyərləndirilə bilər.

Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, ölkəmiz Suriyanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəkləyib və bu prinsipial mövqe gələcək əməkdaşlığın möhkəm təməli olaraq qalır. Eyni zamanda, Prezident İlham Əliyevin təşəbbüsü ilə bu yaxınlarda yüksək səviyyəli nümayəndə heyətinin Suriyaya göndərilməsi və bərpa-quruculuq işlərində iştirak imkanlarının araşdırılması Azərbaycan dövlətinin sülhə, sabitliyə və inkişaf proseslərinə verdiyi real dəstəyin ifadəsi idi.

Azərbaycan bu gün regional və beynəlxalq müstəvidə obyektiv, ədalətli və prinsipial diplomatik mövqeyi ilə seçilir. Suriyada uzun illər davam edən münaqişənin aradan qaldırılması və sülhün bərpası prosesində Azərbaycanın ortaya qoyduğu "sakit diplomatiya" xətti ölkəmizi Yaxın Şərqdə sabitliyin təşviqinə töhfə verən əsas aktorlardan birinə çevirib. Prezident İlham Əliyevin qlobal diplomatik təşəbbüsləri həm də Azərbaycanın beynəlxalq hüququn əsas prinsiplərinə söykənən, qarşılıqlı hörmət və əməkdaşlığa əsaslanan yeni dünya nizamının təşəkkülündə fəal iştirak etdiyini göstərir.

Əlbəttə, Azərbaycan bu gün etibarlı enerji tərəfdaşı kimi beynəlxalq bazarlarda mövqeyini möhkəmləndirir. Artıq dünyanın 12 ölkəsinə qaz ixrac edən Azərbaycan üçün Suriya ilə enerji əməkdaşlığı da xüsusi əhəmiyyət daşıyır. Prezidentlərin görüşü zamanı bu sahədə aparılan müzakirələr nəticəsində Suriya bazarına Azərbaycan qazının Türkiyə üzərindən çatdırılması perspektivi real və strateji hədəf kimi ortaya qoyuldu. Bu, regionda enerji təhlükəsizliyinin təmininə töhfə verməklə yanaşı, Azərbaycanın qlobal enerji oyunçusu statusunu daha da gücləndirəcək.

Eyni zamanda, Azərbaycan işğaldan azad olunmuş ərazilərdə sürətli və genişmiqyaslı bərpa-quruculuq işləri apararaq beynəlxalq səviyyədə nümunəvi model təqdim edib. "Ağıllı kənd", "yaşıl enerji" və innovativ urbanizasiya sahəsində toplanan təcrübə artıq dünyanın müxtəlif bölgələri, o cümlədən Suriya üçün maraqlı əməkdaşlıq istiqamətinə çevrilib.

Azərbaycan bu təcrübəni Suriyada tətbiq etməyə, texniki dəstək və humanitar yardım göstərməyə hazır olduğunu nümayiş etdirir. Bu yanaşma təkcə siyasi və iqtisadi deyil, həm də insani baxımdan dəyərli və strateji xarakter daşıyır. Suriya liderinin Azərbaycana səfəri göstərdi ki, iki ölkə arasında münasibətlər yalnız tarixi dostluğa deyil, həm də gələcəyə hesablanmış güclü strateji baxışa söykənir. Bu baxış Prezident İlham Əliyevin uzaqgörən və milli maraqlara əsaslanan xarici siyasətinin tərkib hissəsidir.

Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi, COP29 kimi nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etməsi və Cənubi Qafqazda lider rolunu möhkəmləndirməsi ölkəmizin artan qlobal çəkisinin göstəricisidir. Bu kontekstdə Suriya ilə münasibətlərin dərinləşdirilməsi Azərbaycan diplomatiyasının məntiqi və strateji addımı kimi qiymətləndirilməlidir.

Suriya Prezidentinin Azərbaycana rəsmi səfəri dostluq, əməkdaşlıq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirdi. Azərbaycan bu gün yalnız regionda deyil, qlobal səviyyədə sülhün, sabitliyin və inkişafın təminatçısı rolunu uğurla icra edir. Prezident İlham Əliyevin liderliyi ilə yürüdülən bu ardıcıl siyasət Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırmaqla, ölkəmizi qlobal əməkdaşlığın ön sıralarında möhkəmləndirir.

Ümumiyyətlə, Azərbaycanın Yaxın Şərq siyasəti regionun mürəkkəb geosiyasi mənzərəsi və beynəlxalq maraqların toqquşduğu məkan kontekstində həyata keçirilir. Rəsmi Bakı bu istiqamətdə müstəqil, balanslaşdırılmış və prinsipial xarici siyasət kursu yürüdərək regional sabitlik, əməkdaşlıq və qarşılıqlı fayda prinsiplərini əsas götürür. Azərbaycan Yaxın Şərqdəki münaqişələrə münasibətdə beynəlxalq hüquq və BMT prinsiplərinə əsaslanan neytral və balanslı mövqe tutur. Rəsmi Bakı regionda qarşıdurmaların deyil, dialoq və siyasi həll yollarının tərəfdarıdır. Məsələn, Azərbaycan həm İran, həm Səudiyyə Ərəbistanı, həm də BƏƏ ilə münasibətləri paralel şəkildə inkişaf etdirir. Eyni zamanda, Fələstin məsələsi üzrə ölkə iki dövlətli həll modelini dəstəkləyir, həmçinin İsraillə strateji əməkdaşlığını davam etdirir. Bu yanaşma Azərbaycanı regionda tərəflər arasında vasitəçilik potensialına malik ölkə kimi tanıdır.

Bundan başqa, Yaxın Şərq Azərbaycanın enerji siyasətində həm tərəfdaş bazar, həm də tranzit imkanları baxımından xüsusi əhəmiyyət daşıyır. Məsələn, İsraillə energetika və yüksək texnologiyalar, BƏƏ və Səudiyyə Ərəbistanı ilə investisiya və "yaşıl enerji", Qətərlə qaz bazarlarında koordinasiya imkanları müzakirə olunur. Suriya ilə enerji və bərpa əməkdaşlığı münaqişədən sonrakı dövrdə Azərbaycanın Yaxın Şərqdə yeni bir aktora çevrilməsinə imkan yaradır. Bu iqtisadi diplomatiya xətti həm Azərbaycanın qaz ixrac coğrafiyasının genişlənməsi, həm də regionda enerji təhlükəsizliyinin təşviqi baxımından önəmlidir.

Azərbaycan Yaxın Şərqdə bir çox humanitar layihələr həyata keçirir. İƏT, Ərəb Dövlətləri Liqası və digər regional qurumlarla əməkdaşlıq çərçivəsində Fələstində, İraqda, Suriyada bərpa və yardım layihələri, Yaxın Şərq ölkələri ilə təhsil, səhiyyə və urbanizasiya sahələrində təcrübə mübadiləsi aparılır. Bakı region ölkələri ilə münasibətlərdə İslam həmrəyliyi, mədəni yaxınlıq və tolerantlıq dəyərlərini ön plana çəkir. İƏT çərçivəsində fəal diplomatik xətt yürüdülür. Suriya, Liviya, Yəmən və digər ölkələrdəki gərginliklərlə bağlı çağırışlar zamanı Azərbaycan prinsipial və insani yanaşmalar sərgiləyib. Eyni zamanda, Azərbaycan İslam dininə qarşı ayrı-seçkiliyə və islamofobiyaya qarşı beynəlxalq tribunalarda çıxış edir.

Azərbaycanın Türkiyə ilə strateji ittifaqı, İsraillə əməkdaşlığı, İranla mehriban qonşuluğu və ərəb ölkələri ilə diplomatik fəallığı rəsmi Bakıya regionda birləşdirici və vasitəçi rol oynamaq imkanı verir. Bu çərçivədə Azərbaycanın "sakit diplomatiya" modeli, yəni kənardan səs-küysüz, amma davamlı dialoq təşəbbüsləri uğurla tətbiq edilir.

Danılmaz faktdır ki, Qarabağ zəfərindən sonra Azərbaycanın regional çəkisi artıb. Türk Dövlətləri Təşkilatı, Mərkəzi Asiya–Yaxın Şərq körpüsü kimi yeni geoiqtisadi imkanlar Azərbaycanı Yaxın Şərqdə logistika və ticarət qovşağına çevirmək potensialına malikdir. Azərbaycanın Qlobal Cənubun liderlərindən biri kimi formalaşması da bu strategiyanın mühüm tərkib hissəsidir. Bütün bunların fonunda demək olar ki, Azərbaycanın Yaxın Şərq siyasəti geosiyasi neytrallıq, iqtisadi maraqlar, humanitar diplomatiya və regional sabitliyə töhfə prinsipləri üzərində qurulub. Bu siyasət Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən qlobal miqyaslı, çoxvektorlu və milli maraqlara söykənən xarici siyasət strategiyasının mühüm tərkib hissəsidir.

Bir sözlə, Azərbaycanın Suriya ilə münasibətləri, ölkənin qlobal güc mərkəzləri ilə balanslı əlaqələr saxlaması, regional münaqişələrin həllində vasitəçilik təşəbbüsləri göstərməsi və enerji siyasətində aktiv rolu onun artıq təkcə Cənubi Qafqazın deyil, daha geniş coğrafiyanın mühüm aktoruna çevrildiyini təsdiqləyir. Bu münasibətlər Azərbaycanın strateji baxışının, diplomatik çevikliyinin və beynəlxalq aləmdə qazandığı nüfuzun real nəticələrindən biridir. Azərbaycanın gələcəkdə də regional sabitliyin təmin olunmasında və beynəlxalq əməkdaşlığın genişləndirilməsində mühüm rol oynayacağı şübhəsizdir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Azərbaycan–Suriya enerji əməkdaşlığı

## *Bu əlaqələr Yaxın Şərq bazarında ölkəmizin mövqeyini möhkəmləndirir*

**Azərbaycan Prezidenti İlham Əliyevin Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə geniş tərkibdə görüşündə ölkələrimiz arasında xüsusilə enerji sahəsində əməkdaşlığın vacibliyi qeyd edilib, bu respublikanın hazırda ciddi enerji problemi ilə üzləşdiyi bildirilib. Eyni zamanda, yaxın vaxtlarda Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracı layihəsinin həyata keçiriləcəyi vurğulanıb və bunun Suriyanın enerji təhlükəsizliyinə önəmli töhfə verəcəyi xatırladılıb. Bununla bərabər, Azərbaycanın Suriyanın energetika sisteminin bərpasına töhfə vermək iqtidarında olduğu da diqqətə çatdırılıb.**



Bu məqamda xatırlatmaq yerinə düşər ki, Azərbaycanın enerji strategiyası son illərdə ardıcıl şəkildə genişlənir. Cənubi Qafqazın lider dövləti kimi enerji resurslarını dünyanın müxtəlif bölgələrinə ixrac edən Azərbaycan bu gün artıq yalnız ənənəvi tərəfdaşlarla deyil, həm də yeni regional bazarlarla əlaqələrini möhkəmləndirir. İndiyədək 12 ölkəyə, əsasən də Avropa dövlətlərinə təbii qaz ixrac edən Azərbaycan üçün indi yeni bir coğrafiya – Yaxın Şərq istiqaməti də formalaşır. Bu isə ölkəmizin enerji diplomatiyasında növbəti mərhələnin başlandığını göstərir.

Qeyd edək ki, Azərbaycan qazının Yaxın Şərqə ixracı ilə bağlı mühüm texniki və logistika məsələləri də sürətlə həll olunur. Məlum olduğu kimi, Türkiyə ilə Suriyanı birləşdirən qaz kəməri artıq bərpa edilib və bu xətt yaxın vaxtlarda kommersiya qaz nəqlinə hazır olacaq. Daha önəmli isə odur ki, Suriyanı İordaniya ilə birləşdirən, lakin müharibə illərində dağıdılmış digər qaz kəmərinin də yenidən qurulması perspektivləri dəyərləndirilir.

Bu layihənin reallaşması Azərbaycan qazının Suriyadan keçməklə İordaniyaya, hətta Misirə qədər nəqlinə geniş yol açacaq. Belə bir marşrutun formalaşması Azərbaycanın qaz ixrac coğrafiyasını daha da şaxələndirəcək və enerji bazarlarında nüfuzunu artıracaq.

Suriyanın bu prosesdə yalnız istehlakçı yox, həm də tranzit ölkə qismində iştirakı mühüm önəm daşıyır. Bu, həm regional əməkdaşlıq formatlarının genişlənməsinə, həm də Azərbaycan qazının ərəb dünyasına çıxışına real zəmin yaradır. Beləliklə, Azərbaycan Avropa ilə yanaşı, həm də Yaxın Şərq ölkələri üçün etibarlı enerji tərəfdaşı kimi çıxış edir.

Azərbaycanın enerji strategiyası yalnız qaz ixracı ilə məhdudlaşmır. Son illərdə ölkəmizdə elektrik enerjisi istehsalında böyük artım müşahidə olunur. Xüsusilə "yaşıl" enerji layihələrinin genişlənməsi bu sahədə ixrac potensialını getdikcə artırır. İndi respublikamızın qarşısında Yaxın Şərqə elektrik enerjisi ixracı imkanları açılır. Texniki baxımdan elektrik enerjisinin regional şəbəkələr vasitəsilə ötürülməsi və bu sahədə də yeni əməkdaşlıq formatlarının yaradılması gündəmdədir. Azərbaycanın geoiqtisadi mövqeyi və inkişaf etmiş enerji infrastrukturu belə bir addımı reallaşdırmağa imkan verir. Bu, təkcə iqtisadi deyil, həm də diplomatik uğur kimi qiymətləndirilə bilər. Enerji sahəsində əməkdaşlıq ölkələr arasında sabitliyi və qarşılıqlı asılılığı gücləndirir.

Azərbaycanın qaz ixrac etdiyi ölkələrin sayı artıq 13-ə çatmaq üzrədir. Əgər Suriyaya qaz nəqli reallaşarsa və İordaniya ilə Misirə doğru istiqamət genişlənərsə, bu sayın artması qaçılmaz olacaq. Bu isə Azərbaycanın enerji ixrac siyasətinin dinamik və çoxşaxəli xarakter aldığını göstərir. Azərbaycan qazı artıq yalnız Avropanın enerji təhlükəsizliyinə töhfə vermir, həm də Yaxın Şərq ölkələrinin enerji balansının formalaşmasında rol almağa başlayır. Bu, enerji siyasətinin beynəlxalq əlaqələrə inteqrasiyası və regionlararası körpülərin yaradılması baxımından strateji uğurdur.

Azərbaycanın Yaxın Şərqə qaz və enerji ixracı ilə bağlı atdığı addımlar ölkənin enerji siyasətində yeni mərhələnin başlandığını göstərir. Bu, həm iqtisadi mənfəət, həm də geosiyasi təsir baxımından önəmli strateji xəttdir. Region ölkələri ilə əməkdaşlıq, yeni enerji marşrutlarının yaradılması və alternativ bazarların formalaşması Azərbaycanın mövqelərini daha da gücləndirir.

Beləliklə, Azərbaycan dünya enerji bazarında getdikcə daha çox tanınan, güvənilən və strateji tərəfdaş kimi çıxış edir. Yeni coğrafiyalar, yeni imkanlar və dayanıqlı əməkdaşlıq perspektivləri Azərbaycanın enerji diplomatiyasını qlobal miqyasda yeni zirvələrə daşıyır.

Sonda bir məqamı da xatırlatmaq istərdik. Dünən Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraanın ölkəmizə işgüzar səfəri çərçivəsində Azərbaycan Dövlət Neft Şirkəti ilə Suriya Ərəb Respublikası Hökuməti arasında Anlaşma Memorandumu imzalanıb. Memorandumu Azərbaycanının iqtisadiyyat naziri, Dövlət Neft Şirkəti Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Suriyanın energetika naziri Məhəmməd Əl Başir imzalayıblar.

Azərbaycan Dövlət Neft Şirkəti ilə Suriya Ərəb Respublikası Hökuməti arasında imzalanan Anlaşma Memorandumu iki ölkə arasında enerji sahəsində əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu göstərir. Bu sənədə əsasən, yaxın gələcəkdə Azərbaycan təbii qazı Suriyaya ixrac olunacaq. Bu təşəbbüs Azərbaycanın regional enerji təchizatçısı kimi mövqeyini möhkəmləndirəcək, eyni zamanda, Suriyada enerji təminatının sabitliyinə və iqtisadi dirçəlişinə mühüm töhfə verəcək.

Suriyaya qaz ixracı Türkiyə üzərindən ildə 1 milyard kubmetr həcmində planlaşdırılır və bu məsələ Suriya Prezidentinin Bakıya səfəri çərçivəsində ətraflı müzakirə olunub. Suriya həm istehlakçı ölkə, həm də tranzit rolunu oynaya bilər. Artıq Türkiyə ilə Suriyanı birləşdirən qaz kəməri bərpa edilib. Həmçinin Suriyanı İordaniya ilə birləşdirən qaz kəmərinin də bərpası nəzərdən keçirilir ki, bu da Azərbaycan qazının gələcəkdə Misirə qədər çatdırılması imkanlarını artırır. Bundan əlavə, Azərbaycanın elektrik enerjisi istehsalı və ixracı sahəsində də yeni imkanlar yaranır. Yaxın Şərq bazarı bu baxımdan perspektivli istiqamətlərdən biri kimi qiymətləndirilir. Beləliklə, bu əməkdaşlıq nəticəsində Azərbaycanın təbii qaz ixrac etdiyi ölkələrin sayı 13-ə çatır və bu, ölkənin enerji diplomatiyasının uğurlu genişlənməsinin göstəricisidir.

***V.BAYRAMOV***
***XQ***

# "Azərbaycanın sülh şərtləri dəyişməyib"

## *Siyasi ekspert İrəvanın yeni reallığa uyğun davranmasını zəruri sayır*

**Azərbaycanın təşəbbüsü ilə sülhə aparan yolda daha bir önəmli addım atıldı. Neytral, tərəfsiz məkanda Azərbaycan və Ermənistan rəhbərliyi yüksək səviyyəli heyətlə görüşdülər. Həm Bakı, həm də İrəvan görüşün müsbət nəticələndiyinə dair məlumat yaydılar. Bəs yekun nəticəyə – dayanıqlı sülhə nail olmaqdan ötrü Ermənistan ondan tələb olunan addımları atmağa hazırdırmı? Baş nazir Paşinyan daxildə üzləşdiyi siyasi gərginliyi aradan qaldıra biləcəkmi? Bu və digər suallarımızı "ANEWZ" telekanalının baş redaktorunun müavini, tanınmış siyasi icmalçı Orxan Amaşov cavablandırır.**



**– Orxan bəy, Əbu-Dabi ikitərəfli görüşünü Ermənistan və Azərbaycan arasında sülh danışıqlarının son və həlledici mərhələsi kimi dəyərləndirmək olarmı?**

– İrəvan və Bakı arasında danışıqların məhz bu şəkildə Əbu-Dabidə baş tutması Azərbaycanın sülh yolunda son illər atdığı addımların məntiqi nəticəsidir. Söhbət danışıqların ikitərəfli formatda keçirilməsindən gedir. Sülh danışıqları 2023-cü ilin sonlarından etibarən ikitərəfli xarakter daşıyır. Yəni, Azərbaycan Qarabağda suverenliyini tam bərpa etdikdən sonra sülh moderatorları kənara çəkilməyə məcbur oldular və danışıqlar ikitərəfli əsnada davam etdirildi. 2023-cü il dekabrın 7-də qəbul edilən birgə bəyanat ikitərəfli təmasların və danışıqların nəticəsi idi. 2024-cü il ərzində həm liderlər, həm də xarici işlər nazirləri səviyyəsində təmaslar oldu. Xatırladım ki, 2024-cü ilin fevralında Münxen Təhlükəsizlik Konfransında Almaniya Kansleri Olaf Şoltsun iştirakı ilə ikitərəfli görüş keçirildi. Format belə idi: Olaf Şolts növbə ilə Azərbaycan və Ermənistan nümayəndə heyətlərini qəbul etdi, onlara arzu və istəyini çatdırdı və kənara çəkildi. Eyni zamanda, Berlində və Almatıda xarici işlər nazirləri səviyyəsində də buna bənzər görüş formatının şahidi olduq. Bu, ikitərəfli formatdır və bir ölkə platforma təklif edir və o, ev sahibi kimi qonaqları qəbul edir, sonra görüş məkanından çıxır. Amma sonralar böyük tədbirlərin kuluarlarında liderlərin ayaqüstü söhbətlərinin də şahidi olduq. Məsələn, 2025-ci il mayın 16-da Tiranada Avropa Siyasi Birliyinin 6-cı sammitində Prezident İlham Əliyev baş nazir Nikol Paşinyanla görüşdü. Doğrudur, görüş rəsmi deyildi, amma ikitərəfli xarakterə malik idi. Çünki ortada üçüncü tərəf yox idi.

Əbu-Dabi görüşü fundamental əsaslar ilə özündən əvvəlkilərin hamısından fərqlənir. Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycanın münasibətləri yüksək səviyyədədir. Ermənistan da bu ərəb ölkəsi ilə konstruktiv və funksional münasibətlərə malikdir. Bunu dövlətlərarası hərtərəfli, təmhüquqlu dialoq kimi qiymətləndirmək olar.

**– Əbu-Dabidə Azərbaycan, sanki, ev yiyəsi kimi çıxış edirdi. Prezident İlham Əliyevin görüşdən əvvəl qarşı tərəfin nümayəndə heyəti ilə salamlaşma səhnəsi belə bir təsəvvür yaradırdı...**

– Doğrudur, dövlətimizin başçısı özünü ev sahibi kimi aparırdı. Fikir verdinizsə, görüşdən əvvəl BƏƏ rəsmisi görünmədi, qonaqlarla görüşmədi. Orada üçüncü tərəf tamamilə yox idi. Görüş, sadəcə, üçüncü tərəfin ərazisində keçirilirdi. Bu ikitərəfli formatda üçüncü tərəfin hansısa rolu yoxdur, amma nümayəndə heyətlərinin tərkibinə görə böyük tədbir idi. Heyətə kimlər daxil idi? Baş nazirin müavini Şahin Mustafayev, onun həmkarı, sərhədin delimitasiya və demarkasiya məsələləri üzrə birgə çalışdığı Mqer Qriqoryan, xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan, Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev və onun təmasda olduğu Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan, Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov və qarşı tərəfdən portfelində Türkiyə–Ermənistan münasibətlərinin normallaşması qovluğu olan vitse-spiker Ruben Rubinyan. Yəni, hər iki tərəfdən danışıqlar prosesində birbaşa iştirak edən 4 fundamental şəxsi gördük. Liderlər və dördlərlə yanaşı, orada nümayəndə heyətinin başqa üzvləri də vardı.

**– Əslində, dialoqa qatılmış və sadaladığınız səlahiyyət sahiblərinin məsul olduğu sahələr ikitərəfli görüşün gündəliyində nələrin olduğunu nümayiş etdirirdi...**

– Bildiyiniz kimi, Ermənistan–Azərbaycan sülh gündəliyində 3 əsas fundamental istiqamət yer alır. Biri iki ölkə arasında sülh sazişi üzrə gedən danışıqlar, təmaslar, digəri demarkasiya və delimitasiya məsələləri və üçüncüsü kommunikasiya xətlərinin açılması məsələsidir. Hər 3 istiqamət üzrə məsələlər müzakirə olundu. Xarici işlər nazirləri tərəfindən ictimaiyyətə çatdırılan mətbuat məlumatlarının mahiyyəti identik idi. Həmin açıqlamalar mediaya ötürülməzdən öncə biz Əbu-Dabidən müəyyən məlumatlar əldə etdik. Bu, tərəflərin sülh müqaviləsinin paraflanması istiqamətində aparılan müzakirələrlə bağlı idi. Yada salım ki, hələ keçən ilin sonlarında, sülh sazişinin mətni üzərində danışıqlar prosesi davam edəndə iki müddəa ətrafında müzakirələr gedirdi. Birinci müddəa şərti sərhəddə üçüncü tərəfin heç bir qüvvəsinin olmaması, ikincisi isə tərəflərin qarşılıqlı şəkildə məhkəmə iddialarından imtina etmələri ilə bağlı idi. Martın 13-də tərəflərin həmin müddəalar üzrə, eləcə də sülh sazişinin mətninin tamamilə razılaşdırıldığı barədə məlumat verildi. Bu mətndə Zəngəzur dəhlizi ilə bağlı müddəa yoxdur. Sülh müqaviləsinin imzalanma prosesini sürətləndirmək üçün Azərbaycan bu güzəştə getdi. COP-29-un keçirilməsindən bir qədər əvvəl belə fikir səslənirdi ki, tərəflər razılaşdırılmış müddəalar üzrə sülh sazişini paraflasınlar və hüquqi müəyyənlik əldə edilsin. Sülh müqaviləsinin paraflanması məsələsi indi də gündəlikdədir. Bu məlumat mediaya verilən press-relizdə yer almadığı üçün danışıqların davam edəcəyini söyləmək olar. İndiki məqamda kommunikasiya xətlərinin açılması istiqamətində də müzakirələr davam etdirilir. Burada Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Bizə Naxçıvana maneəsiz keçid və onun təhlükəsizliyinə təminat lazımdır. Aydın məsələdir ki, Ermənistan birtərəfli qaydada bu təminatı verə bilməz.

**– Yayılan qeyri-rəsmi məlumatlarda ABŞ-ın özəl şirkətlərindən birinin Zəngəzur dəhlizi üzərində nəzarəti həyata keçirməyə hazır olduğu deyilirdi.**

– Bu məlumat öz təsdiqini tapmadı. Hətta Ermənistan mediasında bunun feyk-xəbər olması barədə yazılar verildi. Beynəlxalq Böhran Qrupu adlı beyin mərkəzinin erməni əsilli əməkdaşının bu mövzuda məqaləsi dərc olundu. Digər mənbələr də bunu dövriyyəyə buraxsa da, yenə rəsmi təsdiqi yoxdur. Azərbaycan bütün variantlara baxa bilər. Bir ara İsveçrənin hansısa şirkətinin Zəngəzurda təhlükəsizliyi təmin edəcəyi ilə bağlı xəbərlər yayılmışdı. Hesab edirəm ki, bu məsələdə vaxtından əvvəl fikir söyləməkdən yayınmaq lazımdır. Ortaya çıxan, yayılan təkliflərin mahiyyəti ona əsaslanır ki, hər iki tərəf bununla razılaşmalıdır. Məsələnin məntiqi belədir. 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatının 9-cu bəndində hər şey aydın qeyd olunub. Üstündən az qala 5 il keçib, amma Ermənistan məlum səbəblərdən bu öhdəliyi yerinə yetirməkdən boyun qaçırır. Bununla bağlı hələ 2021-ci ildə yaradılmış hökumətlərarası üçtərəfli işçi qrupu da bir iş görə bilmədi. Həmin ilin noyabrında Brüsseldə təşkil olunan görüşdə kommunikasiya xətlərinin açılması, Zəngəzur dəhlizi mövzusu artıq gündəliyə salınmışdı. Sonrakı görüş və müzakirələrin xronologiyasını yada salaq: 2021-ci ilin dekabrında birinci, 2022-ci ilin aprelində ikinci, həmin ilin mayında üçüncü, avqustunda isə dördüncü görüş keçirildi. Bu görüşlərin hamısında kommunikasiya xətlərinin qarşılıqlı açılması məsələsi müzakirəyə çıxarıldı. Sadəcə, ölkələrin suverenlik prinsipinə görə, dəhlizə nəzarəti Ermənistan həyata keçirməlidir. Amma mümkün qədər asanlaşdırılmış rejimdə. Əgər o zaman İrəvan eksterritoriallıq prinsipinə əməl etsəydi, problem həllini tapardı. 2023-cü ilin aprelində Azərbaycan Laçın dəhlizi üzərində özünün sərhəd-nəzarət məntəqəsini qurandan sonra artıq bu mərhələ arxada qaldı.

**– Fikrinizcə, Nikol Paşinyanın sülh marafonunu finişə qədər getməyə siyasi iradəsi çatacaqmı?**

– Ermənistan baş nazirinin daxildə üzləşdiyi vəziyyət çox gərgindir. Düşünürəm ki, daxildə eskalasiyanı yaradan elə Paşinyanın özüdür. O, parlament seçkiləri öncəsi bütün rəqiblərini tamamilə sıradan çıxarmağa çalışır. Paşinyan hadisələrin gərginlik sürətini heç də azaltmaq niyyətində deyil. Əbu-Dabidə tərəflərin müzakirə etdikləri məsələlər də ona Ermənistan auditoriyasına bunu deməyə imkan verməlidir: sülh prosesi uğurla davam edir və bu, bizim maraqlarımıza uyğundur, müsbət nəticələr də əldə olunur. Bəli, bu gün Paşinyana sülh nüqaviləsini imzalamaq, Türkiyə ilə sərhədlərin açılmasına nail olmaq, bunun nəticəsində də ölkə iqtisadiyyatında inkişafı təmin etdiyini göstərmək lazımdır. Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən beynəlxalq güclər də Bakıdan Paşinyana kömək etməsini istəyirlər. Amma məsələ ondadır ki, bu gün Azərbaycanın Ermənistan baş nazirinin dostu kimi görünməsi onun daxildəki vəziyyətini daha da ağırlaşdıra bilər. Həm də ki, biz hələ istəyimizə tam nail olmamışıq.

**– Qayıdaq sülh sazişinin imzalanmasına mane olan şərtlərin Ermənistan tərəfindən aradan qaldırılması məsələsinə...**

– Azərbaycanın bu məsələdə mövqeyi dəyişməyib. Nə qədər ki, Ermənistan konstitusiyasında ölkəmizə qarşı ərazi iddialarını ehtiva edən müddəalar aradan qaldırılmayıb, ATƏT-in Minsk qrupu ilə bağlı məsələ həll olunmayıb sülh sazişi imzalanmayacaq. Sülh sazişində razılaşdırılmış müddəalar üzrə paraflanma həyata keçirilə bilər, amma müqavilənin tam mətninin imzalanması nəzərdən keçirilmir. Bu yaxınlarda Azərbaycanın analitik dairələrində "2+2+2" adlı bir konfiqurasiya ortaya atılmışdı. Mahiyyəti odur ki, iki məsələ sülh müqaviləsinin içində idi və onlar həlli tapdı. Daha iki məsələ sazişdən kənardadır. Bunlar, dediyimiz kimi, Ermənistan konstitusiyası və ATƏT-in Minsk qrupuna bağlıdır. Müqavilədən kənardakı bu iki məsələnin həlli ona görə vacibdir ki, sülh sazişi imzalansın. Sərhədlərin delimitasiyası və kommunikasiyaların açılması isə sonrakı mərhələdə razılaşdırıla biləcək iki məsələdir. Bizim fikrimizcə, sülh sazişi imzalanana qədər kommunikasiyaların açılması istiqamətində ciddi irəliləyiş olmalıdır. Bu, subyektiv mülahizəmizdir, rəsmi Bakının mövqeyi deyil. Bakının konkret mövqeyi budur: 2023-cü ilin payızından bölgədə yeni reallıq mövcuddur və o, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tam bərpa etməsi nəticəsində yaranıb. Bu isə beynəlxalq hüququn prinsipləri olan ərazi bütövlüyü və suverenliyə əsaslanır. Bəli, bu gün de-fakto sülh var, zamanı gələndə de-yure də olacaq. Bundan ötrü Ermənistan Azərbaycanın iki əsas şərtinə əməl etməlidir.

*Söhbəti yazıya köçürdü:*
***İmran BƏDİRXANLI***
***XQ***

# İddialar uydurma, ritorika təhlükəlidir

(əvvəli 1-ci səhifədə)

Xaçikyan özünü "ABŞ-ın Stenford Universitetinin politologiya üzrə doktoru" kimi təqdim etməyi xoşlayır. Ancaq onun bütün günü İrəvanda keçir. Sağa-sola proseslərin gerçək mahiyyətini təhrif edən müsahibələr paylayır. Onun Azərbaycan və Ermənistan liderləri arasında iyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçirilən görüşlə bağlı "Nyus.am" saytına verdiyi geniş müsahibəsi də bu baxımdan istisna deyil. O deyib ki, Əbu-Dabidə heç bir sənəd imzalanmadı, çünki, Azərbaycanın digər gözləntiləri, digər tələbləri (?) var imiş. Həmin "gözlənti və tələblər"in nədən ibarət olduğunu açıqlayan Xaçikyan deyib ki, bunlar azərbaycanlıların geri qayıtması, İrəvanda azərbaycanlı icmasının yaradılması (?) və bəzi kilsələrin albanlaşdırılması (?) ilə bağlıdır.

Əvvəla, Əbu-Dabidə hansısa sənəd imzalanmamasının səbəbləri ilə bağlı qeyd etmək lazımdır ki, bunun baş verəcəyi heç gözlənilmirdi. Çünki rəsmi İrəvan Bakının iki legitim tələbini – ölkəmizə qarşı ərazi iddialarını özündə ehtiva edən konstitusiyanın dəyişdirilməsi və ATƏT-in Minsk qrupunun buraxılmasına dair təşkilatın katibliyinə birgə müraciət etmək məsələsini hələ də həyata keçirməyib. Yəni, Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsinin mətni üzrə danışıqlar bu ilin martında yekunlaşsa da, sənədin indiyədək imzalanmaması Ermənistanın bu iki şərti yerinə yetirməməsi səbəbindən baş tutmayıb. Bu mənada erməni politoloqun "heç bir sənəd imzalanmadı, çünki Azərbaycanın digər gözləntiləri var imiş" yanaşması, əslində, reallığı təhrif etməyə yönəlmiş klassik manipulyasiya nümunəsidir. Xaçikyan bununla danışıqların uğursuz keçdiyi görüntüsünü yaratmağa, bunu Azərbaycanla əlaqələndirməyə çalışır. Halbuki, Əbu-Dabi görüşü çox konstruktiv mühitdə keçib. Görüş zamanı Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin vacib istiqamətləri – sərhədlərin delimitasiyası, Zəngəzur dəhlizinin açılması və inkişafı, sülh müqaviləsinin paraflanması və digər məsələlərlə bağlı çox ciddi və substansiv müzakirələr aparılıb. Bu təmasların və danışıqların istər müxtəlif işçi qrupları səviyyəsində, eyni zamanda, daha yüksək səviyyələrdə davam etdirilməsi barədə ümumi razılıq əldə edilib. Xaçikyanın mövqeyi isə girişdə qeyd etdiyimiz kimi, erməni cəmiyyətini çaşdırmağa xidmət edir. Onun yanaşması Ermənistan daxilindəki revanşist dairələrin mövqeyi ilə tam üst-üstə düşür. Yəni, sanki Nikol Paşinyan hökuməti güzəştə hazır idi, amma Azərbaycan son anda əlavə tələblər irəli sürüb. Halbuki İrəvanın qeyd etdiyimiz məsələdə konkret addımlar atması gərəkdir. Bu isə yalnız real iradə və qətiyyət tələb edir.

Başabəla politoloqun "azərbaycanlıların geri qayıtması", "İrəvanda azərbaycanlı icmasının yaradılması" və "bəzi kilsələrin albanlaşdırılması" tələblərini göstərməsi reallıqdan uzaq, populist, auditoriyanı tovlamağa yönəlmiş təbliğat üsuludur. Bu məsələlər danışıqlar gündəliyində yer almayıb. Prosesdə hansı məsələlərin yer aldığını az öncə qeyd etdik. Azərbaycanlıların Ermənistana geri qayıtması məsələsi sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsinin tərkib hissəsi deyil. Lakin 1948–53-cü və 1987–1991-ci illərdə Qərbi Azərbaycandan (indiki Ermənistan Respublikası ərazisindən - red.) qovulmuş yüz minlərlə azərbaycanlının hüquqları bərpa olunmalıdır. Bu, beynəlxalq hüququn tələbidir. BMT-nin insan hüquqları üzrə konvensiyaları, Avropa İnsan Hüquqları Məhkəməsinin presedentləri və ATƏT-in Helsinki prinsipləri aydın şəkildə bildirir ki, zorla köçürülmüş şəxslər doğma yurdlarına qayıtmaq hüququna malikdirlər. Bu hüququn bərpasını "Azərbaycanın yeni tələbi" kimi qələmə vermək qərəzli yanaşmadır. Bu, Ermənistanın üzərinə götürdüyü beynəlxalq öhdəliklərdən yayınmaq üçün uydurulmuş arqumentdir.

İkincisi, "İrəvanda azərbaycanlı icmasının yaradılması" iddiası tamamilə absurddur. Azərbaycan tərəfindən belə bir tələb heç bir sənəddə, bəyanatda və ya beynəlxalq platformada səsləndirilməyib. Burada məqsəd Ermənistan cəmiyyətində qorxu və panika yaratmaq, guya, Azərbaycanın revanşist mövqedən çıxış etdiyi rəyini formalaşdırmaqdır. Əslində isə Azərbaycan tərəfi regionda uzunmüddətli sülh üçün etnik müxtəlifliyin tanınması və qarşılıqlı etimadın qurulması kimi humanitar prinsipləri daim gündəmə gətirib. Ermənistanda yaşayan azərbaycanlıların hüquqlarının tanınması beynəlxalq hüquq normalarının tələbi kimi səsləndirilib, amma bunu "İrəvanda icma yaratmaq" kimi təhrif etmək açıq təxribatdır.



Üçüncü məqam, yəni Xaçikyanın "bəzi kilsələrin albanlaşdırılması" barədə söylədikləri isə tamamilə tarixi saxtakarlığın və siyasi isterikanın təzahürüdür. Qafqaz Albaniyasına aid kilsələrin Azərbaycan mədəni irsi kimi qeydiyyata alınması UNESCO prinsiplərinə, tarixi mənbələrə və elmi arxeoloji araşdırmalara əsaslanır. Məsələn, Kiş (Şəki rayonu), Ləkit və Qum (Qax rayonu) kilsələrinin alban mənşəli olması bu gün dünya tarixşünaslığında qəbul edilmiş faktdır. Ermənilərin bu abidələri mənimsəməsi isə sovet dövründən başlayan planlı mədəni assimilyasiya siyasətinin nəticəsidir. Azərbaycanın bu məsələdə mövqeyi yalnız tarixi ədalətin və milli-mənəvi irsin bərpasına yönəlib, heç bir dini və ya etnik qarşıdurma niyyəti daşımır. Xaçikyanın bu cür uydurmaları, əslində, Ermənistan daxilindəki müxalif radikal dairələrin "Paşinyanı Azərbaycanın istəklərinə boyun əyən lider" kimi göstərmək cəhdlərindən biridir.

Xaçikyanın Zəngəzur dəhlizi ilə bağlı müzakirələr fonunda "Türkiyə rəsmi olaraq Ermənistan ərazisinə daxil olub" fikri isə nonsensdir. Üstəlik, o, deyib ki, Türkiyə bölgədən heç yerə getməyəcək: "İndi bizim İranla da əlaqəmiz kəsilib (?). Dəhliz genişlənəcək və Azərbaycana inteqrasiya edəcək. Ermənistanın əhalisi tədricən buranı tərk edəcək. Erməni əhalisini azərbaycanlılar əvəzləyəcək. Bütün bu proseslər üçün seçkilərdə Paşinyana səs verən 680 min insanı və aciz, təşkilatsız müxalifəti təbrik edirəm".

Onun Zəngəzur dəhlizi ilə bağlı "Türkiyə rəsmi olaraq Ermənistan ərazisinə daxil olub" fikri nə hüquqi, nə də siyasi reallıqla üst-üstə düşür. Bu cür bəyanatlar nonsens olmaqla yanaşı, Ermənistan ictimaiyyətində süni qorxu atmosferi yaratmaq, türkofobiya meyillərini gücləndirmək və revanşist dairələrin emosional dayaqlarını möhkəmləndirmək məqsədi daşıyır. Türkiyə bu gün Ermənistan ərazisində nə hərbi, nə inzibati, nə də siyasi baxımdan mövcuddur. Qardaş ölkənin regionda artan nüfuzu yalnız iqtisadi-ticari əməkdaşlığı və logistik şəbəkələr vasitəsilə özünü göstərir. Bu, normal geosiyasi prosesdir, "daxil olma" kimi təqdim edilməsi isə təxribatdır. Bu, həm də Azərbaycanın və Türkiyənin regional kommunikasiyaların açılmasına dair çağırışlarını təhlükə kimi qələmə vermək cəhdidir. Halbuki istər 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanat, istərsə də sonrakı görüşlərdə Zəngəzur dəhlizinin açılması bölgədə ticarət dövriyyəsinin artımı, iqtisadi inteqrasiyanın gücləndirilməsi və gərginliyin azaldılması üçün müsbət addım kimi təqdim olunub. Ermənistanın öz iqtisadi blokadasını qırması üçün bu fürsəti sabotaj etmək əvəzinə dəyərləndirməsi daha rasional olardı.

Onun "İndi bizim İranla da əlaqəmiz kəsilib" sözləri isə növbəti dezinformasiyadır. Ermənistan–İran əlaqələri rəsmi olaraq davam edir, sərhəd açıqdır, energetika və yol infrastrukturuna dair razılaşmalar qüvvədədir. Əslində, Zəngəzur dəhlizinin açılması da İran–Ermənistan əlaqələrinə maneə deyil, əksinə, bölgədə alternativ ticarət yollarının çoxalması üçün platformadır. Bu fikirlərlə Xaçikyan Ermənistanın qonşularına qarşı süni düşmənçilik yaratmağa çalışır.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Ramiyə MƏMMƏDOVA, politoloq**

– Artur Xaçikyanın "Nyus.am"a müsahibəsində səsləndirdiyi fikirlər Ermənistan cəmiyyətində qorxu və xaos yaratmağa, Azərbaycanın sülh təşəbbüslərini təhrif etməyə xidmət edir. Onun Əbu-Dabi görüşünün nəticəsiz qalmasını Azərbaycanın "yeni tələbləri" ilə əlaqələndirməsi reallıqdan uzaq yanaşmadır. Azərbaycan tərəfi konkret və beynəlxalq hüquqa əsaslanan sülh prinsipləri təklif edir. Qovulmuş azərbaycanlıların geri qayıtması, tarixi irsin qorunması və nəqliyyat dəhlizlərinin açılması beynəlxalq normaların tələbləridir, şərt və ya təhdid deyil. Onun Zəngəzur dəhlizi ilə bağlı "Türkiyə Ermənistan ərazisinə daxil olub" fikri isə ağlasığmazdır. Məqsədi ölkədəki türkofob isteriyanı qızışdırmaqdır. "İrəvan azərbaycanlaşdırılır" kimi fikirlər isə etnik qarşıdurma çağırışıdır. Bu cür ritorika Ermənistanı regionda təcridə aparır. Əslində, Ermənistan real sülh prosesindən yayınmaq üçün bu kimi uydurma tezislərə sığınır və daxili auditoriyada süni "xarici düşmən" obrazı formalaşdırır. Bu isə sülh dövrü üçün zərərli yanaşmadır.

14 iyul 1969-cu ildən başlanan yol

# *Heydər Əliyev:*

# “Regionda bizim müstəqilliyimizi boğmağa cəhd edən ölkələr var”

**“Azerbaijan International” jurnalının baş redaktoru Betti Bleyer 1997-ci il avqustun 3-də Prezident Heydər Əliyevin Prezident Bill Klintonun dəvəti ilə Amerika Birləşmiş Ştatlarına rəsmi səfəri zamanı aldığı bu müsahibəni Azərbaycan dilinə tərcümədə geniş auditoriyaya ilk olaraq “Xalq qəzeti” təqdim edir.**



**

*Prezident Heydər Əliyevlə aşağıdakı müsahibəm 1997-ci ilin avqustun 3-də Azərbaycan Prezidentinin Prezident Bill Klintonun dəvəti ilə Amerika Birləşmiş Ştatlarına rəsmi səfəri zamanı baş tutdu. Bu, onun Amerika Birləşmiş Ştatlarına 11 günlük (27 İyul - 6 avqust) səfərinin səkkizinci günü, Nyu-Yorka, Vaşinqtona, Kolumbiya dairəsinə, Hyustona və Çikaqoya səfər etdiyi vaxt idi. İki gün əvvəl Prezident Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintonla görüşmüşdü və Ağ Evdə üç əsas neft müqaviləsini imzalamışdı. Bu səfər Prezident Əliyevin Birləşmiş Ştatlara üçüncü səfəri idi. O, 1994 və 1995-ci illərdə Birləşmiş Millətlər Təşkilatında çıxış etmişdi və hər iki tədbirdə, 1994-cü ildə Budapeştdə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Sammiti daxil olmaqla digər tədbirlərdə Prezident Klintonla qeyri-rəsmi görüşmüşdü.*

*Jurnalistlər nadir hallarda Prezident Əliyevdən şəxsi suallar soruşmağa cəsarət edir. Xarici jurnalistlərin ondan müsahibə götürməyə imkanı olanda, adətən, regionda ən axırıncı siyasi və iqtisadi hadisələrlə əlaqəli cari sualları soruşurlar. Digər tərəfdən, azərbaycanlı jurnalistlər şəxsi mövzulardan uzaq olan, Sovet dövründə müəyyən olunmuş daha çox formal, ənənəvi jurnalist üslubuna riayət etməyə meyillidirlər.*

*Buna görə də, mən 1993-cü ildən başlayan digər müsahibələrimdə, bir qayda olaraq, onun xarakterini, şəxsiyyətini və bəzi maraqlarını üzə çıxaran mövzuları təqdim etməyə cəhd etmişəm. Mən Amerika Birləşmiş Ştatlarına bu səfərdə Prezidenti müşayiət edən 60 nəfərdən ibarət nümayəndə heyətinin tərkibində yeganə qeyri-azərbaycanlı idim. Gündəlikdə açıq müzakirə edilmiş rəsmi problemlərdən boyun qaçırmağı düşündüm. Hyuston və Çikaqo arasında təyyarədə uçuş vaxtı təşkil olunan bu müsahibədə çoxları üçün maraq doğuran məsələləri öyrənməyə çalışdım.*

**BETTİ BLEYER: İcazə verin, sualıma burada, Amerika Birləşmiş Ştatlarında sizə göstərilən qonaqpərvərlik və səmimiyyətlə bağlı fikirlərinizi soruşmaqla başlayım. On ildən bir az əvvəllər Birləşmiş Ştatlar və Sovet İttifaqı bir-birini ən qorxulu düşmən hesab edirdilər. Hər iki dövlət öz sisteminin digər sistemin üzərindəki üstünlüyü ilə öynürdü. Bu sistemlərin hər ikisi "hiyləgər pis oğlan" kimi biri digərini iblisləşdirmək üçün öz təbliğat vasitələrindən sui-istifadə edirdilər. Amma bu düşmənçilik və etimadsızlıq dövrünün əksinə olaraq, bu gün Siz Birləşmiş Ştatlarda ən yüksək səviyyədə səmimiyyət və razılıqla qəbul edildiniz. Bəzən insanların bir-birinə qarşı necə soyuq və inamsız davrandıqlarını xatırlamaq çox çətindir. Siz bu görünməmiş hadisəni necə izah edirsiniz?**

**HEYDƏR ƏLİYEV:** Bildiyiniz kimi, Sovet İttifaqı artıq mövcud deyildir. Güclü dövlət kimi, Sovet İttifaqı (Azərbaycan da onun bir hissəsi idi) Birləşmiş Ştatlar ilə rəqabət aparırdı. “Soyuq müharibə” bizim aramızda uzun zaman belə tüğyan etdi, çünki dünya əsasən iki düşərgəyə–kapitalistlərə və sosialistlərə bölünmüşdü. Sovet İttifaqı sosialist düşərgəsini idarə etdi və müxtəlif ölkələri, xüsusilə müstəqilliklərini qazandıqdan sonra Afrika ölkələrini müstəmləkəyə çevirmədən öz tərəfinə çəkməyi bacardı. Ancaq indi Sovet İttifaqı dağılıb və “Soyuq müharibə” qurtarıb. Əgər Sovet İttifaqı tənəzzülə uğramasaydı, əlbəttə, Azərbaycan bu gün müstəqil ölkə ola bilməzdi. Əgər, ittifaq dağılmasaydı, özünün 50 milyondan çox əhalisi ilə Ukrayna da daxil olmaqla keçmiş Sovet İttifaqı respublikalarının heç biri müstəqil ola bilməzdi.

Lakin, nəhayət ki, indi Azərbaycan 70 ildən sonra yenidən bir daha milli müstəqilliyinə nail olub! Mən düşünürəm ki, Amerika Birləşmiş Ştatları və Azərbaycanın arasında belə səmimiyyət olmasının ən vacib səbəblərindən biri budur ki, biz indi müstəqilliyimizi qoruyub saxlamağa və gücləndirməyə cəhd edirik. Siz nəzərə almalısınız ki, bizim regionda müstəqilliyimizi boğmağa cəhd edən ölkələr var. Məhz ona görə, biz müstəqilliyimizi boğmaq istəyən o qüvvələrə qarşı müqavimət göstərən bir güc kimi Amerika Birləşmiş Ştatlarına inanırıq. Başqa sözlə, biz ümid edirik ki, Birləşmiş Ştatlar bir ölkə olaraq müstəqilliyimizi qorumaqda bizə kömək edəcək

İkincisi, biz Azərbaycanda hüquqi, dünyəvi və demokratik dövlət qururuq. Başqa sözlə, Azərbaycan Qərb meyarlarına uyğun yaşamaq üçün uğurlu addımlar atır. Bu, səmimiyyət və mehriban əlaqələr üçün başqa bir səbəbdir.

Və üçüncüsü, biz Birləşmiş Ştatlarla çox geniş iqtisadi əlaqələr qurmuşuq. Siz Azərbaycana səfər edən Amerika şirkətlərinin bir çoxunu, xüsusilə neft şirkətlərini görmüsünüz. Bu ötən iki günün hər ikisində–dünən və bu gün mən bu şirkətlərin çoxunun prezidentləri və baş direktorları ilə görüşdüm. Bu göstərir ki, bizim ölkəmizdə təsis olunmuş və artıq işləyən şirkətlər fəaliyyətlərini genişləndirmək istəyirlər. Bizimlə işləməyə hələ başlamayan şirkətlər isə işə başlamaq üçün yollar axtarırlar.

Məsələn, bir şirkət etiraf etdi ki, il yarım əvvəl onların idarə heyəti Xəzər dənizi regionuna sərmayə qoymamaq üçün qərar qəbul edib. Ancaq bu gün onlar fikirlərini tamamilə dəyişiblər. Onlar səhv etdikləri və gecikdiklərini mənə açıq etiraf etdilər. İndi Azərbaycanda inkişafda olan bir sahə ilə məşğul olmaq üçün onlara icazə verilməsini bizdən xahiş edirlər. Beləliklə, bütün bu amillər bizim burada, Birləşmiş Ştatlarda şahidi olduğumuz qonaqpərvər, səmimi münasibətlərə, eyni zamanda öz töhfəsini verir.

**– Ötən həftə ərzində siz çıxışlarınızda bir neçə əsas məsələləri vurğuladınız. Bizim oxucularımızın məlumatlanması üçün çox vacib hesab etdiyiniz digər mövzular varsa, onları da öyrənmək istəyərdim. Mən problemləri aşağıdakı kimi qruplaşdırardım: 1) Dağlıq Qarabağ münaqişəsinin həlli; 2) Konqresin Azadlığa Dəstək Aktının 907-ci maddəsinin ləğvi üçün zəruri ehtiyac; 3) açıq-aşkar Azərbaycanın əleyhinə istifadə edilməsi məqsədilə Rusiyanın Ermənistanı bir milyon dollar dəyərində silahlarla təchiz etməsinin qeyri-qanuniliyi; 4) Rusiya-İran əlaqələri; 5) Xəzər dənizinin neft ehtiyatlarını inkişaf etdirən və dənizin aid olduğu ölkələrlə münasibətdə Xəzərin statusu; 6) və nəhayət, Azərbaycanda xarici sərmayəçilər üçün biznes imkanları. Mənim sualım belədir ki, oxucularımızın bilməsi üçün digər əsas müzakirələr də oldumu?**

– Bunlar əsas problemlərdir. Əgər siz oxucularınıza bu fikirləri təqdim etməyə müvəffəq olsanız, bu məlumatlar kifayət qədər çoxdur. İcazə verin, oxucularınız o problemləri başa düşsün, sonra mən sizə bir qədər də məlumat verəcəyəm.

**– Siz vaxtınızın çoxunu burada, Birləşmiş Ştatlarda çıxışlar etməklə keçirdiniz. Geriyə qayıdanda Azərbaycanda da eyni olur. Sizin hər iki çıxışınız və Corctaun Universitetində izlədiyim görüşdəki sual-cavab, məndə xüsusi təəssürat yaratdı. Çıxışınızın dəqiq və yığcam olmasına baxmayaraq, eyni zamanda amerikalıların Azərbaycanla bağlı problemləri başa düşməsi və öyrənməsi üçün lazımlı, dəqiq məlumatlar verdi.**

**Mən bu illər ərzində Sizi müşahidə etdiyimə görə, hesab edirəm ki, prezident kimi Sizin gücünüzün böyük hissəsi natiqlik bacarığınız-özünüzü ifadə etmək və başqalarını inandırmaq qabiliyyətiniz ilə bağlıdır. Mən sizin gənc yaşda kütlə qarşısında çıxışlarınızda qazandığınız təcrübələriniz haqqında bilmək istəyirdim.**

– Siz bu sualı verdiyiniz üçün mən sizə deyirəm ki, bu mənim anadangəlmə istedadımdır. Bu fitri istedaddır. Təhsil almaqla və ya gərgin işləməklə, hətta çoxlu nitq söyləməklə, bunu sadəcə qazanmaq olmaz. Şübhəsiz, mənim həyat təcrübələrim də mühüm rol oynayır. Mən çox işlər görmüşəm. Mənim çoxlu təcrübəm olub. Mən çox şeyləri görmüşəm və mən geniş auditoriyaların qarşısında tribunada çıxışlar etmişəm. Buna görə, təcrübənin rolu da danılmazdı.

Ancaq mənim danışıq qabiliyyətimin əsası təbiətdən gələn istedaddır. İnsan bu qabiliyyətlə doğulur. Əgər bu yoxdursa, heç bir təcrübə kömək etmir. Bəli, bu həqiqətdir ki, mən gəncliyimdən həmişə fikirlərimi aydın ifadə edən şəxs olmuşam. Mənim təxminən 17 və ya 18 yaşım olanda, mən təsirli nitqlər söyləməyə başladım. Ancaq siz mənim çıxışlarımı mətndən oxuduğumu heç vaxt görməmisiniz. Mən əvvəlcədən heç vaxt hazırlaşmıram.

**– Bəs, sizin əksər başqa prezidentlər kimi heç bir məruzə yazanınız yoxdur?**

– Xeyr, mənim məruzə yazanım yoxdur. İcazə verin, bir neçə gün əvvəl baş vermiş hadisəni sizə danışım. Biz Ağ Evdə olanda Kilinton qeydləri əsasında çıxış etdi və Albert Qor da mətni üzündən oxudu. Qor da Klinton kimi müqavilələrdən birini imzalayanda danışdı. Onların hər ikisinin mətnləri var idi. Ancaq mənimki yox idi. Hamısı buradadır (əli ilə ürəyini göstərir).

**– Siz məruzələrinizə əvvəlcədən hazırlaşırsınızmı?**

– Xeyr. Danışıq prosesində fikirlərin doxsan faizi ağlıma gəlir. Ola bilsin ki, mən, təxminən 10 faizi hazırlayıram. Ancaq mən danışığımın ortalarında elə vaxtlar olur ki, fikirlərimi dəyişirəm. Lakin, ümumiyyətlə mən heç vaxt əvvəlcədən hazırlaşmıram.

**– Siz heç vaxt bir kəlmə də yazmırsınız?**

– Heç vaxt. Siz məni görübsünüz. Mənim heç vaxt heç bir qeydlərim olmur. Xeyr, hətta kiçik bir kağız da olmur. Heç vaxt. Mən onilliklər ərzində bu üsulla danışmışam. Hətta mən Siyasi Büronun üzvü olanda, danışıq qabiliyyətimə görə başqalarından fərqlənirdim. Məndən başqa heç kəs birbaşa - ürəkdən danışmırdı. Hamı üzündən oxuyurdu. Hamının qeydləri var idi.

**– Ancaq ətrafda hərəkət edən insanlar, televiziya kameraları, mikrofonlar, otaqda bu qədər çox, həddən artıq diqqəti yayındıran danışıqlar olur. Baş verən çox şeylər var. Siz ətrafınızda baş verənləri nəzərə almayaraq, necə bu qədər diqqətli qala bilirsiniz?**

– Bu, mənim xüsusiyyətimdir – fikrimi cəmləşdirmək mənim qabiliyyətimdir.

**– Siz nə vaxtsa evə gedir və “Mən vacib nəyisə deməyi unutdum. Mən nəyisə yaddan çıxardım” deyirsinizmi?**

– Əgər sizi bunu bilmək maraqlandırırsa, icazə verin, deyim ki, mən çıxış edəndə beynim böyük enerji ilə işləyir, mən bu barədə çox intellektualam. Bəzi hallarda, mən hətta özümü təəccübləndirirəm. Məsələn, biz müqaviləni imzalayanda, Prezident Bil Klinton bəyanat verdi və sonra mən bəyanatımı verməli oldum. Sizə həqiqəti deyim ki, mən əvvəlcədən nə deyəcəyimi bilmirdim, hazırlaşmamışdım. Ancaq çox tez, bütün ideyalar beynimə gəldi. Nəticədə, sonra çıxışımı mənə şərh edən bəzi insanlar kimi mən öz bəyanatımdan tamamilə razı qaldım.

**– Siz bir dəfə mənə dediniz ki, böyüdüyünüz Naxçıvanda tez-tez teatra gedirdiniz. Teatrın sizin natiqlik qabiliyyətinizə güclü təsiri olubmu? (Azərbaycanın Muxtar Respublikası kimi tanınan Naxçıvan, Stalin tərəfindən Ermənistana verilən ərazinin bir zolağı ilə ayrılmış və ölkənin qərbində yerləşən Azərbaycanın ayrılmaz bir hissəsidir).**

– Xeyr, mən elə deməzdim. Teatr mənim hobbimdir. Mən teatra gedirəm, çünki mən ondan çox xeyir götürürəm. Teatr məndə dərin təəssürat yaradır. Onun mənim üzərimdə təsiri çoxdur. Ancaq mən deməzdim ki, teatr mənim nitq söyləməyimdə rol oynayır. Teatr onu başa düşən insanlar üçün çox güclü vasitədir, ancaq teatrı hamı başa düşmür. Mən teatrı başa düşürəm və etiraf etməliyəm ki, mənim üzərimdə teatrın hər ikisindən, televiziyadan və kinodan daha böyük təsiri var.

**– Nəvənizin adı nədir?**

– Mən ona hələ ad qoymamışam. Mən bir neçə gündən sonra Londona (körpənin doğulduğu yerə) baş çəkəcəyəm və orada ona ad qoyacağam. (Ənənəyə görə, üç gün sonra, o, öz "Heydər" adını nəvəsinə qoydu. Bu, Heydər Əliyevin adını daşıyan ilk nəvəsidir).

Bu səfərin digər şəxsi cəhəti Doktor Maykl De Bakey ilə keçirilən görüş oldu. O, çox tanınmış bir şəxsdir. O, ilk dəfə “bypass” (xəstəliyə görə ürək normal fəaliyyət göstərmədiyi halda, ürək üzərində və ya onun yanında əməliyyat aparılır və qanın başqa yolla dövr etməsi təmin edilir –S.A.) ürək əməliyyatını aparan şəxs olub. Biz onunla bu gün görüşəndə, o, bildirdi ki, altmış min insan üzərində cərrahiyyə aparıb. Təsəvvür edin, o, nə qədər insan həyatını xilas edib. Bildiyiniz kimi, Doktor De Bakey yeganə xarici mütəxəssis idi ki, Rusiya Prezidenti BorisYeltsin onu bu yaxınlardakı ürək cərrahiyyəsində iştirak etməyə dəvət etdi.

**– De Beyki çox yaşlıdır, elə deyilmi?**

– Onun 80 yaşı var. Buna görə də, mən ona elə çox hörmət bəsləyirəm. Bu yaşda olmasına baxmayaraq, o, hələ də fəal işləyir. Siz onu gördünüz. Mən bilmirəm-ola bilsin ki, Amerika Birləşmiş Ştatlarında onu layiqincə qiymətləndirmirlər. Ancaq o, çox qiymətli insandır. Buna görə də, mən ona baş çəkmək istədim. Mən Hyustonda olarkən məhz ona görə proqramımda onunla görüşmək üçün vaxt müəyyən etdim. O, çox tanınmış şəxsiyyətdir-çox böyük insandır. Və o, səhranın ortasında, orada böyük bir tibb mərkəzi (Hyuston Tibb Mərkəzi) yaradıb. Mən onu müxbirlərin məqalələrindən tanımışdım. On il əvvəl mənim özümün ürək krizisi olduğuna görə, bura mənim maraqlandığım yerdir.

**– Beləliklə, sizin onunla əlaqəniz olub?**

– Xeyr, o, cərrahiyə əməliyyatları ilə məşğuldur. Mənim cərrahiyə olunmağıma heç bir ehtiyac yox idi. O zaman, 1987-ci ildə mənim ürəktutmam olanda, çox adam mənə dedi ki, mən çox uzun yaşamayacam. On il əvvəl, 1987-ci ilin avqustu idi. Mən üç ay xəstəxanada qalmalı oldum. Həkimlər mənə dedilər ki, mən daha işləyə bilməyəcəm. Ancaq görürsünüz, bu da mən-hələ də sağ-salamatam və işləyirəm.

**– Sizin iş qrafikiniz gərgindir. Siz heç dayanmırsınız? Hamı təyyarənin arxasında tükənir və taqətdən düşür. Bu, sizin səfərinizin səkkizinci günüdür. Hər kəs elə yorulur, ancaq siz hələ də enerji ilə işləyirsiniz. Hər gün nə qədər istirahət edirsiniz? Nə qədər yatırsınız?**

– Çox az-altı saatdan çox olmur.

**– Siz günün ortalarında istirahət edirsinizmi?**

– Xeyr, heç vaxt.

**– Beləliklə, siz bütün bu gücü haradan alırsınız?**

– Bu, Tanrıdan gəlir.

**– İcazə verin, sizin Amerika Birləşmiş Ştatlarına gətirdiyiniz hədiyyələrin bəziləri haqqında sizdən soruşum. Siz Prezident Klintona hədiyyə etdiyiniz xalça haqqında danışardınız. Mən öyrəndim ki, xalçada Bill Klintonun və həyat yoldaşı Hillarinin birlikdə portretləri xüsusi işlənib.**

– Mən, həmçinin onların qızları Çelsi üçün ayrıca xalça gətirdim. Prezident Klinton xalçalardan çox məmnun oldu. O, mənə dedi ki, Çelsi həmin səhər xalçalara baxmaq üçün onun ofisinə baş çəkib. O dedi ki, Çelsi çox sevincli idi və xalçalar onların hamısının çox, lap çox xoşlarına gəlib.

**– Bu ideyanı hər kəs düşünə bilməz. Prezidentə, hər ikisini–prezidenti, həyat yoldaşını və övladını əks etdirən hədiyyə vermək. Bunu etmək üçün ideya sizdə haradan yarandı?**

– Bu, mənim ideyam idi. Mən bilirəm ki, hər bir insan üçün onun həyat yoldaşı və uşaqları ona çox əzizdir, çox qiymətlidir. Məhz ona görə, mən bunu etdim. Bu əsrlərlə yaşayan incəsənət nümunəsində onların hamısının xatırlanmasının bir yoludur.

**– İnsanların çoxunun Hillari haqqında müxtəlif fikirləri var. İnsanların çoxu, həqiqətən, onun haqqında fikir söyləyə bilmir.**

– Xanım Klintonla tədbirdə görüşməyimə baxmayaraq, mən onu çox yaxşı tanımıram. Mən şəxsən onunla danışanda, o, məndə çox yaxşı təəssürat yaratdı. Hər halda hamının rəğbətini qazanmaq qeyri-mümkündür – xüsusilə də, ictimai xadimsənsə.

**– Azərbaycanlıların səfərdən qayıdanda sevdiyi insanlara hədiyyə gətirmək adəti var. Sizin Azərbaycan xalqına hədiyyəniz nədir?**

– Ən böyük hədiyyələr bizim burada, Amerika Birləşmiş Ştatlarında qazandığımız nailiyyətlərdir. Biz Prezident Klinton ilə ölkələrimiz arasında çoxtərəfli əlaqələri gücləndirmək məqsədilə müqavilə imzaladıq. Bu müqavilələrin böyük tarixi əhəmiyyəti olacaq. Bundan əlavə, mən və cənab Klinton birlikdə ölkələrimizin vəziyyəti və əlaqələrimizi birlikdə çox səmimi müzakirə etdik.

*İngilis dilindən tərcümə etdi:*
*Süsənbər AĞAMALIYEVA,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*Naxçıvan Dövlət Universitetinin*
*Tərcümə Mərkəzinin əməkdaşı*

14 iyul 1969-cu ildən başlanan yol

# Heydər Əliyev: liderliyin dünya miqyaslı strateqi



II MƏQALƏ

## Müstəqil güclü dövlət quruculuğu strategiyası

Politoloji təlimlərdə qapalı siyasi sistemdən açıq siyasi sistemə keçidin mürəkkəbliyi və ziddiyyətləri ilə bağlı xeyli fikirlər mövcuddur. SSRİ kimi 15 respublikanı özündə birləşdirən, lakin məlum səbəblərdən faktiki olaraq qapalı olan bir sistemdə daxili ziddiyyətlər kifayət qədər idi. Azərbaycan üçün bu, əlavə olaraq ermənilərin xeyrinə gizli təzyiqlərə məruz qalması ilə də xarakterizə olunurdu.

Nəticədə SSRİ-nin "şineli"ndən Azərbaycanla Ermənistan bir-birinə düşmən kimi çıxdılar. Heydər Əliyevin sayəsində sosialist sistemində gözlənilən balans bu gedişatda sürətlə öz dayaqlarını itirdi. Bu, havadarlarının təhriki ilə Ermənistanın Azərbaycana təcavüzlərini genişləndirməyə şans verdi. Məqsəd tam aydın idi: Azərbaycanı ölkə, dövlət və cəmiyyət kimi siyasi xəritədən silmək!

Bundan kənarda deyilən hər bir söz baş aldatmaqdan başqa bir şey deyildi! Onu 1990-cı ilin 20 Yanvarı bir daha təsdiq etdi. Sonra 1992-ci ildə Xocalı soyqırımında özünün pik səviyyəsinə çatdı. Bütün bunlarda "SSRİ" adlanan siyasi sistemin birbaşa təşkilatçılıq əli vardı. Lakin, əlbəttə, rəsmi təbliğat hər şeyi ermənilərin üstünə atırdı (onlar doğrudan da əsrlərlə beyinlərinə yeridilmiş antitürk və antimüsəlman eyforiyasının təsiri altında böyük vəhşiliklər törədirdilər).

Beləliklə, 1993-cü ilə qədər olan müstəqillik dövründə Azərbaycan Respublikası faktiki olaraq yüzillərlə əsası qoyulan düşmənçilik münasibətinin ortasında qalmışdı və ölkənin varlığı məsələsi taleyüklü problemə çevrilmişdi. Azərbaycana elə lider lazım idi ki, iki vəzifəni paralel olaraq yerinə yetirə bilsin. Birincisi, ölkəni düşdüyü düşmənçilik "qapalı dairəsindən" xilas etsin. İkincisi, elə müstəqil və güclü dövlət qurmaq strategiyası hazırlasın ki, son 300 ilin başlıca geosiyasi dağıdıcılığını neytrallaşdırmaq mümkün olsun.

Heydər Əliyev nəinki Azərbaycanda, hətta bütün Avrasiyada nümunə ola biləcək belə bir strategiyanın banisidir. O strategiyanı Ulu öndər dünya miqyasında geosiyasi düzəni yeniləşdirə biləcək fundamental siyasi prinsiplər üzərində qurdu. Buna görədir ki, 1993-cü ildən sonra Azərbaycan bir dövlət, ölkə və cəmiyyət olaraq bütün əngəlləri aşıb keçdi. Güclü müstəqil dövlət quruculuğunu davamlı olaraq həyata keçirdi.

Azərbaycanda güclü dövlət quruculuğunun Heydər Əliyev strategiyasının tərkib hissələri çoxdur. Ancaq bu strategiyada təməl siyasi prinsiplər vardır ki, onlar hər bir mərhələdə həlledici rol oynamışlar. Həmin prinsiplərin bir qismi üzərində qısa dayanmağa ehtiyac vardır.

## Enerji təhlükəsizliyi milli təhlükəsizliyin təməli kimi

Politoloji düşüncə üçün bu məqam olduqca maraqlıdır. Çünki uzun müddət təzyiq görmüş bir ölkənin enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyi müsbət nəticəverici model üzrə təmin etməsi imkanlarının nə dərəcədə olduğu qanlı-qadalı XX əsrin 90-cı illərində məlum deyildi. Başqa tərəfdən, hələ də Moskvanın regiona təsiri çox güclü idi və Azərbaycan SSRİ kimi qapalı bir siyasi rejimdən yeni çıxmışdı. Bu vəziyyət böyük müdrikliklə yanaşı yüksək siyasi iradəyə söykənən qətiyyət tələb edirdi. Heydər Əliyev "Əsrin müqaviləsi"ni imzalamaq və iki sui-qəsdi neytrallaşdırmaqla siyasi gücünü və Azərbaycanın müstəqil olmaq qüdrətini dünyaya göstərdi. Bakının bu zərbələrindən sonra əsrlərdir buralarda at oynadan Qərb və Rusiya imperialist dairələri geri çəkildilər. Bu, siyasi və geosiyasi baxımdan maraqlı bir mənzərə idi. Bizcə, öncə onlar nə baş verdiyini tam dərk edə bilmədilər – gördüklərini keçici saydılar. Əsrlər idi ki, belə bir cavab almamışdılar və onlara elə gəlirdi ki, Azərbaycan müvəqqəti sıçrayış etmişdir, az sonra sakitləşəcək. Ancaq 2003-cü ilə qədər baş verənlər bu dəfə həmin güclü dairələrin səhv etdiyini təcrübədə sübut etdi.

Azərbaycan rəhbəri Heydər Əliyev nəinki geri çəkildi, əksinə, böyük inam və ustalıqla enerji strategiyasını reallaşdırdı. Özü də bu strategiyanı birbaşa Azərbaycanın milli maraqlarına uyğun milli təhlükəsizlik kontekstində həyata keçirdi. Siyasi baxımdan bu maraqlı prosesin başlıca əlamətləri hansılar idi?

Birincisi, Heydər Əliyev hər şeydən öncə Qərbin aparıcı enerji dairələrinin Azərbaycana olan münasibətlərini ciddi şəkildə müsbətə doğru dəyişdi. Onlara Azərbaycanın etibarlı və konstruktiv niyyətli tərəfdaş olduğunu anlatdı. Bununla Qərbin ən böyük enerji şirkətləri Azərbaycanın enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyi uyğunlaşdırmaq xəttini ümumilikdə qəbul etdilər. "Əsrin müqaviləsi"nin reallaşma gedişatı bununla bağlı kifayət qədər fakt verir. Bu, strateji bir uğur idi. Qərbin böyük potensiallı enerji şirkətləri Azərbaycanla uzun müddətli əməkdaşlığın zəruriliyini qəbul etdilər.

İkincisi, Heydər Əliyev öncələr çox kəskin siyasi və geosiyasi mövqedə olan Rusiyanın Azərbaycanın enerji strategiyasına münasibətini məhz bizim milli təhlükəsizliyə sayğı kontekstində dəyişdirə bildi. Bir çox məsələlərdə Moskva hələ də naz etsə də, bütövlükdə Heydər Əliyevin güclü Azərbaycan konseptinə əks çıxmamağa başladı.

Üçüncüsü, Heydər Əliyev Türkiyənin Azərbaycana münasibətini dəyişdi. Ankara Azərbaycanın öz dövləti maraqlarına uyğun enerji strategiyası çərçivəsində güclü və müstəqil olmasını tam olaraq qəbul etdi. Bundan başqa, Türkiyə ilk dövlət idi ki, özünün enerji və milli təhlükəsizliyi ilə Azərbaycanın təhlükəsizliyinə bir bucaq altında baxa bildi. Dərk edildi ki, Türkiyənin təhlükəsizliyi Azərbaycanın təhlükəsizliyindən başlayır və əksinə.

Dördüncüsü, Heydər Əliyev Gürcüstanın və ona havadarlıq edən Qərbin siyasi dairələrinə başa saldı ki, Azərbaycanın enerji və milli təhlükəsizliyi ilə oynamaq olmaz. Müxtəlif şıltaqlıqlar etdilər, lakin Ulu öndər böyük siyasətçi məharəti ilə Gürcüstanı enerji strategiyasının mühüm iştirakçılarından birinə çevirə bildi. Bununla rəsmi Tbilisi də anladı ki, Gürcüstanın təhlükəsizliyi Azərbaycansız mümkün deyildir.

Bütün bunlar Azərbaycanın həm ordu quruculuğunu daimi inkişaf etdirməsi, həm də konkret enerji layihələrini inamla reallaşdırması fonunda baş verirdi. Onların sırasında Ulu öndər həmişə Bakı-Tbilisi-Ceyhan layihəsinin əhəmiyyətini ayrıca vurğulayırdı.

Bütövlükdə Heydər Əliyev 1993-2003-cü illər müddətində fəaliyyəti ilə yeni bir geosiyasi yeniliyə imza atdı. Tədqiqatlarda bu məsələ demək olar ki, araşdırılmır, lakin onun nəzəri və praktiki əhəmiyyəti güclü olmaqla yanaşı, təhlükəsizliyini təmin edə biləcək dövlət quruculuğu baxımından vacibliyi də mühüm məqamdır.

## Güclü milli dövlətin təhlükəsiz geosiyasi çevrəsi

Ümumiyyətlə, XX əsrin ikinci yarısı və XXI əsrin ilk üç onilliyində güclü milli dövlət quruculuğu ilə onun ətrafında təhlükəsiz geosiyasi çevrə yaratması daha çətin bir işə çevrilmişdir. 2025-ci ildən postsovet məkanı dövlətlərinin bu kontekstdə real vəziyyətlərinə baxanda ümumi mənzərə daha aydın görünür.

Moldova, Belorus və Ukrayna etibarlı geosiyasi çevrə yarada bilməmişlər. Gürcüstan Rusiya ilə münasibətlərin gərginliyi ilə yanaşı, son zamanlar Qərblə də geosiyasi ixtilaflara daxil olması səbəbindən belə bir çevrəyə malik deyildir. Ermənistan haqqında danışmağa ehtiyac yoxdur. Mərkəzi Asiya dövlətləri üçün yaxın coğrafi ətrafda etibarlı və təhlükəsiz geosiyasi çevrə yarada bildiklərindən danışmaq çətindir. Ən azından onların coğrafi olaraq həmsərhəd olduqları Çin və Rusiya arasında geosiyasi anlamda müəyyən ziddiyyətlərlə üz-üzə qaldıqlarını deyə bilərik. Lakin burada Türk Dövlətləri Təşkilatı (TDT) faktorunu da arxa plana atmaq olmaz.

Bütün bu dövlətlərin etibarlı geosiyasi çevrə yarada bilməmələrində bir ümumi məqam vardır. O da həmin dövlətlərin praktiki layihələri lazımi səviyyədə həyata keçirə bilməmələri ilə əlaqəlidir.

Heydər Əliyev isə Azərbaycanda güclü milli dövlət quruculuğunu fundamental olaraq həm böyük güclərin maraqlarının balanslaşdırılması, həm də konkret enerji layihələri ilə çoxlu sayda dövlətin bir-birinin təhlükəsizliyinin təminində maraqlı olmasıyla bağlamışdır. Bu prosesin nə qədər çətin və xeyli sayda maneələrlə müşayiət olunduğunu hər kəs bilir. Lakin Heydər Əliyevin lider kimi dahiliyi ondan ibarət idi ki, dönmədən qətiyyətlə güclü milli dövlətçiliklə təhlükəsiz geosiyasi çevrənin formalaşdırılmasını uyğunlaşdıra bildi. Ulu öndərin "müstəqilliyi saxlamaq onu əldə etməkdən daha çətindir" məşhur kəlamını həm də bu kontekstdə dərk etmək lazımdır.

Heydər Əliyev etibarlı təhlükəsiz geosiyasi çevrəni coğafi miqyas və təsir dairəsi aspektlərində mərhələli formada yaratdı. 2003-cü ildə bu prosesin təməli demək olar ki, tamamlandı. Öncə Heydər Əliyev Cənubi Qafqaz miqyasında təhlükəsiz geosiyasi çevrənin cizgilərini müəyyən etdi. Onun reallaşması əsas olaraq Ermənistanın təcavüzünün aradan qaldırılmasından asılı qaldı. Sonrakı mərhələdə Ulu öndərin bu istiqamətdə işlərini Prezident İlham Əliyev uğurla tamamladı.

Regional miqyasla yanaşı, Heydər Əliyev regionlararası məkanda təhlükəsiz geosiyasi çevrənin yaradılmasının bazasını formalaşdırdı. Bu miqyasda fəaliyyətin ana xəttini "bir millət, iki dövlət" kəlamı təşkil etdi. Bu kəlamdan Türk Dövlətləri Təşkilatı (TDT) yarandı. TDT faktoru öz növbəsində yeni əməkdaşlıq və təhlükəsizlik layihələrini ortaya çıxardı. Və nəticədə Azərbaycan enerji, nəqliyyat, logistika, informasiya və digər aspektlər üzrə türk dövlətlərinin səylərini birləşdirərək daha geniş coğrafiyada geosiyasi təhlükəsizlik konfiqurasiyasını formalaşdırdı. Bununla Azərbaycan həm də yeni orta güc səviyyəsinə yüksəldi.

Bundan sonrakı mərhələ Azərbaycanın Cənubi Qafqazın lideri və TDT-nin fəal üzvü kimi daha geniş coğrafi miqyasda enerji və milli təhlükəsizliyin təminini etibarlı geosiyasi çevrənin formalaşdırılması istiqamətindəki fəaliyyətlə bağlamasıyla seçilir. Bu artıq yeni tarixi mərhələdə Azərbaycanın həyata keçirdiyi kursla əlaqəli məsələdir. Lakin onun bazasında Heydər Əliyevin yanaşması dayanır.

Beləliklə, 1969-cu ildən başlayan yolu siyasi və geosiyasi aspektlərdə dövlət quruculuğu fonunda vahid məntiqi təkamül xəttində təsəvvür edə bilərik. Həmin dövrdən başlayaraq, Heydər Əliyev iki dəfə Azərbaycanı ölkə, dövlət və cəmiyyət kimi xilas etmişdir. Onun ilk müsbət nəticəsi sovet dönəmində Azərbaycanın respublika statusunda mövcudluğunu saxlamaqdan ibarətdir.

İkinci mərhələdə Heydər Əliyev Azərbaycanı çox çətin geosiyasi turbulentliyin ağuşundan alıb, inkişaf edən müstəqil güclü dövlətə çevirmişdir. Bu zaman, Ulu öndər çoxlu sayda düşmən maneələrini və onun cəmiyyətdə yaratdığı psixoloji kompleksləri aradan qaldırmışdır.

Nəhayət, Heydər Əliyev müstəqil güclü dövlətin ən çətin regional şərtlər daxilində belə təhlükəsizliyini təmin edə biləcək pilləli geosiyasi çevrə mühiti yaratmışdır. Bütün bunlar bugünün geosiyasi və siyasi reallıqlarından çox aydın görünür!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

Zəfər tariximiz

# Tovuz döyüşləri Azərbaycanın hərbi qüdrətini nümayiş etdirdi

**(əvvəli 1-ci səhifədə)**

Hərbi tarixçi, Milli Müdafiə Universiteti Hərbi Elmi Tədqiqat İnstitutunun professoru Mehman Süleymanov XQ-yə açıqlamasında Tovuz döyüşlərinin Qarabağ zəfərinə aparan yolun müjdəçisi olduğunu vurğuladı. Müsahibimiz qazanılan qələbənin həmin günlərsdə Silahlı Qüvvələrimizə yüksək döyüş əzmi və mənəvi ruh gətirdiyini, xalqımıza inam və sevinc sevinc hissləri yaşatdığını söylədi:

– Qarabağ cəbhəsində 2016-cı ilin aprelində təcavüzkar Ermənistanın hərbi təxribatına cavab olaraq aparılmış uğurlu hücum əməliyyatından sonra 2020-ci ilin iyulunda işğalçı ölkənin Tovuzda sərhədlərimizi keçmək cəhdinin qarşısınının dərhal və qətiyyətlə alınması xalqımıza ikinci dəfə qələbə sevinci bəxş etdi, düşmənə isə məğlubiyyət acısı yaşatdı. Lakin Aprel döyüşlərində Silahlı Qüvvələrimizin sürətli hücum qabiliyyəti düşmənə dərs olmadığı kimi, Tovuz hadisələrində sərgilədiyi çevik müdafiə qüdrəti də təcavüzkar dövləti yalançı məstlikdən ayıltmadı.

İyul döyüşləri zamanı bölgədəki hərbi qüvvələr dərhal bu təcavüzün qarşısının alınmasına səfərbər olundu. Azərbaycan Ordusunun malik olduğu müasir hərbi texnika çox dəqiqliklə işə salındı. Tovuz döyüşləri zamanı ordumuzun döyüş təyyarələri Ermənistanın istər sərhəd boyu, istərsə də Ermənistanın dərinliklərində olan hərbi obyektlərini darmadağın etdi, təcavüzkara ağır itki verildi. Erməni hərbi qüvvələrinin ələ keçirməyə çalışdığı ərazilər geri qaytarıldı və düşmənə bu bölgədə bir qarış da olsa torpaq verilmədi. Qısa zaman ərzində toparlanan və düşmənə sarsıdıcı zərbə endirməyə qadir olan belə bir ordunun yaradılması İlham Əliyevin prezidentliyi dövründə Ali Baş Komandan kimi əldə etdiyi tarixi nailiyyətlərdən biridir.

2020-ci il iyul ayının 12–15-də Ermənistan – Azərbaycan sərhədinin Tovuz rayonu ərazisində baş verən hadisələr zamanı isə Azərbayvcan Ordusu bölmələri tamamilə yeni bir keyfiyyət ortaya qoydular. Ordunun qələbənin ərəfəsi saymaq olar.

Nəticə etibarilə İyul döyüşləri Qarabağ zəfərinə aparan yolun yaxınlaşdığını sərgilədi. bu gerçəyi Ali Baş Komandanın son bəyanatlarından duymaq mümkün idi. Bu mesajlar əminliklə onu deməyə imkan verirdi ki, böyük zəfərin addım-addım yaxınlaşdırılması, Azərbaycan bayrağının işğal olunmuş ərazilərə sancılması üçün Ali Baş Komandanın son nəticəyə hesablanmış və uğuru şübhə doğurmayan strateji xətti vardır: "O ki qaldı, bizim addımlarımıza, lazım olan vaxtda lazım olan addımları atırıq və atacağıq. Nəyi ediriksə, dəqiqliklə edirik. Son dörd il ərzində üç əməliyyat keçirilmişdir, üç toqquşma olmuşdur. Üçündə də qalib gəldik. Üçündə də bayrağımızı istədiyimiz yerə sancdıq. Üçündə də düşmənə sarsıdıcı zərbələr endirdik. Bundan artıq hələ ki, nəsə demək düzgün olmaz. Biz bilirik nə etmək lazımdır, nə vaxt etmək lazımdır və necə etmək lazımdır".

Professor Mehman Süleymanov onu da bildirdi ki, Tovuz hadisələri zamanı şəhid olan hərbçiləri dövlət başçısı İlham Əliyev nisgilli duyğularla yad etmiş, onların qəhrəmanlığını gənc nəsil üçün örnək saymışdır:

– Bu da əslində, Ali Baş Komandan tərəfindən Vətən müdafiəçilərinə göstərilən qayğının bir nümunəsi idi. Bununla İlham Əliyev həm də onu anladırdı ki, Vətənin müdafiəsi yolunda canını fəda edənlər heç zaman unudulmayacaqlar. Əksinə, Azərbaycan xalqı haqlı olaraq onlarla fəxr edəcəkdir: "General Polad Həşimov, polkovnik İlqar Mirzəyev həlak olmuşlar. Onların həyatı, torpaq, Vətən uğrunda göstərdikləri şücaət, qəhrəmanlıq hər bir gənc üçün nümunə olmalıdır. Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib".

2020-ci il sentyabrın 27-də başlanmış qalibiyyətli Vətən müharibəsindən ayyarım əvvəl Azərbaycanın işğalçı Ermənistana sonuncu xəbərdarlıq dərsi olmuş Tovuz döyüşləri Silahlı Qüvvələrimizin gücünü nümayiş etdirən irimiqyaslı döyüş məşqi kimi də tarixə yazıldı. Bu döyüşlərindən dərhal sonra Azərbaycan Prezidenti İlham Əliyevin



komandir və zabit heyətinin yüksək peşəkarlığı, təşəbbüskarlığı və çevikliyi Ali Baş Komandan tərəfindən verilən tapşırıqların tam şəkildə yerinə yetirilməsinə yol açdı.

Bütün bunların nəticəsində Azərbaycan Ordusu Ali Baş Komandanın bütün əmrlərini vaxtında yerinə yetirməyə və Azərbaycan xalqının ümidlərini doğrultmağa qadir olan bir qüvvəyə çevrildiyini sübut etdi. Həmin günlərdə İlham Əliyev Ali Baş Komandan kimi ordunun hazırlıq səviyyəsini belə qiymətləndirmişdi: "Bu gün biz güclü ordu yaratmışıq. Bir daha demək istəyirəm ki, Azərbaycan Ordusu bu gün istənilən vəzifəni icra edə bilər. Biz böyük qələbə qazanmışıq".

Tovuz hadisələrinin uğurla başa vurulmasına yol açan göstəricilərdən biri də, sözsüz ki, iqtidar–xalq birliyinin real qüvvəyə çevrilərək Ermənistanın hərbi-siyasi rəhbərliyinə qarşı güclü bir zərbəyə çevrilməsi idi. Bu hadisələrin başlaması ilə Azərbaycan xalqı dövlət rəhbərliyi ilə dünyanı heyrətə gətirəcək bir həmrəylik nümayiş etdirdi. Keçirilən möhtəşəm aksiyalarda və mötəbər bəyanatlarda xalq torpaqlarımızın müdafiəsi üçün nəinki Ali Baş Komandanının yanında olmağa, hətta onun bir əmri ilə cəbhəyə yollanmağa hazır olduğunu da ortaya qoydu. Bununla Vətənin müdafiəsi məsələsində Ali Baş Komandan–Xalq vəhdətinin əyaniliyinə Azərbaycanın dostları da, düşmənləri də şahid oldular.

2020-ci ilin İyul döyüşləri zamanı dövlət rəhbərinin öz fəaliyyətində, xüsusən Vətənin müdafiəsində xalqa arxalanmağın, ağır gündə xalqla bir yerdə olmağın yeni bir nümunəsini göstəryini qeyd edən hərbi tarixçi dedi:

– Prezident İlham Əliyev o zaman bu birliyi belə dəyərləndirmişdi: "Bizim hərbi qələbəmizi qeyd etmək üçün minlərlə insan küçələrə çıxdı, minlərlə insan dövlətə, orduya dəstək göstərdi. Bu gözəl mənzərə vətəndaş həmrəyliyinin bir rəmzi idi. Son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi. Bu gün xalq–iqtidar birliyi Azərbaycanda sabitliyin inkişafının əsas şərtidir".

Tovuz döyüşləri zamanı tarixi zəfərin əldə edilməsinin bir göstəricisi də, şübhəsiz, qüdrətli Azərbaycan Ordusunun mövcudluğu idi. Qəfil, namərdcəsinə haqlanmasına baxmayaraq, Ali Baş Komandanın vəziyyətə nəzarəti dərhal öz əlinə alması, baş verən təcavüzün aradan qaldırılması üçün soyuqqanlılıq, iradə və qətiyyət nümayiş etdirməsi, vaxtında verdiyi zəruri göstəriş və əmrlərin icrasına nail olması çox tezliklə vəziyyətin sabitləşdirilməsinə, şəhid olmuş hərbçilərin qisasının alınmasına, başlıcası isə dövlət sərhədinin Azərbaycan hissəsini bütünlüklə nəzarət altına götürülməsinə yol açdı.

Ali Baş Komandan döyüş xəttində təşəbbüsün ələ alınması və Ermənistanın hərbi-siyasi rəhbərliyinin yerində oturdulması üçün zəruliliyi və səmərəliliyi şübhə doğurmayan qərarlara əl atdı. Ordumuzun İyul zəfərinə aparan yol dövlət başçısının düzgün rəhbərliyindən və onun qəbul etdiyi zəruri-operativ qərarlardan başladı. Bu zəfəri həm də böyük səsləndirdiyi "Biz öz doğma torpaqlarımıza qayıtmalıyıq və qayıdacağıq" bəyanatı isə göstəririrdi ki, qəhrəman ordumuzun torpaqlarımızı işğaldan azad edəcəyi gün çox da uzaqda deyil. Bunu cəbhədə və beynəlxalq aləmdə əldə edilən uğurlar, bir də Ali Baş Komandanın inamlı qətiyyəti deməyə əsas verirdi. Ötən hər gün bizi Azərbaycanın haqq işinin təntənəsinə, Ali Baş Komandanın xalqımıza qazandıracağı böyük və son zəfərə yaxınlaşdırırdı.

Azərbaycanı yeni ərazilər itirəcəyi ilə hədələməkdə davam edən Ermənistanın sentyabrın 27-də törətdiyi növbəti irimiqyaslı hərbi təxribat isə işğalçını öz ərazilərindən qovub çıxarmaqdan başqa yolu qalmayan Azərbaycanın Qarabağ uğrunda Vətən müharibəsinə başlaması ilə nəticələndi.

Müsahibimiz daha sonra qeyd etdi ki, 44 günlük II Qarabağ savaşının gedişində ötən 30 ildə dünyanın 50 ən güclü ordusu sırasına daxil olmuş Azərbaycan Silahlı Qüvvələri uzun sürən müharibə vəziyyətində yorulub əldən düşmüş, xaraba qoyduğu işğal zonasında ilişib qalmış Ermənistan ordusunu darmadağın etdi:

– Bu tarixi zəfər I Qarabağ müharibəsindəki məğlubiyyətin acısına son qoymaqla yanaşı, həm də xalqımıza çoxminillik tarixinin ən böyük qələbəsini qazandırmış ordumuzla bağlı sonsuz bir öyünc ünvanı oldu. Şuşanın alındığı 8 noyabr günündə Prezident, Ali Baş Komandan İlham Əliyev böyük təntənə ilə bəyan etdi: "Yenilməz ordu Azərbaycan Ordusudur. Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək. Budur bizim fəaliyyətimiz. Azadlıq meydanında dəfələrlə keçirilmiş hərbi paradlar bütün dünyaya bizim gücümüzü göstərdi. Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!".

Tarixə Vətən müharibəsi adı ilə düşən II Qarabağ savaşı Azərbaycan Ordusunun zəfər tarixinə çevrildi. Dünyanın müxtəlif ölkələrinin hərbi mütəxəssislərinin qeyd etdiyi kimi, Azərbaycan Ordusu XXI əsrin yeni müharibəsinin aparılmasının nümunəsini nümayiş etdirdi. Qarabağ uğrunda Azərbaycan xalqının 2020-ci ilin payızında apardığı Vətən müharibəsi, şübhəsiz, "soyuq müharibə" dövründən sonra dünya miqyasında baş vermiş ümumxalq-ümummilli müharibənin, müharibə aparan bir ölkədə xalq–dövlət ordu birliyinin ən dəyərli bir nümunəsidir.

***Hazırladı:***
***Tahir AYDINOĞLU***
***XQ***

## Günün sözü

*Şimali Kiprdə öz dövlətinə sahib olmağa layiq qardaşlarımıza necə kömək edə biləcəyimizdən başqa bir gündəmimiz yoxdur. Onlar tarix və əməlləri ilə buna layiqdirlər. Hamımız xatırlayırıq ki, Birləşmiş Millətlər Təşkilatının ovaxtkı Baş katibi Kofi Annanın təşəbbüsü ilə referendum keçirilib və Kipr türkləri birləşməyə, Kiprdəki yunanlar isə birləşmənin əleyhinə səs verdilər. Sonra nə oldu? Kipr dəvət edildi və Avropa İttifaqına üzv oldu. Bu, ədalətli idi? Əlbəttə ki, yox. Bu ikili standartlar idi?*

**Prezident İlham Əliyevin ADA Universitetində keçirilən “Yeni dünya nizamına doğru” mövzulu beynəlxalq forumdakı çıxışından**

***Bakı, 9 aprel 2025-ci il***

# Şimali Kipr Türk Cümhuriyyəti Turanın ayrılmaz hissəsidir

## *Ərsin Tatarın Xankəndidə “Azərbaycan Qarabağdır!” deməsi bu həqiqətə vurulan bir möhürdür*

Əslində bu yazını iyulun 20-si üçün hazırlamağı düşünürdüm. Çünki həmin tarix Quzey Kıbrıs türkləri üçün heç zaman unudulmayacaq bir əməliyyata görə əlamətdardır. Əsrlər boyu Roma, Bizans və Osmanlı İmperiyalarının tabeliyi altında qalmış, bir müddət Böyük Britaniyanın nəzarətində olmuş bu adada 1970-ci illərin əvvəllərində türklərə qarşı irqçilik genişlənmiş və Yunanıstanın işğalçılıq planları Türkiyə ordusunun burada hərbi əməliyyat keçirməsini zəruri etmişdir. “Ayşənin tətili” davam edir.

ŞKTC tarixi barədə olan məlumatlarda oxuyuruq ki, Türkiyə Respublikası adada baş verənlərdən narahat olaraq, 1974-cü il iyulun 20-də baş nazir Bülənt Ecevitin tərtib etdiyi plana uyğun olaraq, “Ayşə tətilə getsin!” şifrəsi ilə Kiprdə hava əməliyyatı başlatmışdır. Bildirilir ki, türk qoşunları adaya endikdən qısa müddət sonra adanın böyük şəhərlərindən biri olan Kirinəyə daxil olmuş və sonra Lefkoşaya doğru hərəkət etməyə başlamışdıdılar.

### Ərsin Tatar Bakıya gələn ilk Kıbrıs lideridir

Təəssüf ki, türk dünyasının əfsanəvi liderlərindən biri, Şimali Kipr Türk Cümhuriyyətinin yaradıcısı olmuş, bir vətəndaş kimi ömrünü Kıbrıs xalqının azadlığına həsr etmiş Rauf Denktaş Bakıya gəlməyə macal tapmamışdı. Çünki onun bu kiçik respublikaya rəhbərlik etdiyi dövrün bütün illəri, ayları və günləri təzyiq və təhdidlərlə keçmişdir. Mən özümü xoşbəxt hesab edirəm ki, onun əzm, qətiyyət və ləyaqətlə dolu olan həyatı barədə söylədiklərinə məhz Lefkoşada, prezidentin otağında qulaq asmışdım. Bu barədə bir az sonra söz açarıq.

### Ötən il Şuşada, bu il Xankəndində

Qərəz, yazını ayın 20-nə hazırlamağı düşünsəm də, sonradan fikirləşdim ki, cənab Prezident Ərsin Tatarın son bir ildə Azərbaycana etdiyi səfərlərin hər ikisi məhz iyulun 4-də və 5-də baş tutmuşdur. Belə ki, iyulun 5-də ŞKTC-nin Prezidenti Ərsin Tatarın ötənilki Şuşa səfərinin bir ili tamam oldu. Bu il iyulun 4-də isə onun İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndidə keçirilən 17-ci Zirvə Görüşündəki çıxışının sonunda səsləndirdiyi “Qarabağ Azərbaycandır! Azərbaycan Qarabağdır!” ifadəsi nəzərlərdən yayınmadı.

### Xankəndidə siyasi qrammatika

Fikrimizcə, həmin ifadə qətiyyən sözgəlişi deyilməmişdi. Çünki biz “Qarabağ Azərbaycandır!” deyəndə liderimizin və əsgərlərimizin hünəri ilə sübut etdiyimiz tarixi həqiqəti dünyanın nəzərinə çatdırmaq istəyirik. “Azərbaycan Qarabağdır!” deyimi isə məhz respublikamızın da elə Qarabağ kimi canlar, qanlar bahasına öz varlığını sübut etdiyinə işarədir. Bu ifadə xüsusən, bədxahlarımıza, Azərbaycanın tərəqqisini istəməyənlərə ünvanlanmış kəsərli mesajdır. Çünki beynəlxalq aləmdəki ictimai-siyasi proseslər “aranı qarışdırıb, məzhəbi itirdikcə” SSRİ-nin dağılmasından sonra müstəqilliyini bərpa etmiş ölkələrin ərazisi barədə hərə ağzına gələni danışır. Odur ki, “Azərbaycan Qarabağdır!” ifadəsi bu məqamda olduqca yerinə düşən xatırlatmadır. Yəni bu xalq öz hüquqlarını daha heç zaman heç bir əzazilin tapdalamasına imkan verməyəcək.



Azərbaycan Prezidenti and içəndə demişdi ki…

Dünya xəritəsində coğrafi baxımdan kiçik ölkələrdən olan Şimali Kiprin liderinin Xankəndidə səsləndirdiyi həmin fikirləri eşidəndə Azərbaycan Prezidentinin ötən il dediyi “Bizim ailəmiz Türk dünyasıdır!” qətiyyəti yadıma düşdü . Çünki ancaq ailə üzvləri bir-birinin təəssübünü məhz bu şəkildə çəkərlər.

Dövlət başçımız 2024-cü il fevralın 14-də Milli Məclisdə keçirilən andişmə mərasimində demişdi ki, biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik: “Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır”.

### Yeri gəlmişkən…

Ötən il aprelin 5-də Milli Məclisdə Azərbaycan – Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılanda cənab Ərsin Tatar bu fakta görə Prezident İlham Əliyevə təşəkkür etmişdi. O, özünün rəsmi X hesabındakı paylaşımında Azərbaycan – Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupun yaradılması münasibətilə “Türk dünyası bizim ailəmizdir, Türk dünyası ilə əlaqələrimizi gücləndirməliyik”, – deyən Prezident İlham Əliyevə təşəkkürünü bildirmişdi.

Bu il aprelin 11-də isə Antalyada Azərbaycan Prezidenti İlham Əliyevlə görüşən Ərsin Tatar ötən il onun Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə toplantısına dəvət edilməsini məmnunluqla xatırlatmışdır. Yəni, Şimali Kipr məsələsi daim Prezident İlham Əliyevin gündəliyindəki əsas məsələlərdən biridir.

### Ekspertlərin fikrincə…

Mütəxəssislər yazırlar ki, Azərbaycanın Şimali Kipr məsələsinə bu qədər həssaslıqla yanaşmasının ilk səbəbi milli mənsubiyyət, xalqlarımızın eyni kökdən olmasıdırsa, digər səbəbi də sırf strateji əhəmiyyət kəsb edir. Belə ki, ölkəmizin müttəfiqi Türkiyə ilə münasibətlərimizdə enerji əməkdaşlığı xüsusi önəmə malikdir. Bu enerji əməkdaşlığının mövcudluğu və gələcəyi baxımından başda Ceyhan limanı olmaqla, Aralıq dənizi mühüm əhəmiyyət kəsb edir. Məhz bu fakt ŞKTC-nin rəsmi Bakı üçün strateji önəmini daha da artıran amillərdəndir.

### Yuxarıda xatırlatmışdım ki…

Bəli, bu ada ölkəyə səfərimizdən neçə illər keçsə də, oradakı görüşlərimiz, şahidi olduğumuz gözəlliklər, xüsusən, adanı yarıya bölən sərhəddə gördüyümüz beş bayraq – Şimali Kiprin və Türkiyənin, Cənubi Kiprin və Yunanıstanın, üstəgəl BMT-nin bayraqları – maraqlı faktlardan idi. Türk Kiprinin tolerantlığı da məni heyran eləmişdi. Yunanların törətdiyi çoxsaylı qırğınlara baxmayaraq, türklər Lefkoşadakı yunan kilsəsini ən incə detallarına qədər qoruyurlar. Mən orada keşişin ibadət zamanı dayandığı – qızılla süslənmiş kürsüdə şəkil çəkdirmişdim. Dünyada yeganə olan “Qan muzeyi”ni də orada görmüşdüm.

### Kamil Meriçin hüznlü baxışları

Bir kitab tərtib etmək üçün evdəki çoxsaylı kitab-dəftərləri növbəti dəfə götür-qoy edirdim. Və nə yaxşı ki, bu axtarışa ehtiyac yaranıbmış. Çünki… 1998-ci ilin may ayında 6 nəfər həmkarımızla birlikdə Şimali Kipr Türk Cümhuriyyətinə səfər etmişdik. Olduqca maraqlı səfər idi. Qayıdandan sonra səfər təəssüratımı təkcə oxucularla deyil, eləcə də radio dinləyiciləri və televiziya tamaşaçıları ilə də bölüşmüşdüm. Orada görüb yaddaşımıza köçürdüyümüz faktların heç biri heç zaman unudula biləcək şəkildə deyildi.

Xüsusən, Muradağa toplu şəhid məzarı önündə görüşüb həmsöhbət olduğumuz Kamil Göksən Simtaşın (Kamil Meriç) əzablarla, ağrılarla dolu həyatı barədə danışdıqları yüzlərlə kitabın mövzusu ola bilərdi.

Kamil daim Kiprin azadlığı uğrunda gedən mübarizələrin önündə olmuş, istədiyini əldə etmiş xalq qəhrəmanlarından biri idi. Bu mübarizə zamanı zindana atılan Kamilin ömür – gün yoldaşı da şəhid olmuşdu, 5 cocuğu da. Özü də necə? Evin sonbeşiyi, 18 aylıq (yaş yarım) Kəanın gül dəstəsi boyda olan bədəninə 40 mərmi qəlpəsi dəymişdi. Kamil bizə Atlılar kəndində onun ciyərparasının sinif yoldaşlarının – 19 şagirdin birlikdə çəkdirdiyi şəkili göstərmişdi: “Fəqət, indi onların heç biri dünyada yoxdur”.

Uşaqların hamısı öldürülmüşdü. Bizi ən çox təsirləndirən isə Kəanın 40 mərmi qəlpəsinə məruz qalmış məsum cüssəsi idi. O zaman mən elə düşündüm ki, Kəanın bu halına Aralıq dənizi (türklər ona Ağ dəniz deyirlər) ağlamış olar. Bir yazıda bu sualı dənizə yox, Kəana verdim… “Ağ dəniz ağladımı, Kəan?”



Nə yaxşı ki, növbəti bir kitab tərtib etməli oldum və həmin şeiri də tapdım, Kamil Meriçin “Karanlik dünyam” kitabını da.

### Rauf Denktaş mənim “Xalq qəzeti”ndə çalışdığımı eşidəndə dedi ki…

Mərhum prezident Rauf Denktaşla da görüşmüşdük, oğlu Sərdar Denktaşla da. Rauf Denktaş mənim “Xalq qəzeti”ndə işlədiyimi biləndə söylədiyi “Mən də 1941-ci ildə ilk yazılarımı Fazil Küçüyün yaydığı “Xalqın səsi” qəzetində verirdim” ifadəsini elə bil ki, dünən eşitmişdim. Mən sonralar onun tərcümeyi-halına nəzər salanda belə cümlələr gördüm: “Orta məktəbi bitirdikdən sonra – 1941-ci ildə Lefkoşa İngilis Məktəbinən məzun oldu. Məzun olduqdan sonra Fazil Küçüyün “Halkın sesi” qəzetində məqalələr yazmağa başladı. Daha sonra bir müddət Mağusada tərcüməçilik, məhkəmələrdə məmurluq və ingilis məktəbində müəllimlik etdi”.

Yanvar ayında dünyaya gəlib həmin ayda da dünyadan gedən, fəqət qaynar təbiətli, odlardan, alovlardan keçmiş bu adam həqiqətən türk Kiprinin rəmzinə çevrilmişdi.

### “Adam qardaşının evində qonaq olmur”

1998-ci il iyunun 6-da və 7-də “Xalq qəzeti”ndə verilmiş “Quzey Kıbrıs. abidələr, gözəlliklər və səmimiyyət adası” adlı səfər təəssüratlarımda “Gün aydın, turist!” yarımsərlövhəli bir abzas da var idi. İnanıram ki, hörmətli oxucu həmin abzası bu yazıda da təkrar etməyimə görə məni qınamaz:

“Kent” otelində qalarkən birinci gün həmkarım Elxan Şahinoğlu ilə, ikinci gün isə Şahin Cəfərli ilə qısaca səhər gəzintisinə çıxmışdıq. “Dome hotel”də isə elə bil səhər söhbətini heç kəsə qıymadım. Hələ Günəş doğmamış sahil pilləkənlərini aşağı enib dənizlə üz-üzə oturdum.

– Niyə belə olur, ay dəniz? Niyə həmişə bizim qanımızı axıdırlar? Niyə belə olur? Niyə bizim cocuqlarımız şişə çəkilir, edam edilir, torpaqlarımız alınır, sərvətlərimiz talanır, heç kəsə pislik edə bilməyən ürəyimizə dağlar çəkilir, Niyə belə olur, Ağ dəniz? Hanı Kamilin cocuqları?

Dəniz heç nə deyə bilmir, ayağımın altına atdığı narın ləpələrlə sanki könlümü almağa çalışırdı.

Bir azdan ləpələr qıp-qırmızı oldu. Sanki dənizin üzünü qan örtdü. Bilmədim altı əzizi güllə ilə doğranmış Kamil Meriçin ürəyinin qanı idi, yoxsa körpə canına 40 mərmi dəymiş Kəanın qanı idi. Yox, o cocuqda bu qədər qan ola bilməzdi… Yox, bu qan deyildi. Üfüqdən boylanan Günəş hələ öz rənginə gələ bilməyəndə qırmızı görünürmüş. Günəş doğurdu Ağ dənizə. Gün doğurdu Türkün Kıbrıs dünyasına.

– Gün aydın, turist!

Dönüb arxaya baxdım. İxtiyar kıbrıslının salamını başımla ala bildim.

– Müsafirmisən?

– Yox, abi. Adam qardaşının evində qonaq olmur.

Proqramdan kənar ikinci görüş

– Günaydın, müsafirmisiniz?

– Basın mənsublarıyıq. Azərbaycandan gəlmişik.

– Ərdəbildənmi, yoxsa?

– Yox, Bakıdan.

– O…, o…mən sizdən Haydar Əliyevi tanıdım, sevdim, Arif İmanovu tanıdım. (Mən isə Arif İmanovu tanımadım – İ.M.).

– Heydər Əliyevi görmüsünüzmü?

– Hayr, əfəndim.

– Bəs necə sevdiniz?

– Peyhamberimizi də görmədik, əfəndim, fəqət, seviyorum, seviyorum!”.

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

## Replika

# Çamadanını yığ, cənab Ritter!

**Deyəsən, missiyalarının konkret nədən ibarət olduğu indiyədək şübhə dumanı ilə örtülmüş Avropa İttifaqının Ermənistandakı mülki müşahidə kontingentinin rəhbəri Markus Ritter “qu quşunun son nəğməsi”ni ifa etməyə hazırlaşır. Amma, o, nəğmənin nəqarəti kimi səslənəcək “binokllu diplomatların” ariyasına de-minor notlar qatmaqdan vaz keçə bilmir. “Patrullarımız Ermənistan tərəfdən Azərbaycanla sərhədi sutka boyu müşahidə edir. Onlar vəziyyətə yerində nəzarət etmək və regionda sabitliyi qorumaq üçün çalışırlar”. EUMA-nın mətbuat xidmətinin yaydığı son məlumatında belə deyilir.**

Aİ-nin Ermənistandakı mülki missiyasının sərhəddə kəşfiyyat xarakterli fəaliyyəti, Markus Ritterin ikibaşlı açıqlamaları barədə çox yazmışıq. Onun missiyanın əsas məqsədinin, guya, iki ölkə arasındakı şərti sərhəddə gərginliyin yaranmaması, sakinlərin təhlükəsizliyinin təmin edilməsi, qarşılıqlı etimad mühitinin yaradılması olduğu barədə nağıllarını da çox eşitmişik. Bir qədər əvvəl Bakının missiyanın şübhəli fəaliyyəti ilə bağlı tənqidlərinə cavab verməyə çalışan Aİ-nin Ermənistandakı səfiri Vasilis Maraqos aydın və ağlabatan nəsə deyə bilmədiyindən missiyanın yerlərdə insanların təhlükəsizliyini gücləndirmək üçün əla iş gördüyü barədə dezinformasiyanı üfürmüşdü. Missiyanın “əla iş”inin nədən ibarət olduğu bizə gün kimi aydındır. Deməli, Aİ missiyasının Ermənistana gəlişindən sonra Azərbaycanla sərhədboyu ərazilərdə səngərlər, xəndəklər, sığınacaqlar yaradılıb. Bunlar əsasən Sünik, Tavuş, Ararat, Vayots Dvor, Qeqhartkunik bölgələrinə müşahidə olunub.

Bəlkə cənab Maraqos şərti sərhəd zolağı boyunca pikap markalı patrul maşınlarının hərəkətini “faydalı iş” hesab edir? Aİ təsisatının ötən ilə dair hesabatında xüsusi xidmət orqanlarının əməkdaşları – alman-fransız jandarmlarının, keçmiş hərbçilərinin ərazidə neçə kilometr yol qət etmələrini göstərən mənasız rəqəmlərdən başqa heç nə olmayıb.

Azərbaycan Prezidenti İlham Əliyev Bakı ilə İrəvan arasında sülhyaratma prosesində Aİ-yə etimadsızlıq doğuran faktorlardan biri kimi məhz sözügedən missiyanın fəaliyyətini önə çəkmişdi. Belə lüzumsuz bir təsisatın şərti sərhədin o üzündə olmasının Azərbaycan–Aİ münasibətlərində də etimadsızlıq yaratdığını vurğulayan dövlətimizin başçısı sözlərinə onu da əlavə etmişdi ki, “Avropa müşahidəçilər missiyasının müddəti ölkəmizin razılığı olmadan, hətta bizimlə məsləhətləşmədən uzadılıb”. Dövlətimizin başçısı, həmçinin mövcud xüsusda ritorik sual səsləndirmişdi: “Buna nə ehtiyac var idi?!”

*

“Sülh müqaviləsi imzalandıqdan sonra İrəvan və Bakı öz aralarında olan sərhəddə üçüncü qüvvələrin yerləşdirilməsi ilə məşğul olmayacaqlar. Üstəlik, bu, həm Ermənistana, həm də Azərbaycana aid məsələdir”. Bunu Ermənistan baş naziri Nikol Paşinyan dörd ay bundan əvvəl jurnalistlərə açıqlamasında bildirmişdi. Doğrudur, o zamankı açıqlamasına “Sülh müqaviləsində Aİ-nin Ermənistandakı mülki missiyasından bəhs edən bənd yoxdur” kimi şərhini də əlavə etmişdi.

“Missiya üzvləri məktəblərdə gənclərlə görüşlər keçirir, Azərbaycan sərhədləri boyunca kəşfiyyat işləri aparır. Açıqlamalarında isə silahsız qurum olduqlarını, Azərbaycana qarşı hər hansı bir işlər görmədiklərini irəli sürülürlər. Aİ-nin missiyası Ermənistana gələndən sonra şərti sərhəddə 70-yə yaxın hərbi təyinatlı obyektlər tikilib, yenilənmə işləri aparılıb. Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının məlumatında o da bildirilir ki, İkinci Qarabağ müharibəsindən sonra peyk görüntülərindən istifadə etməklə Azərbaycan–Ermənistan şərti sərhədində, eləcə də Ermənistan–İran sərhədində təhlillər aparılıb. Həmin təhlillər Aİ missiyasının bölgəyə gəlişinə qədər və gələndən sonrakı dövrü əhatə edib.



Rəsmi Bakı dəfələrlə bəyan edib ki, Aİ-nin mülki missiyasının iş prinsipini gücləndirmək, onu hərbiləşdirərək NATO-nun strukturu halına gətirmək sevdası baş tutmayacaq. Çünki sülhün bir addımlığında olan nə İrəvana, nə də Bakıya normallaşan münasibətlərə xələl gətirəcək “kollektiv Qərb”in bu qondarma qurumunun mövcudluğu sərf eləyir. Bundan sonra Parisin kor “haypərəstliyi” də işə yaramayacaq. Beləliklə, “binokllu müşahidəçilər”in əlləri ətəklərindən uzun, çamadanlarını yığıb bölgəni tərk edəcəklərinə sayılı günlər qalıb...

***İ.HƏSƏNQALA***
***XQ***

# Azərbaycan Mətbuat Şurası Rusiya Jurnalistlər İttifaqının qərəzli açıqlamasını cavablandırıb

(əvvəli 1-ci səhifədə)

***Rusiya Jurnalistlər İttifaqının həqiqəti əks etdirməyən bəyanatı ilə bağlı Azərbaycan Mətbuat Şurasının beynəlxalq ictimaiyyətə bu sözlərlə başlayan müraciətinin davamında bildirilir:***

– Jurnalistlər İttifaqının “Sputnik Azərbaycan” agentliyinin əməkdaşlarının həbsi ilə bağlı beynəlxalq təşkilatlara, jurnalist və hüquq müdafiəsi assosiasiyalarına ünvanlanan məktubuna cavab olaraq, hadisələrin obyektiv mənzərəsini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmağı vacib hesab edirik.

Əvvəla, məktubda faktlar kobud şəkildə təhrif edilir ki, bu da beynəlxalq ictimai rəyi aşkar surətdə manipulyasiya etmək cəhdindən xəbər verir. Açıq məktubda yer alan ifadələrin əksinə olaraq, “Sputnik Azərbaycan”ın rəhbəri İqor Kartavıxın və böyük redaktor Yevgeni Belousovun saxlanılmasının onların jurnalistika sahəsində peşə vəzifələrini yerinə yetirmələri ilə heç bir əlaqəsi yoxdur. Xüsusi vurğulanmalıdır ki, həmin şəxslər Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidməti (FTX) ilə əməkdaşlıq ediblər və jurnalist fəaliyyəti ilə bağlı olmayan tapşırıqları yerinə yetirmək məqsədilə Azərbaycanda olublar. Bu baxımdan onların saxlanılması mövcud qanunvericiliyə tam uyğun və qanuni müstəvidə həyata keçirilən hüquqi tədbirdir.



Vəziyyəti daha dolğun şəkildə başa düşmək üçün diqqəti bir fakta cəlb etmək istərdik. “Sputnik Azərbaycan”a əvvəllər bir neçə il Rusiya xüsusi xidmət orqanlarının karyera zabiti, Baş Kəşfiyyat İdarəsi (QRU) ilə sıx bağlı olan Vitali Denisov rəhbərlik edib. Bundan əvvəl o, “Sputnik Cənubi Osetiya” agentliyinə, daha sonra isə “Sputnik Moldova”ya başçılıq edib. O, bu vəzifələrdə Rusiya xüsusi xidmət orqanlarının maraqları naminə həmin regionların media resurslarından yararlanaraq, Kremlin gündəliyinin təbliğinə yönəlmiş informasiya və təbliğat kampaniyalarına rəhbərlik edib.

Təxribat fəaliyyətinə görə Denisov Azərbaycandan və Moldovadan qovulub, bu isə bir daha təsdiq edir ki, cəmiyyəti məlumatlandırmaqdan uzaq olan vəzifələr çox vaxt jurnalist fəaliyyəti adı altında həyata keçirilir. Söhbət onları qəbul edən ölkələrin milli təhlükəsizliyinə təhdid yaradan əlaqələndirilmiş təsir və müdaxilə cəhdlərindən gedir.

***Müraciətdə daha sonra qeyd edilir ki, “Sputnik” kimi psevdomedia strukturlarından alət kimi istifadə edən xüsusi xidmət orqanlarının bu cür iş üsulları suveren dövlətlərdə vəziyyətin sabitliyini pozmağa yönəlmiş daha geniş hibrid strategiyanın bir hissəsidir:***

– Bu, Avropa Şurası, Avropa Parlamenti, “EUvsDisinfo” və EDMO kimi aparıcı təşkilatların beynəlxalq hesabatlarında öz təsdiqini tapır. Onlar “Sputnik”in sadəcə bir xəbər agentliyi deyil, digər ölkələrin daxili siyasi proseslərinə müdaxiləyə yönəlmiş Rusiya dezinformasiya kampaniyasının əsas aləti olduğunu qeyd edirlər.

Bu baxımdan “Sputnik”in fəaliyyətinə beynəlxalq ictimaiyyətin reaksiyası tamamilə təbiidir: agentliyin fəaliyyəti 32 ölkədə, o cümlədən Avropa İttifaqının 27 dövlətinin hamısında, həmçinin Ukrayna, Böyük Britaniya, Kanada, İsveçrə və Avstraliyada rəsmi olaraq qadağan edilib və ya bloklanıb. Rusiya Jurnalistlər İttifaqının öz ölkəsi daxilində jurnalistlərin təqib edilməsi və söz azadlığının məhdudlaşdırılması problemləri ilə ciddi məşğul olmaq əvəzinə, əslində bu aktual məsələləri lazımi diqqətdən kənarda qoyması dərin çaşqınlıq doğurur. Müstəqil media nümayəndələrinin çoxsaylı həbsləri, onlara sistemli təzyiqlər ictimai-siyasi diskursun son həddindədir.

1992-ci ildən bəri Rusiyada 50-dən çox jurnalistin öldürüldüyü barədə beynəlxalq jurnalist və insan haqları təşkilatlarının məlumatları da vəziyyətin nə qədər ciddi olduğunu təsdiqləyir. Eyni zamanda, bunun onların peşəkar fəaliyyəti ilə bağlı olduğuna dair əsaslı şübhələr var. Üstəlik, 2019-cu ildən 2024-cü ilə qədər ölkədə ən azı 26 jurnalistin saxlanılması və həbs olunması söz azadlığı və müstəqil jurnalistika sahəsində sistemli problemlərin davam etdiyini əyani şəkildə nümayiş etdirir.

Beynəlxalq insan haqları təşkilatlarının hesabatlarında mütəmadi olaraq Rusiyada müstəqil jurnalistikanın genişmiqyaslı azalması qeyd olunur və ekspertlər, təxminən, 60-70 faiz rəqəmlərə istinad edirlər. Oxşar nəticələrə mötəbər mənbələrin materiallarında da istinad edilir ki, bu da ölkədə söz azadlığının boğulması istiqamətində sistemli və köklü tendensiyanın olduğunu göstərir.

Beləliklə, Yuri Şçekoçixin, Anna Politkovskayanın, Pavel Şeremetin, Pavel Xlebnikovun və bir çox başqa tanınmış jurnalistlərin səs-küylü qətli ilə bağlı məsələlər hələ də siyasi motivlərə görə açılmamış qalır. Rusiyanın Ukraynaya qarşı hərbi kampaniyası başlayandan sonra media üzərində senzura xeyli güclənib, istənilən alternativ mövqe fəal şəkildə yatırılır, öz fikirlərini bildirməyə çalışan jurnalistlər təqib olunur və həbs edilir.

***AMŞ-nin beynəlxalq ictimaiyyət üçün açıqlamasının sonunda qeyd edilir ki, yuxarıda qeyd edilən faktlara baxmayaraq, Rusiya Jurnalistlər İttifaqı öz ölkəsində real risklərə məruz qalan müstəqil jurnalistlərin müdafiəsində eyni əzmkarlıq nümayiş etdirmək əvəzinə, casusluqda şübhəli bilinənləri dəstəkləməyə üstünlük verir:***

– Rusiya Federal Təhlükəsizlik Xidmətinin filialından başqa bir şey olmayan “Sputnik Azərbaycan” agentliyinin əməkdaşlarının saxlanılması ilə bağlı yaranmış vəziyyətdə beynəlxalq jurnalist və hüquq müdafiə təşkilatları, ilk növbədə, Rusiya Jurnalistlər İttifaqının təmsil etdiyi guya müstəqil jurnalist təşkilatlarının xüsusi xidmət orqanları ilə əlaqəsi, onların siyasi təsir və informasiya manipulyasiyası vasitəsinə çevrildiyi barədə düşünməlidir.

Biz beynəlxalq jurnalist və insan haqları təşkilatlarını bu cür informasiya təxribatına adekvat reaksiya verməyə və mediadan siyasi məqsədlər üçün istifadəni qətiyyətlə pisləməyə çağırırıq.

***XQ***

## MEDİA: Bir sıra sosial şəbəkələrdə Azərbaycanın müdafiə və xarici işlər nazirlərinin adlarından yayılan xəbərlər feykdir




**Bir sıra sosial şəbəkə hesablarında Azərbaycan Respublikasının müdafiə naziri və Azərbaycan Respublikasının xarici işlər naziri adından guya Belarus təyyarəsinin Rusiyanın hava məkanında vurulmasına dair “deep fake” texnologiyaları ilə hazırlanmış, heç bir reallığı əks etdirməyən açıqlama yayılıb.**




Qeyd edirik ki, süni intellektin tətbiqi ilə yaradılmış bu saxta videogörüntülər ictimai rəyi çaşdırmağa yönəlmiş kobud informasiya manipulyasiyası nümunəsidir.

Bu barədə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin məlumatında bildirilib.

“Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi informasiyaya inanmağa, dövlətin rəsmi mövqeyini ifadə edən məlumatları ölkənin informasiya agentlikləri və digər peşəkar media subyektlərindən əldə etməyə çağırırıq.

Azərbaycan vətəndaşlarını, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların, “deep feyk” texnologiyaları ilə məzmun yaratma tendensiyasının vüsət aldığı bir şəraitdə sayıq olmağa səsləyirik”, – deyə MEDİA-nın məlumatında vurğulanıb.

# RJİ-nin “Sputnik” “təəssübü”: söz azadlığı, yoxsa azad həyasızlıq?

### *Mətbuat Şurasının beynəlxalq ictimaiyyətə müraciətinə sözardı*

**Bəri başdan deyək ki, Azərbaycan Mətbuat Şurasının yaydığı müraciət Rusiya Jurnalistlər İttifaqının (RJİ) “Sputnik Azərbaycan” agentliyinin əməkdaşlarının ölkəmizdəki həbsi ilə bağlı beynəlxalq aləmdə qaldırdığı səs-küyə cavab mahiyyəti daşıyır. Daha doğrusu, Şura müraciəti ilə beynəlxalq ictimaiyyətin, o cümlədən xarici media cameəsinin hadisəyə dair yanlış məlumatlandırılmasına yol verməmək niyyətindədir. Güman edirik, qurumun yaydığı sənədin təsiri olacaq.**

Əslində, RJİ-nin “Sputnik Azərbaycan” agentliyinin əməkdaşlarının həbsi ilə bağlı beynəlxalq təşkilatlara, jurnalist və hüquq müdafiəsi assosiasiyalarına ünvanlanan məktubuna diqqət yetirəndə heyrətlənməyə bilmirsən. Azərbaycanda belə bir atalar misalı var: Utanmayasan, oynamağa nə var ki? Təsəvvür edin, söz və ifadə azalıqlarına həqarətlə yanaşılan bir ölkədə fəaliyyət göstərən jurnalist təşkilatı bəşəri dəyərlərdən dəm vurur. Həqiqətən, gülməli durumdur. Mətbuat Şurası müraciətində bu durumun acı gerçəkliklərini vurğulayıb: “Rusiya Jurnalistlər İttifaqının öz ölkəsi daxilində jurnalistlərin təqib edilməsi və söz azadlığının məhdudlaşdırılması problemləri ilə ciddi məşğul olmaq əvəzinə, əslində bu aktual məsələləri lazımi diqqətdən kənarda qoyması dərin çaşqınlıq doğurur. Müstəqil media nümayəndələrinin çoxsaylı həbsləri, onlara sistemli təzyiqlər ictimai-siyasi diskursun son həddindədir”.

Daha gülməlisi isə RJİ-nin beynəlxalq hüquq baxımından Rusiyaya məxsus olmayan, Ukrayna ərazisi kimi tanınan bölgələrdə bölmələr yaratmasıdır. Qurum vaxtilə belə bir sərsəm addım atanda dünyanın aparıcı media təşkilatları onu nəinki qınadılar, ümumiyyətlə, loru dildə desək, sildilər. İndi bu təşkilat Azərbaycanda söz azadlığını şübhələndirmək yolu tutur. Özü də tutduğu yolun saxtalığının fərqinə varmadan. Bəlkə də varır, sadəcə nə edə bilər, çünki Rusiyada fəaliyyət göstərir. Mətbuat Şurasının müraciətində vurğulandığı kimi, son illər xarici siyasətdə təsir aləti kimi mediadan daha fəal istifadə edən Rusiyada.

Bəli, Rusiyanın informasiya fəaliyyəti pərdəsi altında suveren dövlətlərdə siyasi vəziyyətin sabitliyinin pozulmasına yönəlmiş genişmiqyaslı kampaniyalar apardığı sirr deyil. Şuranın müraciətində mövcud məqam da vurğulanıb: “Başqa ölkələrin daxili işlərinə müdaxilə olan belə hərəkətlər yerli ictimai institutların fəaliyyətini pozur və hakimiyyətlərə etimadın səviyyəsini azaldır. Bu praktika Rusiyanın “Sputnik” agentliyinin və onun əməkdaşlarının fəaliyyətində özünü daha çox büruzə verir”.

Beləliklə, MŞ haqqında söz açdığımız müraciəti ilə başlıca məqsədinin hadisələrin obyektiv mənzərəsini diqqətə çatdırmaq olduğunu açıqlayıb. Yəni, RJİ-nin açıq məktubunda yer alan ifadələrin əksinə olaraq, “Sputnik Azərbaycan”ın rəhbəri İqor Kartavıxın və böyük redaktor Yevgeni Belousovun saxlanılmasının onların jurnalistika sahəsində peşə vəzifələrini yerinə yetirmələri ilə heç bir əlaqəsi yoxdur”.

Hər halda, dünya ictimaiyyəti Rusiyada mediaya manipulyativ tərzdə yanaşıldığının fərqindədir. Tarix boyu da belə olub. Ölkənin agentura şəbəkəsinin bir çox üzvləri məhz jurnalist adı ilə fəaliyyət göstəriblər. Sözümüz ondadır ki, “Sputnik Azərbaycan”la bağlı durum nə ilkdir, nə də çox güman, son olacaq. Ona görə də İ.Kartavıxın və Y.Belousovun Rusiya Federal Təhlükəsizlik Xidməti (FTX) ilə əməkdaşlıq etmələri təəccüblü qarşılanmamalıdır. Onların saxlanılmaları da həmçinin. Nəzərə alaq ki, bu iki şəxsə qarşı seçilmiş ölçü tədbiri ölkəmizin qanunvericiliyinə tam uyğundur. Əlbəttə, RJİ üçün qanunvericiliyə uyğunluq məsələsi anlaşılmaya bilər. Çünki Rusiyada jurnalistlər əsassız yerə saxlanılır, məsuliyyətə cəlb edilir. Necə deyərlər, aşıq isə gördüyünü çalar. RJİ-nin də gördüyü budur. Başqa nə etməlidir? Cavab verək ki, qurum heç olmasa, susa bilər. Amma...




Ayrıca “Sputnik Azərbaycan”la bağlı vəziyyətin məxsusiliyi də var. Yəni, indiyədək də bu media quruluşunun “təcrübəsində” jurnalist fəaliyyətinə zidd yaramazlıqlar qeydə alınıb. Mövcud məqam MŞ-nin müraciətində də əskini tapıb. “Sputnik Azərbaycan”a əvvəllər bir neçə il Rusiya xüsusi xidmət orqanlarının karyera zabiti, Baş Kəşfiyyat İdarəsi (QRU) ilə sıx bağlı olan Vitali Denisov rəhbərlik edib. Bundan əvvəl o, “Sputnik Cənubi Osetiya” agentliyinə, daha sonra isə “Sputnik Moldova”ya başçılıq edib. O, bu vəzifələrdə Rusiya xüsusi xidmət orqanlarının maraqları naminə həmin regionların media resurslarından yararlanaraq, Kremlin gündəliyinin təbliğinə yönəlmiş informasiya və təbliğat kampaniyalarına rəhbərlik edib”.

Haqqında söz açılan V.Denisovun təxribat fəaliyyətinə görə Azərbaycandan və Moldovadan qovulduğu da məlumdur. Deməli, dünya ictimaiyyəti bildiyi həqiqəti bir daha yeniləməlidir. Bir halda ki, Rusiyada cəmiyyəti məlumatlandırmaqdan uzaq vəzifələr çox vaxt jurnalist fəaliyyəti adı altında həyata keçirilir, deməli, “Sputnik Azərbaycan”ın da ölkəmizin milli təhlükəsizliyinə təhdid yaradan əlaqələndirilmiş təsir və müdaxilə cəhdlərinə baş vurması adi normadır. RJİ-nin bu qurumun müdafiəsinə qalxıb söz azadlığının “qayğısına qalması” isə aşkar həyasızlıqdan başqa bir şey deyil. Həm də o səbəbdən həyasızlıqdır ki, Rusiyanın xüsusi xidmət orqanlarının psevdomedia strukturlarını alətə çevirməsi Avropa Şurası, Avropa Parlamenti, “EUvsDisinfo” və EDMO kimi aparıcı təşkilatların hesabatlarında da əksini tapıb. Yeri gəlmişkən, həmin hesablarda məhz “Sputnik”in də adı çəkilib. Əlbəttə, Kremlin dezinformasiya kampaniyasının əsas aləti qismində. Üstəlik, Mətbuat Şurasının müraciətində də vurğulandığı kimi, qurumun fəaliyyəti 32 ölkədə, o cümlədən Avropa İttifaqının 27 dövlətinin hamısında, həmçinin Ukrayna, Böyük Britaniya, Kanada, İsveçrə və Avstraliyada rəsmi olaraq qadağan edilib və ya bloklanıb.

Sonda bir daha bildirək ki, RJİ, həqiqətən, söz azadlığı barədə düşünürsə, ilk növbədə, Rusiyadakı duruma diqqət yetirməlidir. Görəsən, qurum fəaliyyət göstərdiyi ölkədə 1992-ci ildən bəri 50-dən çox jurnalistin öldürülməsinə hansısa reaksiya veribmi? Üstəlik, 2019-cu ildən 2024-cü ilə qədər Rusiyada ən azı 30-dək jurnalist saxlanılıb və həbs olunub. RJİ söz azadlığı və müstəqil jurnalistika sahəsində sistemli problemlərin davam etdiyi barədə təbil zəngi çalıbmı? Axı bütün beynəlxalq insan haqları təşkilatlarının hesabatlarında mövcud məqam vurğulanır. Bu qorxunc mənzərəni isə Yuri Şçekoçixin, Anna Politkovskayanın, Pavel Şeremetin, Pavel Xlebnikovun və bir çox başqa tanınmış jurnalistlərin səs-küylü qətlləri tamamlayır. Yəni, Rusiyada jurnalistlər təkcə qətlə yetirilmir. Onlar elə öldürülür ki, olayların həm də cəza mahiyyəti vurğulansın, azad mediaya göz dağı verilsin. Görəsən, belə hallarda RJİ harada idi? Qurumun təmsilçiləri Azərbaycanı hədəfə alarkən bunları düşünüblərmi?

Sualımız ritorikdir. Çünki hazırda düşünməli olan tərəf beynəlxalq ictimaiyyətdir. Yəni, xarici aləm “Sputnik Azərbaycan” agentliyinin əməkdaşlarının saxlanılması ilə bağlı yaranmış vəziyyətin Rusiyadakı əndərəbadi media anlayışından qaynaqlandığını nəzər almalıdır. Nəzərə almalı və RJİ-nin anti-Azərbaycan yönümlü informasiya təxribatına adekvat reaksiya verməli, mediadan siyasi məqsədlər naminə istifadəni qətiyyətlə pisləməlidir. Mətbuat Şurasının müraciətində ifadə olunan çağırış da məhz budur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 193** **Bakı şəhəri, 3 iyul 2025-ci il**

**“Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 555 (Cild I); 2024, № 2, maddə 236, № 5 (II kitab), maddə 575, № 7, maddə 910; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 aprel tarixli 137 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

**1** Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı”nın “Memarlıq abidələri” bölməsi üzrə:

1.1. “Ağdam rayonu” hissəsinə aşağıdakı məzmunda 203-1-ci bənd əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 203-1. | Məscid | 1879-cu il | Abdal kəndi |

1.2. “Kəlbəcər rayonu” hissəsinə aşağıdakı məzmunda 267-1-ci bənd əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 267-1. | Monastır | IX-XIV əsrlər | Qanlıkənd kəndi |

1.3. “Laçın rayonu” hissəsinə aşağıdakı məzmunda 312-1-ci bənd əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 312-1. | Məbəd | IX-XI əsrlər | Bozlu kəndi |

**2.** Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - “Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı” üzrə:

2.1. “Memarlıq abidələri” bölməsinin “Ağdam rayonu” hissəsinə aşağıdakı məzmunda 4030-1-ci bənd əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 4030-1. | Hamam | XIX əsrin sonu - XX əsrin əvvəlləri | Ağdam şəhəri |

2.2. “Memarlıq abidələri” bölməsinin “Ağdam rayonu” hissəsinin 4053-cü bəndində “Kənkərli” sözü “Kəngərli” sözü ilə əvəz edilsin;

2.3. “Memarlıq abidələri” bölməsinin “Ağdam rayonu” hissəsinə aşağıdakı məzmunda 4055-1–4055-9-cu bəndlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 4055-1. | Türbə | 1989-cu il | Əlimədətli kəndi |
| 4055-2. | Türbə | XIX əsr | Boyəhmədli kəndi |
| 4055-3. | Türbə | XIX əsr | Qızıl Kəngərli kəndi |
| 4055-4. | Türbə | XIV-XV əsrlər | Qızıl Kəngərli kəndi |
| 4055-5. | Körpü | XVIII-XIX əsrlər | Kəngərli kəndindən şimal-qərbdə |
| 4055-6. | Türbə | XVIII-XIX əsrlər | Eyvazxanbəyli kəndi |
| 4055-7. | Hamam | 1900-1901-ci illər | Gülablı kəndi |
| 4055-8. | Məscid | 1899-cu il | Gülablı kəndi |
| 4055-9. | Məscid | 1896-cı il | Novruzlu kəndi |

2.4. “Memarlıq abidələri” bölməsinin “Füzuli rayonu” hissəsinə aşağıdakı məzmunda 4240-1–4240-4-cü bəndlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 4240-1. | Hamam | XVII-XVIII əsrlər | Qarğabazar kəndi |
| 4240-2. | Əhməd Sultan türbəsi | 1794-1795-ci illər | Yuxarı Seyidəhmədli kəndi |
| 4240-3. | Türbə | 1852-1853-cü illər | Yuxarı Seyidəhmədli kəndi |
| 4240-4. | Məbəd və monastır qalıqları | Erkən orta əsrlər | Zərgər kəndi, Füzuli şəhərinin yaxınlığında |

2.5. “Memarlıq abidələri” bölməsinin “Xocavənd rayonu” hissəsinə aşağıdakı məzmunda 4353-1–4353-7-ci bəndlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 4353-1. | 1 nömrəli körpü | XIX əsr | Böyük Tağlar kəndi |
| 4353-2. | 2 nömrəli körpü | XV-XVI əsrlər | Böyük Tağlar kəndi |
| 4353-3. | 1 nömrəli körpü | XX əsrin əvvəlləri | Tağaser kəndi |
| 4353-4. | 2 nömrəli körpü | 1939-cu il | Tağaser kəndi |
| 4353-5. | 3 nömrəli körpü | 1763-cü il | Tağaser kəndi |
| 4353-6. | Körpü | XVIII əsr | Hadrut qəsəbəsi |
| 4353-7. | Məbəd | XVII əsr | Edişə kəndi |

2.6. “Memarlıq abidələri” bölməsinin “Kəlbəcər rayonu” hissəsinə aşağıdakı məzmunda 4497-1–4497-9-cu bəndlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 4497-1. | Bulaq | XVII əsr | Daşbulaq kəndi |
| 4497-2. | Məbəd qalıqları | XII-XIII əsrlər | Daşbulaq kəndi |
| 4497-3. | Məbəd | XVII əsr | Çaykənd kəndi |
| 4497-4. | Məbəd qalıqları | XVII əsr | Günəşli kəndi |
| 4497-5. | Məbəd (sövmə) | XIII-XIV əsrlər | Qamışlı kəndi |
| 4497-6. | Qırmızı məbəd | XII-XIII əsrlər | Fətallar kəndi |
| 4497-7. | Monastır | XII-XIII əsrlər | Çəpli kəndi |
| 4497-8. | Məbəd | XIII əsr | Zar kəndi |
| 4497-9. | Məbəd | XIII əsr | Zar kəndi |

2.7. “Memarlıq abidələri” bölməsinin “Laçın rayonu” hissəsinə aşağıdakı məzmunda 4764-1–4764-7-ci bəndlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 4764-1. | Məbəd | IX-X əsrlər | Sadınlar kəndi |
| 4764-2. | Məbəd | XIII-XVII əsrlər | Qarasaqqal kəndi |
| 4764-3. | Qaraçanlı qalası | Orta əsrlər | Qaraçanlı kəndi |
| 4764-4. | Monastır qalıqları | IX-XI əsrlər | Katos kəndi |
| 4764-5. | Məbəd (sövmə) | XII-XIII əsrlər | Ərikli kəndi |
| 4764-6. | Məscid | XIX-XX əsrlər | Cicimli kəndi |
| 4764-7. | Qala | | Mirik kəndi |

2.8. “Memarlıq abidələri” bölməsinin “Zəngilan rayonu” hissəsinə aşağıdakı məzmunda 5292-1-ci bənd əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 5292-1. | Məbəd | XVII əsr | Şatarız kəndi |

2.9. “Arxeoloji abidələr” bölməsinin “Cəlilabad rayonu” hissəsindən sonra aşağıdakı məzmunda “Füzuli rayonu” hissəsi əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| Füzuli rayonu | | | |
| 5803-1. | Kəhriz | 1912-1917-ci illər | Xatınbulaq kəndi |
| 5803-2. | Kəhriz | XIX əsr | Sərdarlı kəndi |

2.10. “Arxeoloji abidələr” bölməsinin “Laçın rayonu” hissəsinə aşağıdakı məzmunda 5925-1-ci bənd əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 5925-1. | Mağara (Ağzıbir kahası) | | Qarıqışlaq kəndi |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 196** **Bakı şəhəri, 4 iyul 2025-ci il**

**“Filmlərin istehsalı üçün çəkilmiş xərclərin qismən geri ödənilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında**

“Azərbaycan Respublikasının ərazisində kinematoqrafiya əsərlərinin və digər audiovizual əsərlərin istehsalı ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 may tarixli 610 nömrəli Sərəncamının 1-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Filmlərin istehsalı üçün çəkilmiş xərclərin qismən geri ödənilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 195** **Bakı şəhəri, 3 iyul 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli, “Sağlamlıq imkanları məhdud olan məktəbəqədər yaşlı uşaqların təhsilinin dövlət standartları”nın təsdiq edilməsi haqqında” 2018-ci il 26 fevral tarixli 62 nömrəli, “Peşə təhsilinin dövlət standartları”nın təsdiq edilməsi və “İlk peşə-ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı (kurikulum)”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 77 nömrəli Qərarının ləğv edilməsi barədə” 2019-cu il 11 mart tarixli 85 nömrəli, “Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində tətbiq edilən dövlət peşə təhsili standartları”nın təsdiq edilməsi haqqında” 2019-cu il 15 mart tarixli 101 nömrəli, “Xüsusi peşə təhsili müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” 2019-cu il 26 aprel tarixli 189 nömrəli, “Ümumi təhsil müəssisələrinin növlər üzrə Meyarları”nın təsdiq edilməsi haqqında” 2020-ci il 29 iyul tarixli 270 nömrəli və “Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili üçün xüsusi təhsilin dövlət standartları”nın təsdiq edilməsi haqqında” 2024-cü il 8 fevral tarixli 75 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 78-VIIQD nömrəli Qanununun tətbiqi və “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 24 avqust tarixli 761 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 dekabr tarixli 262 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 10, maddə 1000 (Cild I); 2024, № 1, maddə 83, № 5 (II kitab), maddələr 605, 612, № 9, maddə 1067) ilə təsdiq edilmiş “Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi”nə aşağıdakı məzmunda 3.19-cu bənd əlavə edilsin:

“3.19. Məktəbəqədər təhsil müəssisəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri” nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.”.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 26 fevral tarixli 62 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 365 (Cild I); 2024, № 1, maddə 80, № 9, maddə 1067) ilə təsdiq edilmiş “Sağlamlıq imkanları məhdud olan məktəbəqədər yaşlı uşaqların təhsilinin dövlət standartları”na aşağıdakı məzmunda 4.2-1-ci bənd əlavə edilsin:

“4.2-1. Xüsusi məktəbəqədər təhsil müəssisəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri” nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.”.

**3** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 mart tarixli 85 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 519 (Cild I); 2024, № 9, maddə 1062) ilə təsdiq edilmiş “Peşə təhsilinin dövlət standartları”na aşağıdakı məzmunda 4.2-1-ci bənd əlavə edilsin:

“4.2-1. Peşə təhsili müəssisəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri” nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.”.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 mart tarixli 101 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 535 (Cild I) ilə təsdiq edilmiş “Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində tətbiq edilən dövlət peşə təhsili standartları”nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4.2-ci bənddə “Peşə təhsili müəssisəsinin” sözləri “Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisəsinin və xüsusi peşə təhsili müəssisəsinin” sözləri ilə əvəz edilsin;

4.2. aşağıdakı məzmunda 4.2-1-ci bənd əlavə edilsin:

“4.2-1. Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisəsində və xüsusi peşə təhsili müəssisəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri” nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.”.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 26 aprel tarixli 189 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 780 (Cild I); 2024, № 1, maddə 115) ilə təsdiq edilmiş “Xüsusi peşə təhsili müəssisələrinin Nümunəvi Nizamnaməsi”nə aşağıdakı məzmunda 5.7-1-ci bənd əlavə edilsin:

“5.7-1. Peşə təhsili müəssisəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri” nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.”.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 270 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1000 (Cild I); 2024, № 9, maddə 1067, № 11, maddə 1251; 2025, № 1, maddə 84) ilə təsdiq edilmiş “Ümumi təhsil müəssisələrinin növlər üzrə Meyarları”na aşağıdakı məzmunda 1.5-1-ci bənd əlavə edilsin:

“1.5-1. Ümumi təhsil müəssisələrində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri” nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.”.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 207) ilə təsdiq edilmiş “Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili üçün xüsusi təhsilin dövlət standartları”na aşağıdakı məzmunda 4.1-1-ci bənd əlavə edilsin:

“4.1-1. Təhsil müəssisəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri” nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 199** **Bakı şəhəri, 4 iyul 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 16 noyabr tarixli 464 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına verilən ipoteka krediti, o cümlədən güzəştli ipoteka krediti üzrə borcalanın (borcalanların) aylıq məcmu gəlirinin hesablanması Qaydası”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 16 noyabr tarixli 464 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1952 (Cild I); 2024, № 3, maddə 313; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 12 may tarixli 157 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına verilən ipoteka krediti, o cümlədən güzəştli ipoteka krediti üzrə borcalanın (borcalanların) aylıq məcmu gəlirinin hesablanması Qaydası”nın 4.5-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

**1** Birinci cümləyə “Məcəlləsinə” sözündən sonra “(bundan sonra – Vergi Məcəlləsi)” sözləri əlavə edilsin.

**2.** Aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

“Vergi Məcəlləsinin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan sadələşdirilmiş vergi ödəyicilərinin aylıq məcmu gəliri Bakı, Gəncə, Sumqayıt və Xırdalan şəhərlərində minimum aylıq əməkhaqqının 3, digər rayon (şəhər) və qəsəbələrdə (kəndlərdə) isə 2 misli miqdarında hesablanır.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 201** **Bakı şəhəri, 8 iyul 2025-ci il**

**“Daşınmaz abidələrin pasportlaşdırılması Qaydaları”nın və “Daşınmaz abidələrin pasportunun nümunəvi forması”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 16 may tarixli 200-VIIQD nömrəli Qanununun tətbiqi və “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 iyun tarixli 407 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Daşınmaz abidələrin pasportlaşdırılması Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**2.** “Daşınmaz abidələrin pasportunun nümunəvi forması” təsdiq edilsin (əlavə olunur).

**3** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi daşınmaz tarix və mədəniyyət abidələri ilə bağlı pasportların 1 (bir) il müddətində mədəniyyət sahəsində elektron məlumat sisteminə yerləşdirilməsini təmin etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 202** **Bakı şəhəri, 8 iyul 2025-ci il**

**“Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Biznesinin İnkişafı Fondunun fəaliyyətinin təmin edilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 258 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 4 iyun tarixli 177 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı”nın 83-cü və 180-ci hissələri ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.**

## Azərbaycanı tanıdanlar

**Bu il aprelin 10-da Müqəddəs Taxt-Tacın Vatikan Qriqorian Pontifik Universitetində Qafqaz Albaniyası irsinə həsr edilmiş “Azərbaycanda xristianlıq: tarix və müasirlik” adlı XII beynəlxalq elmi konfransda Roma Sapienza Universitetinin sənət tarixi üzrə doktorantura məzunu, elmi və mədəni fəaliyyətini İtaliyada davam etdirən soydaşımız Ləman Bərdəlinin mövzuya fərqli yanaşması məclisdə böyük maraq doğurub.**

# Romadan Qafqaz Albaniyasına səyahət

## İtaliyada çalışan soydaşımız Ləman Bərdəlinin Vatikanda Vətən təqdimatı





Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, AMEA Tarix və Etnologiya İnstitutu, Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfirliyi və Alban-Udi Xristian Dini İcmasının birgə təşkil etdiyi konfransda İtaliya, Gürcüstan, Almaniya, Fransa, Kanada, ABŞ və Litvadan albanşünas mütəxəssislərin məruzələri sırasında elmi məclisə Romadan qoşulmuş azərbaycanlı Ləman Bərdəlinin qədim Qafqaz mifologiyası və genetik yaddaşla bağlı mülahizələri elmiliyi, inandırıcılığı, ən əsası isə yeniliyi ilə diqqət çəkib. Araşdırmaçının Qafqaz əfsanələrinin əsas obrazlarından olan Targamosun oğullarını Qafqaz xalqlarının əfsanəvi əcdadları kimi təqdim etməsi regionun ən qədim tarixi ilə bağlı fərqli yanaşmanı əks etdirib.

Məruzəçi Bardos, Movakan, Eros və Lek kimi adların Qafqaz Albaniyası ilə əlaqələndirərək, bu anlayışları təkcə mifoloji deyil, həm də mədəni-etnik rəmz kimi təqdim edib. Ləman Bərdəli soy-kökünün də bağlı olduğu məkanın mənşəyini Bardos obrazında axtararaq, bu adı Qafqaz Albaniyasının tarixi paytaxtı Bərdə şəhərinin əfsanəvi qurucusu kimi təqdim edib.

Vatikan konfransı barədə bu xəbərdə söhbət açılan Bərdəli soyadlı Ləman xanımın kimliyi ilə maraqlanada onun bir vaxtlar İtaliyada çalışmış, xeyli vaxtdır genetik təbabətlə bağlı önəmli fəaliyyətini Türkiyədə davam etdirən, bu sahədə qardaş ölkənin ilk tədqiqat mərkəzini Egey Universitetində qurmuş məşhur soydaşımız professor Afiq Bərdəlinin qızı olduğunu öyrəndik.

Ləman 1989-cu ildə dünya şöhrətli genetikin ailəsində doğulub. İlk təhsilini İzmirdəki İtaliya kraliçası Savoyalı Marqaritanın adına xüsusi təhsil müəssisəsində alıb. Orta təhsilini Türkiyənin nüfuzlu Bornova Anadolu Liseyində başa vuran gənc bakalavr mərhələsini İzmirin Yaşar Universitetində ingilis dili və ədəbiyyatı üzrə keçib. O, Egey Universitetinin magistraturasını incəsənət tarixi ixtisası ilə başa çatdırıb. Roma Sapienza Universiteti tarix, din, antropologiya və incəsənət fakültəsində doktorantura təhsili alaraq “Rəsm əsərinin ritmi” mövzusunda dissertasiya müdafiə edib.

**Bu qısa bioqrafiyanı onlayn söhbətimizdə Ləman Bərdəli özü belə tamamladı:**

– Hazırda incəsənətə neyroestetik yanaşma ilə bağlı tədqiqatlar aparır, praktik fəaliyyət göstərir, elmi və incəsənət jurnallarında müəlliflik edirəm. İtaliyada mədəniyyətlərarası vasitəçilik məqsədilə tərcümə, bələdçilik və incəsənət məsləhətçiliyi xidmətləri göstərən şirkət təsis etmişəm.

**– Belə çıxır ki, Vatikan şəhərində keçirilmiş Qafqaz Albaniyası irsinə həsr edilən beynəlxalq elmi konfransdakı iştirakınız da təsadüf olmayıb...**

– Təbii ki, belədir. Vatikanda keçirilən beynəlxaq konfransda iştirakım bilavasitə bu mərasimin adı ilə bağlı idi: Azərbaycanda xristianlıq. Azərbaycandan çox-çox uzaqlarda səslənən Azərbaycan adından uzaqda durmaq mümkünsüz idi. Digər tərəfdən, Azərbaycanın qədim xristian irsi olan Qafqaz Albaniyasının tarixi və bugünkü etnik-mədəni yaddaşdakı yerinin müzakirə edildiyi bir mərasimdə iştirakım vacib idi.

Uşaqlıqda göy üzündə gördüyüm “Luna”, yəni Ay mənim üçün çox cazibədar idi. Ayın səthindəki kraterlərdən yaranan siluetlər və fiqurlar şəklində yaddaşıma həkk olunan o ilk təsvirlər, sanki, 30 il sonra Azərbaycanın antik tarixi abidəsi olan Qafqaz Albaniyasındakı “Ay məbədi” ilə qarşılaşacağıma öncədən verilmiş işarə idi. Bu mənəvi və mifik əlaqə mənim daxili aləmimdə dərin izlər buraxmışdı.

Ən böyük ilham qaynağım isə atam Afiq Bərdəlinin ana vətəni olan Bərdə ilə tanışlığım, bu şəhərlə qurduğum mənəvi və tarixi bağ oldu. Məhz bu tellər məni dəyərli müəllimlərim – professor Aydın İbrahimov və Çingiz Abdullayevin dəstəyi ilə Vatikanda keçirilən beynəlxalq konqresə aparıb çıxardı.

Mövzu xristianlıq olduğundan mən bu məsələni sırf tarix və ya inanc çərçivəsində deyil, fəlsəfəsi baxımdan təhlil etməyə üstünlük verdim. Çıxışımda günümüzdə dominant mövqe qazanan bəzi xristian məzhəblərindən fərqli, Qafqaz Albaniyasına məxsus olan, daha ilkin və lokal inanc modelinə əsaslanan bir xaçpərəstlik anlayışını müdafiə edirəm. Bu yanaşma, həm tarixi kontekst, həm də inanc sistemlərinin fəlsəfi strukturları baxımından fərqli və aktual bir mövqe təklif edir.

**– Sənin bu yanaşma ölçülərinə ibtidai təhsil aldığın məktəbin təsiri olubmu?**

– Əlbəttə. Tarixi 1887-ci illərə uzanan, İzmir Levantenlərinə təhsil xidməti göstərən, eyni zamanda, dünyəvi təhsil verən və rahibə müəllimlərin dərs dediyi bu məktəbdə ana dili səviyyəsində italyan dilini öyrəndim. Çox kiçik yaşlarımdan “İncil” ilə tanış oldum və onu fəhm ilə, yəni sezgi ilə anlamağa başladım.

Zaman keçdikcə alleqorik oxuma tərzini mənimsədim. Əslində, əlimə alıb oxuduğum ilk kitab “İncil” deyil, Qrimm qardaşlarının və Andersenin nağılları olub. Ardınca Lyuis Kerrollun “Alisa möcüzələr ölkəsində” əsəri məni dərindən təsirləndirdi və ədəbiyyata böyük marağım yarandı. Bu səbəbdən ingilis dili və ədəbiyyatı üzrə təhsil almağa qərar verdim. Lakin incəsənətdən də uzaq qalmaq istəmədiyim üçün bu marağımı onun tarixi ilə birləşdirdim.

**– Vatikanda keçirilən elmi konfransdan sonra erməni cəmiyyəti ciddi çalxalanmalar keçirdi. Kütləvi etirazlar oldu, yenidən tarixi saxtalaşdırmalara baş vurdular…**

– Qafqaz Albaniyasının tarixi ilə bağlı elmi tədqiqatların aktuallaşması bəzi erməni dairələrində narahatlıq doğurur. Bu çalxalanma başadüşüləndir. Həmin dairələr uzun illər boyu bölgənin tarixini özlərinə sərfəli şəkildə təhrif etməyə çalışmış, xüsusilə də Qafqaz Albaniyasına məxsus dini-mədəni irsi erməniləşdirmiş, həyasızcasına mənimsəmişlər.

Lakin bu gün aparılan tədqiqatlar tarixi faktlara əsaslanır və məqsədi təhrif deyil, ədalətin bərpasıdır. Azərbaycan tərəfi hər zaman obyektiv elmi yanaşmanı əsas tutaraq, Qafqaz Albaniyasının irsinin qorunması və tanıdılması istiqamətində fəaliyyət göstərmişdir. Tarixin saxtalaşdırılmasına ehtiyac yoxdur, çünki mövcud elmi sübutlar və mənbələr Azərbaycanın bu sahədəki mövqeyinin haqlı olduğunu təsdiqləyir.

Ermənilərin cəhdləri alternativ elmi yanaşmaların, həqiqətin susdurulmasına və regionun çoxmədəniyyətli tarixinin təhrifinə yönəlib. Tarixi faktlara əsaslanan obyektiv tədqiqatlar, mədəni irsin mənimsənilməsi deyil, əksinə, onun qorunmasıdır. Qədim Qafqaz Albaniyasının varisi hesab olunan alban-udi icmasının mövcudluğu və onların dini-mədəni irsi bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın udi icması bu qədim sivilizasiyanın dil, din və memarlıq sahəsindəki ənənələrini bu günə qədər yaşatmaqda davam edir.

**– Bu məsələdə ermənilər hətta Roma Papasını hədəfə almaqdan belə çəkinmədilər...**

– Erməni dairələrinin Roma Papasına qarşı yönəlmiş əsassız ittihamları və təhqiramiz kampaniyaları tarixi həqiqətlərin ortaya çıxması ilə bağlı artan narahatlığın təzahürüdür. Xüsusilə, Qafqaz Albaniyasının xristian irsi və bu irsin Azərbaycan ərazisində formalaşmış olması faktı bu narahatlığı daha da artırır. Roma Papasının mövqeyini təhrif edərək onu guya ermənilərə qarşı çıxmaqda ittiham etmək, həm dini, həm də etik dəyərlərə ziddiyyət təşkil edir.

Bu yanaşmalar, elmi diskussiyanı emosional və təhqiramiz ritorika ilə əvəzləmə cəhdidir. Halbuki Qafqaz Albaniyasına məxsus dini abidələrin və kilsələrin planlı şəkildə erməniləşdirilməsi, tarixi mənbələr və arxeoloji sübutlarla təsdiqlənmiş bir həqiqətdir. Azərbaycanın bu məsələdə tutduğu mövqe tarixi ədalətin və elmi obyektivliyin bərpasına yönəlib.

Qafqaz Albaniyasının qədim tarixi böyük araşdırma mövzusudur. Fikrimcə, Qafqaz Albaniyası barədə həqiqətlərin tam araşdırılması və dünyaya çatdırılması ilə bərabər, erməni kilsəsi haqqında da bir çox həqiqətlər məlum olacaq. Tarix bizim tərəfimizdədir, biz onu təhrif etmir, olduğu kimi təqdim edirik.

**– Söylədiyiniz tezis doktorantura zamanı və sonrakı elmi araşdırmalarınızda necə inkişaf etdirilib?**

– İxtisas təhsilim çevrəsində müqayisəli incəsənət tarixi, avanqard yaradıcılıq formaları və vizual-audio incəsənətə yönəlmiş neyroestetik yanaşmalar yer alıb. Bu sırada “Gözlərin musiqisi” adlı əsərim bir toxum idi. Mən onu əkdim. O bir fidana çevrildi və sonrakı bütün çalışmalarım böyüyüb bu ağacın meyvələri oldu.

2021-ci ildə Pietro Qonzaqanın 1800-cü ildə irəli sürdüyü “Gözlərin musiqisi” əsərini ingilis dilinə tərcümə edərək oxuculara təqdim etdim. Doktorantura dissertasiyamda Qonzaqanın vizual və eşitmə duyğularını sinxron şəkildə birləşdirmə prinsipini XX əsr avanqard incəsənəti ilə müqayisəli şəkildə təhlil etdim. Bu yanaşmanı “Hər forma bir musiqi ehtiva edir” deyən Kandinskinin fikirləri ilə qarşılaşdırdım və “rəsmin ritmi” anlayışı altında sintez etdim. Sonrakı tədqiqatlarımda bu nəzəriyyəni Leonardo da Vinçinin 2019-cu ildə Lecco şəhərində tapılmış eskizi üzərində konkretləşdirməyə çalışdım.

Bu əsəri seçməyimdə əsas amillərdən biri Leonardo da Vinçinin incəsənət tarixinin istiqamətini dəyişdirən sima olması, digəri isə doktorantura sonrası birlikdə tədqiqatlar apardığım professor Marco Marinacci ilə Leonardonun musiqiçi şəxsiyyəti üzərində xüsusi olaraq dayanmağımız oldu. Əsəri şəxsi kolleksiyalarında qoruyub saxlayan Silvia Gallo və Massimo Mazzolenin apardıqları araşdırmaları əsas götürərək, vizual riyaziyyatı eşidilə bilən bir formaya çevirdim. Beləliklə, konkret kontekstdə “Gözlərin musiqisi”ni yaratmış oldum.

**– Ləman Bərdəlini duyumu düşüncəyə çevirən, tarixi estetika ilə sintez edən orijinal araşdırmaçı adlandırmaq olarmı?**

– Sinestezik yanaşmalarla metafizikaya toxunan bu yolçuluq yalnız incəsənətin deyil, insan qavrayışının sərhədlərini də yenidən müəyyən etməyi hədəfləyir. Romadan Qafqaz Albaniyasına uzanan bu çoxqatlı düşüncə kainatı, keçmişin izlərini intuisiya ilə izləyib, yaddaşın xəritəsində yenidən canlandırmaq cəhdidir.

Digər tərəfdən Qafqaz Albaniyasının qədim mədəniyyəti ilə qurduğum ulusal bağ, bu coğrafiyanın tarixini, sanki, genetik yaddaşımda daşıdığım hissini yaradır və bu mövzu üzərində düşünmək mənə böyük zövq verir. İncəsənət, mədəniyyət, inanc və mifoloji sistemlərin tarix boyu nəsildən-nəslə ötürülməsi, genetik məlumatın hüceyrələr arasında ötürülməsinə bənzədilə bilər. Mən mövzuları hissələrə ayırdıqca, məlumat hər hissədə özünü bir şəkildə təzahür etdirir. Məqsədim qədim irsimizi çağdaş fəlsəfi paradiqmalarla birləşdirərək yeni bir baxış müstəvisi yaratmaqdır.

Bu həm də tarixə və mədəni irsə saygılı bir yanaşma tələb edir. Bu istiqamətdə atılan təşəbbüsləri əngəlləmək və elmi müzakirələri gözdən salmaq cəhdləri sağlam və əsaslı düşüncə ilə uzlaşmır. Belə yanaşmalar, təəssüf ki, açıq dialoqun və akademik inkişafın qarşısını alır, eyni zamanda, obyektiv elmi təhlilə ehtiyac duyulan mövzuların siyasiləşdirilməsinə səbəb olur.

**– Sonda bildirək ki, Vatikandakı çıxışınız konfrans salonunda ciddi maraq doğurduğu kimi, ölkəmizdə də öyünclü əks-səda doğurdu. Romadan qayıdan alimlərimiz bildirdilər ki, sizin araşdırmanız Qafqaz irsinin qlobal elmi müstəvidə tanıdılması baxımından yeni və önəmlidir. İnanırıq ki, sorağınız daha böyük məclislərdən gələcək, zənginləşən elmi karyeranız Azərbaycana şöhrət gətirəcək.**

*Söhbəti apardı:*
*Namiq QƏDİMOĞLU*
*XQ*

## Naxçıvan xəbərləri

### Kəngərli sakinləri ilə görüş

**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Kəngərli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.**



Muxtar respublikanın şəhər və rayonlarında sakinlərlə son vaxtlarda keçirilən çoxsaylı görüşləri xatırladan Fuad Nəcəfli qeyd edib ki, qeydə alınan problemlər və söylənən təkliflər əsasında dövlət proqramı hazırlanıb. Həmin sənəddə muxtar respublikada həyatın bütün sahələrini əhatə edən prioritet istiqamətlər müəyyənləşdirilib və onların hər biri üzrə işlər davam etdirilir. Hazırda su və kənd təsərrüfatı, enerji təhlükəsizliyi, turizm, infrastruktur quruculuğu, təhsil, səhiyyə və digər sahələrdə mühüm layihələr icra edilir.

Səlahiyyətli nümayəndə bildirib ki, Dövlət proqramında Kəngərli rayonunda keçirilən görüşlərdə söylənən mülahizələr də geniş yer alıb. Proqram müddəalarının icra olunmasında da kəngərlililər fəal iştirak edirlər. Fuad Nəcəfli sakinlərin qaldırdıqları cari problemləri və onların təkliflərini dinləyib, rayonun davamlı inkişafı və gələcək perspektivlər barədə fikir mübadiləsi aparıb.

### “Qərbi Azərbaycan irsi” nəşrinin təqdimatı

**Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Qərbi Azərbaycan irsi: “Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair” hesabat və materiallar haqqında kitabın I cildinin təqdimatı keçirilib.**



Mərasimdən öncə iştirakçılar Qərbi Azərbaycan mədəni irsinin tərkib hissəsi olan, erməni vandalizminə məruz qalan azərbaycanlı qəbiristanlıqlarının peyk vasitəsi ilə tədqiqi və monitorinqi nəticəsində əldə olunan fotogörüntülərin nümayiş etdirildiyi ekspozisiyaya ilə tanış olublar.

Kitabın təqdimatında Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev, Qərbi Azərbaycan İcması muxtar respublika nümayəndəliyinin rəhbəri, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Muxtar Respublika Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev və Naxçıvan MR Məclisinin deputatı Bəhruz Məmmədov silsilə nəşrin Qərbi Azərbaycana Qayıdış hərəkatına elmi-ictimai dəstək qazandırılmasında önəmini vurğulayıblar, burada əksini tapan həqiqətlərin geniş yayılmasının vacibliyini qeyd ediblər.

Bildirilib ki, Prezident İlham Əliyevin tövsiyəsi ilə Qərbi Azərbaycan ərazisində xalqımızın yaratdığı dövlətçilik ənənələri, tarixi-mədəni irs, onlara qarşı ədalətsizliklər və cinayətlər haqqında davamlı tədqiqatlar aparılır. “Qərbi Azərbaycan İrsi” kitabı Qərbi Azərbaycanla bağlı tariximizi sənədlərlə, faktlarla, mədəniyyət nümunələri ilə sübut edən qiymətli bir mənbədir.

Sonda “Qərbi Azərbaycan irsi” silsilə nəşri barədə videoçarx nümayiş olunub.

### Sürülər yaylaqlara qaldırılıb

**Bu mövsümdə muxtar respublika üzrə 172 fermer 180 minə yaxın xırdabuynuzlu heyvanı yaylaqlara aparılıb. Sürülər Şərur, Ordubad, Culfa, Şahbuz və Kəngərli rayonlarının yaylaq sahələrində yerləşdirilib. Muxtar respublika üzrə icarə verilmiş yaylaq sahələrinin ümumi həcmi isə 21 min 105 hektardır.**

Bugünlərdə muxtar respublikanın kənd təsərrüfatı naziri Rafail Quliyev Şahbuz rayonunun yaylaqlarında fəaliyyət göstərən fermerlərlə görüşüb, mövcud vəziyyətlə maraqlanıb. Nazirə məlumat verilib ki, yaylaq məskunlaşması baxımından Şahbuz rayonu ilk sıradadır. Hazırda rayonda 90 fermer tərəfindən 100 minə yaxın xırdabuynuzlu heyvan yerləşdirilib.

Görüşlər zamanı otlaq və torpaq sahələrindən səmərəli istifadə, otlaq mühitinin davamlılığının təmin olunması və baytarlıq xidmətlərinin təşkili məsələləri müzakirə edilib. Obalarda yaşayan sakinlərlə fikir mübadiləsi aparılıb, onların təklifləri qeydə alınıb. Eyni zamanda, yaylaq təsərrüfatlarındakı heyvanlara baytarlıq xidmətləri göstərilib, vaksinasiya və dezinfeksiya tədbirləri həyata keçirilib.

Qeyd edək ki, Naxçıvanda heyvandarlıq kənd təsərrüfatının aparıcı sahəsini təşkil edir və ümumi məhsulun 90 faizini əhatə edir. 2025-ci ilin ilk 5 ayında muxtar respublikada 86 milyon 631 min 300 manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilib ki, bunun 78 milyon 64 min 400 manatı heyvandarlığın payına düşür.

*Səbuhi HƏSƏNOV,*
*“Xalq qəzeti”nin Naxçıvan müxbiri*

# BTC Azərbaycan neftini dünya bazarına qovuşdurur

*Ötən müddətdə bu kəmərlə 600 milyon ton neft nəql olunub*



**Azərbaycanın neft strategiyasının təntənəsi olan Bakı – Tbilisi – Ceyhan (BTC) əsas ixrac boru kəmərinin istismara verilməsindən 19 il ötür. Məlum olduğu kimi, 2006-cı il iyulun 13-də Aralıq dənizinin sahilindəki Ceyhan terminalında BTC neft ixracı boru kəmərinin Türkiyə hissəsinin, buradakı yeni dəniz ixrac terminalının və bütövlüklə, BTC ixrac boru kəməri sisteminin rəsmi açılış mərasimi keçirilib.**

Mərasimdə Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Gürcüstanın Prezidenti Mixail Saakaşvili və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, eləcə də yüksək vəzifəli hökumət və dövlət rəsmiləri, BTC-nin səhmdar şirkətlərinin baş icraçı direktorları və işgüzar dairələrin nümayəndələri iştirak ediblər.

Ölkəmizi Cənubi Qafqazın lider dövlətinə çevirən Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəmərinin ideya müəllifi isə ümummilli lider Heydər Əliyevdir. Məlum olduğu kimi, Ulu öndərin işləyib hazırladığı yeni neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin etibarlı, şaxələndirilmiş ixrac boru kəmərləri sistemi ilə dünya bazarına nəqli ilə bağlı idi. Xam neftin dünya bazarına çatdırılması üçün əsas ixrac marşrutu kimi Bakı – Tbilisi– Ceyhan kəmərinin seçilməsi ilk dəfə 1998-ci il aprelin 26-da Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin Trabzon görüşündə dəqiqləşdirilib. Bu, həm də sözügedən kəmərin reallaşmasına dair son siyasi qərarın verilməsi demək idi.

Həmin il oktyabrın 29-da isə Ankarada Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistan prezidentləri, eləcə də ABŞ-ın energetika naziri tərəfindən Bakı – Tbilisi – Ceyhan marşrutu ilə əsas ixrac kəmərinin çəkilməsi ideyasını müdafiə edən Ankara Bəyannaməsinin imzalanmasıyla bu layihəyə dair ilkin razılaşma əldə olunub. Ulu öndər Heydər Əliyev imzalanma mərasimindəki çıxışında səsləndirdiyi "Mən BTC-nin böyük gələcəyinə inanıram. İnanıram ki, bu neft borusunun tikilməsi və ondan gələcəkdə istifadə edilməsi ölkələrimiz arasında dostluq, əməkdaşlıq, qardaşlıq əlaqələrini daha da yüksəklərə qaldıracaq" fikri isə "Üç dənizin əfsanəsi" adlandırılan layihəyə verilmiş ən yüksək qiymət idi.

Növbəti illərdə Heydər Əliyevin siyasi iradəsi sayəsində həmin layihəni maraqlı tərəflərlə uzlaşdırmaq, razılaşdırmaq, beynəlxalq güc mərkəzlərinin dəstəyini qazanmaq, nəhayət, onu imzalamaq mümkün olub. Nəhayət, Ümummilli liderin qətiyyəti sayəsində "Bakı – Tbilisi – Ceyhan" layihəsi həyata vəsiqə alıb. Belə ki, ATƏT-in 1999-cu il noyabr ayının 18-də İstanbulun "Çırağan" sarayında "Xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə respublikalarının ərazilər ilə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında saziş" imzalanıb. Bununla da, "Üç dənizin əfsanəsi" adlandırılan və minilliyin ən böyük neft ixracı marşrutlarından sayılan Bakı – Tbilisi –Ceyhan layihəsinin reallığa çevrilməsi üçün hüquqi baza yaradılıb.

Sentyabr ayının 18-də isə Bakıda, Səngəçal terminalının ərazisində Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları Heydər Əliyev, Eduard Şevardnadze və Əhməd Necdət Sezərin iştirakı ilə Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyulub. Kəmərin inşası üçün tanınmış podratçı şirkətlə müqavilə imzalandıqdan sonra 2003-cü ilin aprel ayında tikinti işlərinə başlanılıb.

Ulu öndər Azərbaycan neftinin Bakı – Tbilisi – Ceyhan boru kəməri ilə dünya bazarlarına çıxarılmasını görə bilməsə də, müəllifi olduğu bu nəhəng enerji layihəsi onun siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin gərgin və məqsədyönlü fəaliyyəti nəticəsində reallığa çevrildi. Təsadüfi deyil ki, İlham Əliyev Azərbaycanın Baş naziri kimi fəaliyyətinin ilk günlərində, 2003-cü il avqustun 11-də BTC əsas ixrac neft boru kəmərinin Azərbaycan hissəsində, Bakı yaxınlığındakı Umbakı ərazisində aparılan tikinti işləri ilə tanış olaraq tövsiyə və tapşırıqlarını verib.

2004-cü il fevralın 3-də isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Bakıda "Gülüstan" sarayında BTC ixrac boru kəmərinin tikintisinin maliyyələşdirilməsi üçün layihənin son maliyyələşmə sənədləri paketi imzalanıb. Həmin il oktyabrında Azərbaycanın Ağstafa rayonunun Böyük Kəsik kəndində, Gürcüstanın Qardabani rayonu ilə sərhəddə BTC kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsi mərasimi keçirilib. "Qızıl qaynaq" adlanan bu mərasimdə hər iki ölkənin dövlət başçıları kəmərin Azərbaycan və Gürcüstan hissələrini rəmzi olaraq qaynaqlayaraq birləşdiriblər.

2005-ci il mayın 10-da ulu öndər Heydər Əliyevin doğum gününə hədiyyə olaraq Səngəçal terminalındakı BTC baş nasos stansiyasının neftlə doldurulmasına start verilib. Ayın 25-də isə terminalda Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçılarının iştirakı ilə keçirilən mərasimdə neftin BTC-yə vurulmasına başlanılıb. Həmin gün burada quraşdırılmış xüsusi qurğudakı sürgü açıldıqdan sonra kəmərlə ilkin neft axmağa başlayıb. Oktyabrın 25-də isə kəmərin Gürcüstan hissəsinin istifadəyə verilməsi münasibətilə bu ölkənin Qardabani rayonunda yerləşən 1 nömrəli nasos stansiyasının ərazisində təntənəli mərasim keçirilib.

BTC kəməri ilə nəql edilən xam neft 2006-cı il mayın 28-də Türkiyənin Ceyhan terminalına çatıb. XXI əsrin ən böyük enerji layihələrindən sayılan Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi isə iyulun 13-də Türkiyənin Ceyhan şəhərində keçirilib. Prezident İlham Əliyev mərasimdə geniş nitq söyləyərək deyib: "Bakı-Tbilisi-Ceyhan bizim müstəqilliyimizi möhkəmləndirəcək, enerji müstəqilliyimizi təmin edəcəkdir. Belə olan halda, biz müstəqil siyasət apararaq, xalqlarımızın rifah halını yaxşılaşdıracağıq, milli maraqlarımızı daha da inamla müdafiə edəcəyik... Bir sözlə, bu, strateji əhəmiyyət daşıyan, ölkələrimizin müqəddəratını təmin edən, xoşbəxt gələcəyini təmin edən layihədir".

Xəzər regionundan dünyaya qapı açan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri hazırda Azərbaycanla yanaşı, bir sıra ölkələrin enerji təhlükəsizliyinin təminatına mühüm töhfələr verir. Təkcə onu qeyd etmək kifayətdir ki, 1768 kilometr uzunluğunda olan BTC boru kəməri 2006-cı ilin iyul ayında istismara veriləndən 2025-ci ilin birinci rübünün sonunadək, ümumilikdə, 598 milyon ton (4,5 milyard bareldən çox) xam neft nəql edib. Həmin neft həcmləri Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan limanında 5932 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

# Davamlı aqrar inkişaf kəndin simasını dəyişir

*Artan güzəştli kreditlər bu prosesi sürətləndirir*

**Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi cari ilin ilk 5 ayında kənd təsərrüfatının inkişafı məqsədilə 2322 müraciət üzrə 42,8 milyon manat güzəştli kredit verib. Nazirliyin məlumatına əsasən, bunun 35 milyon manatı texnika və avadanlıq təyinatlı, 7,8 milyon manatı isə digər təyinatlı kreditlərdir.**

Bundan başqa, hesabat dövrü ərzində agentlik 1376 baş damazlıq iribuynuzlu heyvanın alışına 3,6 milyon manat, habelə kənd təsərrüfatı texnikası və avadanlıqlarının alışına isə 49,9 milyon manat güzəşt vəsaiti ayırıb.

regionlarda məşğulluğu artırır və kənd yerlərində sosial rifahı yüksəldir. Hazırda ölkədə 50-yə yaxın aqropark fəaliyyət göstərir və onların fəaliyyəti davamlı kənd təsərrüfatı modelinə keçidi sürətləndirir.

Suvarma sistemlərinin yenidən quru-



Həmçinin 5 ay ərzində ölkədə 4340 ədəd kənd təsərrüfatı texnikası lizinqə verilib. Ümumilikdə 2005-ci ilin əvvəlindən 2025-ci ilin mayın sonuna qədər ölkədə 92919 ədəd kənd təsərrüfatı texnikası lizinq yolu ilə əldə olunub ki, bunun da 1412-si taxılyığan kombayn, 222-si pambıqyığan kombayn, 20804-ü traktor, 70481-i isə digər texnikalardır.

Bütün bunlar deməyə əsas verir ki, Azərbaycanın iqtisadi inkişaf strategiyasında kənd təsərrüfatı sektoru mühüm yer tutur. Bu sahə həm ərzaq təhlükəsizliyinin təmin olunması, həm də regionların sosial-iqtisadi inkişafı baxımından həlledici əhəmiyyətə malikdir. Son illərdə dövlətimizin başçısının müdrik siyasəti nəticəsində aqrar sahənin modernləşdirilməsi, məhsuldarlığın artırılması və ixrac imkanlarının genişləndirilməsi istiqamətində mühüm addımların atılması da kənd təsərrüfatının inkişafını sürətləndirir.

Əsas hədəflərdən biri kənd təsərrüfatının texnoloji əsasda inkişaf etdirilməsidir. Bu məqsədlə müasir texnikaların və rəqəmsal həllərin tətbiqi genişlənir, elektron kənd təsərrüfatı sistemləri formalaşdırılır. Aqrotexniki xidmətlər, subsidiyalaşdırma və sığorta mexanizmləri təkmilləşdirilərək fermerlərin riskləri minimuma endirilir və daha səmərəli fəaliyyət göstərmələrinə şərait yaradılır.

Son illərdə Azərbaycanın müxtəlif bölgələrində aqroparkların yaradılması da bu sahədə əsas təşəbbüslərdən biri kimi çıxış edir. Aqroparklar nəinki yüksək məhsuldarlığa və innovativ yanaşmalara əsaslanan təsərrüfatlar formalaşdırır, eyni zamanda,

ması da strateji məsələlərdən biridir. Xüsusilə iqlim dəyişiklikləri və su resurslarının məhdudluğu fonunda suyun səmərəli istifadəsi vacib amilə çevrilmişdir. Dövlət bu istiqamətdə iri infrastruktur layihələrinə, o cümlədən müasir irriqasiya sistemlərinin qurulmasına böyük investisiyalar yönəldir.

Bundan əlavə, kənd təsərrüfatı məhsullarının ixrac imkanlarının artırılması da ön plandadır. "Made in Azerbaijan" brendi altında kənd təsərrüfatı məhsullarının dünya bazarına çıxarılması üçün logistika imkanları təkmilləşdirilir, beynəlxalq sərgilərdə iştirak genişləndirilir və ixracatçılara dövlət dəstəyi gücləndirilir.

Kənd təsərrüfatının rəqəmsallaşdırılması da xüsusi əhəmiyyət daşıyır. Elektron kənd təsərrüfatı informasiya sistemi dronların istifadəsi, peyk monitorinqi və torpaq resurslarının xəritələndirilməsi bu sahədəki yeniliklərdəndir. Bu vasitələr fermerlərə daha dəqiq planlama və qərarvermə imkanı yaradır.

Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, kənd təsərrüfatı ölkənin qeyri – neft sektorunda aparıcı sahələrdən biri kimi prioritet olmalıdır. Bu baxımdan, dövlətin institusional dəstəyi, hüquqi bazanın təkmilləşdirilməsi və təhsil – tədqiqat sisteminin gücləndirilməsi ilə kənd təsərrüfatının daha da inkişaf edəcəyi şübhəsizdir.

Ümumilikdə, Azərbaycanda kənd təsərrüfatı sahəsində həyata keçirilən islahatlar və innovativ yanaşmalar bu sahənin dayanıqlı inkişafını təmin edir. Bu isə həm milli ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsini, həm də ölkənin ixrac potensialının artırılmasını şərtləndirir.

# Magistral kəmərlər 20 milyard kubmetr qaz ötürüb



**Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bu ilin I rübündə Azərbaycanın magistral kəmərləri ilə 20 milyard kubmetr qaz nəql olunub. Qaz nəqlinin 55,5 faizi Bakı – Tbilisi – Ərzurum Cənubi Qafqaz boru kəməri ilə həyata keçirilib.**

Qeyd edək ki, adıçəkilən boru kəməri vasitəsilə "Şahdəniz" qaz-kondensat yatağından hasil olunan qaz ixrac edilir. Hesabat dövründə bu infrastrukturla 11 milyon 236 min kubmetr qaz ötürülüb.

Xatırladaq ki, ötən il Azərbaycanda magistral qaz kəmərləri ilə 40 milyon 348 min kubmetr qaz nəql edilib və əvvəlki ilin göstəricisinə nisbətən 2,7 faiz artım müşahidə olunub. Qaz nəqlinin 56,6 faizi Bakı – Tbilisi – Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilib. Hesabat dövründə bu kəmərlə 22 milyon 852 min kubmetr (illik müqayisədə 4,3 faiz çox) qaz ötürülüb.

# Bakıda Milli Biznes Forumunun sessiyası

**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin dəstəyi, Azərbaycan Milli Biznes Assosiasiyası və "Caspian Energy Club"ın birgə təşkilatçılığı ilə Milli Biznesin İnkişafı Forumunun xüsusi sessiyası keçirilib. Toplantıda qida, yükdaşıma və logistika, tikinti, informasiya texnologiyaları və digər sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektləri iştirak ediblər.**

Dövlət – özəl sektor əməkdaşlığının gücləndirilməsi, biznes mühitindəki aktual məsələlərin müzakirə edilməsi və qarşılıqlı əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsinin aparıldığı sessiyada Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırov və "Caspian Energy Club"ın sədri və qrupun baş icraçı direktoru Telman Əliyev açılış nitqi ilə çıxış ediblər. Forumun dövlət qurumları ilə biznes ictimaiyyəti arasında dialoqu gücləndirərək tənzimləyici strukturlarla qarşılıqlı etimada əsaslanan effektiv əməkdaşlıq mühiti yaratdığı qeyd edilib. Həmçinin ölkədə sağlam və rəqabətli biznes mühitinin formalaşdırılması, keyfiyyət infrastrukturu, dövlət satınalmaları və istehlakçı hüquqlarının müdafiəsi istiqamətində görülən işlər və yeniliklər diqqətə çatdırılıb. Həyata keçirilən tədbirlərin sahibkarlara təqdim etdiyi imkanlar və dövlət-özəl tərəfdaşlığı çərçivəsində qurulan əməkdaşlıq mexanizmləri barədə məlumat verilib, sahibkarlarla birbaşa dialoqun



əhəmiyyəti vurğulanıb.

Panel müzakirələri çərçivəsində sahibkarların sualları cavablandırılıb, irəli sürülən təkliflərə dair fikir mübadiləsi aparılıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Həsən bəy Zərdabi – sönməyən məşəl

**“Şərqi xilas və tərəqqi etdirəcək insanlar Şərqin içərisindən çıxmalıdır!” – Kazan Universitetinin Şərqşünaslıq bölümünün qurucusu, mütəfəkkir alim Mirzə Kazım bəy bu fikri Peterburq Universitetində çarın hüzurunda çıxış edən zaman səsləndirib.**

Həmin aralarda Mirzə Fətəli Axundzadə, Abbasqulu Ağa Bakıxanov, Hacı Zeynalabdin Tağıyev, Nabat xanım Aşurbəyova, Həbib bəy Mahmudbəyov qüdrətli şərqşünas-filosofun səsinə səs verdilər. Həsən bəy Zərdabi də o sırada idi. O Həsən bəy Zərdabi ki, azərbaycançılıq məfkurəsinin zəminini hazırlayıb, təməl prinsiplərini müəyyən edənlərdən olub. O, zülməti yaran Rusiyada ilk türkdilli mətbuatın qurucusu, ilk qız məktəbinin ideya müəllifi, Müəllimlərin I Qurultayının həmsədri, Bakı Dumasının 28 azərbaycanlı deputatından biri idi. Əlimərdan bəy Topçubaşovun dili ilə desək: “Azərbaycanın mayakına, məşəlinə dönən” Həsən bəy Zərdabinin adı da, özü də, varlığı da mənsub olduğu millətə Tanrıdan tale payı sayılır.

## General Fərəc bəy Ağayev Zərdabinin taleyində

Həsən bəy Səlim bəy oğlu Məlikov 1837-ci il iyunun 28-də Bakı quberniyasının Göyçay qəzasının Zərdab kəndində mülkədar ailəsində dünyaya gəlmişdi. İlk təhsilini də elə burada, Zərdabda mədrəsədə almışdı. Ərəb, fars dilini mənimsəmişdi. Atası oğlunun fitri istedadını nəzərə alıb onu, rusca dünyəvi təhsil verən Şamaxı qəza məktəbinə gətirmişdi. 1852-ci il kiçik Zərdabinin böyük dünyasına elmi-irfanın paytaxtı, şairlərin, ustad sənətkarların diyarı Şamaxıda qapı açmışdı.

Həsən bəyin biliyi, nitqi, dünyəvi elmləri qavrama qabiliyyəti məktəbi bitirmək üçün verdiyi imtahan zamanı Qafqaz Təhsil Komissiyasının müdiri baron Nikolayın diqqətini çəkmiş, onun dövlət təqaüdü ilə Tiflisə göndərilməsini təklif etmişdir. Bu ərəfədə atası vəfat edən Zərdabiyə böyük qardaşları Tiflisə getməyə icazə verməmişdilər. Atasının Tiflisdə yaşayan dayısı general Fərəc bəy Ağayev məsələyə müdaxilə edərək, Zərdabini Tiflisə gətizdirmişdir. Fərəc bəy Ağayevin iradəsi, baron Nikolayın diqtəsi ilə Həsən bəy Zərdabinin taleyi dəyişmişdi.

Fərəc bəy olmasaydı, Zərdabi kim olacaqdı – bilmirik, amma Zərdabi olmasaydı, müsəlmanların taleyində mühüm rol oynayan Xeyriyyə Cəmiyyəti qurulmayacaqdı. Hacı Zeynalabdin Tağıyevin millət quruculuğu yolunda gerçəkləşdirdiyi layihələrin ideya müəllifi olmayacaqdı. Cümhuriyyət qurucularının baş ideoloqu da doğulmayacaqdı. İlk peşəkar teatrın təsis olunmasından, Şərqin ilk anadilli mətbu orqanının qurulmasından da söz getməyəcəkdi. Həsən bəy məktəbi, mətbuatı, teatrı milli dirçəlişə, intibaha, cəhalətdən qurtuluşa, əbədi istiqlala körpü bildi, “Millət qalan, qalan hər şey yalan!” nidası ilə qələm çaldı.

## Vətən çağırır

Həsən bəy Zərdabi general Fərəc bəy Ağayevin iradəsi ilə Tiflisə, Qafqazın mədəni mərkəzinə qədəm qoyanda cəmi 21 yaşı var idi. I Tiflis Məktəbinin V sinfinə qəbul olmuşdu. 1861-ci ildə buranı bitirəndən sonra yenə də dövlət təqaüdü ilə Moskva Universitetinin fizika-riyaziyyat fakültəsində təbiət elmləri üzrə təhsil almağa göndərilmişdi. 1865-ci ildə buranı fərqlənmə diplomu ilə başa vurdu. Türk və müsəlman olmasına baxmayaraq Böyük Elmi Şura onun universitetdə saxlanılması haqqında qərar çıxarmışdı. Darvin nəzəriyyəsini mükəmməl bilən bir elm fədaisi kimi bəlkə də, onu qarşıda daha böyük uğurlar gözləyirdi. O, Həsən bəy idi. Ən böyük nailiyyətini millətə xidmətdə görür, tərəddüd etmədən Elmi Şura üzvləri qarşısında bir məzun kimi sonuncu tarixi nitqini edirdi: “Mənim xalqın bu saat qəflət yuxusundadır, cəhalət girdabında boğulur, mənim kimi adam bunu görüb onlardan ayrı qala bilməz!”

## İlk gimnaziya müəllimi

M.V.Lomonosov adına Moskva Universiteti bütün zamanlarda, elə indinin özündə də dünyanın nüfuzlu elmi-tədris mərkəzidir. Həsən bəy bu elm məktəbində təkcə bir fizik, riyaziyyatçı, bioloq, təbiət elmləri üzrə ciddi mütəxəssis kimi yetişmədi. O, bu möhtəşəm elmi mərkəzdə darvinist alimlərlə yanaşı, tarixçi Solovyov, yazıçı-publisist Pleşeyevlə dostlaşdı. Rus maarifçilik hərəkatının mogikanları ilə tanış oldu. Tiflisin mədəni-siyasi mühitində Bestujev–Marlinski kimi inqilabçılarla tanışlıq Mirzə Fətəli Axundzadənin ruhunda inqilab etdiyi kimi, Solovyov və Pleşeyevlə dostluq da Həsən bəy Zərdabinin düşüncəsində intibahın rüşeymlərini cücərtdi.

Təhsilini başa vurduqdan sonra öncə Tiflis Torpaq İdarəsində çalışan Həsən bəy 1868-ci il fevralın 28-dən oktyabrın 4-dək Qubada məhkəmə katibi, Şamaxıda müstəqil vəkil kimi fəaliyyət göstərdi. Hüquq müdafiəçisinə çevrildi. 1869-cu ildə Bakıya qədəm qoyan, Realnı məktəbində təbiət elmləri üzrə müəllim kimi ruhunu, duyğusunu şagirdlərinin beyninə köçürən Həsən bəy ömrünün sonunadək taleyini bu şəhərlə bağladı. Onun mənəvi-siyasi mənzərəsini dəyişən nüfuzlu dövlət xadimlərinin, məşhur pedaqoqların, Vətənin nicatını elmi-irfanda, milli-mənəvi dəyərlərin qorunmasında görən Bakı əsilzadələrinin öndərinə, silahdaşına çevrildi. Onların fikrinin, düşüncəsinin, ruhunun atası kimi tarix yaratdı.

Bu elə bir dövr idi ki, Həsən bəy Zərdabi təkcə Bakıda, Odlar yurdu Azərbaycanda deyil, bütün Qafqazda fəaliyyət göstərən 10 gimnaziyada çalışan müəllimlər içərisində yeganə azərbaycanlı idi. O, həm də tək və yeganə türk, müsəlman müəllim idi. Tanrı onu ilk ana dili dərsliyinin müəllifi Mirzə Kazım bəyin, ilk əlifba islahatının, Azərbaycan ədəbiyyatı tarixində milli drammaturgiyanın banisi Mirzə Fətəli Axundzadənin, ilk tarix dərsliyini qələmə alan Abbasqulu Ağa Bakıxanovun təməlini qoyduğu milli maarifçilik hərəkatının tavanı olaraq göndərmişdi. Mücadilə etmək, mücahid ömrü sürmək, qələmini süngüyə çevirmək onun Tanrıdan tale payı, alın yazısı idi.

Bununla da onun həyatında yeni dövr – maarifçilik, xalqın savadlanması, ana dilində təhsil uğrunda mübarizə mərhələsi başlayır, problemin çətinliyi onda idi ki, gimnaziyalarda olan müəllimlərin içərisində azərbaycanlı yox idi. Azərbaycanlı şagirdlər də yox dərəcəsində idi. Bununla da, Həsən bəy azərbaycanlı uşaqları məktəbə cəlb etmək üçün xalq içərisində təbliğat aparmağı qarşısına məqsəd qoyur. Müsəlmanlar arasında ilk dəfə 1872-ci ildə Bakıda “Cəmiyyəti – Xeyriyyə”ni qurur.

## 40 yaşlı hambal qazancını Zərdabiyə niyə verdi?

Həsən bəy Zərdabi mülkədar oğlu idi. Atası Səlim bəyin iri torpaq sahələri, karvansaraları əvəz edən dükanları, Kürdə balıq vətəgələri var idi. Dünyasını dəyişməzdən əvvəl malikanəsini, əmlakını oğulları öz aralarında bölüşdürmüş, Zərdabinin də payını ayırmışdılar. Buna baxmayaraq, o, hüzur dünyasını millətə təmənnasız xidmətdə bulmuş, “Xeyriyyə cəmiyyəti”ni qurmaqla imkansız ailələrin uşaqlarını, gözüaçıq balalarını təhsilə cəlb etməyi, onların gözündən cəhalətin pərdəsini qaldırmağı qarşısına məqsəd qoymuşdu. 1872-ci ilin bütün yayını qızmar günəş altında Azərbaycanın şəhər və kəndlərini dolanaraq rəsmi dəftərlə “Cəmiyyəti-xeyriyyə”yə üzv yazdırmaqla məşğul olmuşdu.

Həsən bəy Zərdabi bu sonsuz sevgisini, ilahi eşqini M.V.Lomonosov adına Moskva Universitetini fərqlənmə diplomu ilə bitirəndə, ona hüdudları məlum olmayan ilk məhəbbətdən imtina edəndə sübut etmişdi. “Mənim xalqım qəflət yuxusundadır, cəhalət girdabında boğulur, mənim kimi adam bunu görüb onlardan ayrı qala bilməz!” nidası ilə vətəndaş mövqeyini sərgiləmiş, fədai taleyini seçmiş, mücahid ömrünü millətə həsr etmişdi. Şama pərvanə könlünü məşələ, çırağa çevirmiş, simurq quşuna dönüb hər gün bir lələyini oda vermiş, millətin dirçəlişi, cəhalətdən qurtuluşu üçün külə dönmüş, külündən dirilmişdi. O, millətinə düz bildiyi, doğru bildiyi yolu göstərmiş, məşhur simaların, ağaların, bəylərin, mülkədarların, neftxudaların, kəndxudaların qapısından əliboş dönəndə, etinasızlıq görəndə inamını, son ümidini itirməmişdir.

Xahiş etmək, qapı döymək Həsən bəyə nə qədər ağır gəlsə də, qəlbini sındırıb incitsə də, geri çəkilməmişdi. Deyirlər ki, “günlərin birində hər yerdən əli üzülən Həsən bəy əldən düşmüş halda Bakı küçələrində çarəsiz gəzirmiş. Yox cavabları gah soyuq nəzakətlə, gah da istehzalı gülüşlə olurmuş. Bəziləri xahişə gələn bu ziyalını inandırmağa çalışırmış ki, onun xahişi mənasızdır…

Həsən bəy “bu qızıl yuvalardan” çıxıb küləkli Bakı küçələrində “xeyirxahların” ona münasibətini düşünə-düşünə dolaşırmış. Birdən kiminsə onun qoluna toxunduğunu hiss edir. Başını qaldıranda qarşısında bir hambalın durduğunu görür. Hambalın 40-a yaxın yaşı olarmış. Günəşdən yanan üzü bürünc rəngdəymiş. Kürəyində palan, ayağında çarıq olan hambal Həsən bəyə sevgi ilə baxırmış, üzündə də utancaq, çəkingən bir təbəssüm varmış. Hambal: “Eşitmişəm bizim uşaqları oxutmaq üçün pul yığırsan. Mən bir az pul qazanmışam. Budur, götür. Bilirəm, azdır, amma ürəkdəndir”, – deyir. Həsən bəy təəccübdən donub qalır. Bir xeyli danışa bilmir. Nəhayət, hambalın əlini sıxıb: “Çox sağ ol, dostum! Sən mənə o qədər pul verdin ki, onu mən həyatımda heç kimdən almamışam. Çünki sən nəyin varsa, hamısını verdin”, – deyir və hambalın pulunu özünə qaytarır.

## “Əkinçi” – Rusiyada ilk türk qəzeti

Məqsədinə çatmaq, Bakıda türk dilində qəzet açmaq üçün Həsən bəy Məlikov öncə Tiflisə Çar Canişinliyinə, sonra isə Bakı Şəhər Qubernatorluğuna müraciət edir. Uzun sürən yazışmalardan sonra Şərqin, Türk dünyasının, Odlar Yurdu. Azərbaycanın ilk mətbu orqanı “Əkinçi”nin nəşrinə icazə verilir. Rusiyada ilk türk dilli mətbu orqan olan “Əkinçi”nin nəşri üçün Həsən bəy Zərdabi ömrünün sonuna qədər Bakı qubernatoru Staroselskiyə minnətdar olmuşdu. Zərdabinin taleyini dəyişən üçüncü tarixi şəxs – Staroselski “Əkinçi”nin senzura məsələsini öz üzərinə almış, qubernatorluğun mətbəəsində çapına icazə vermişdi. Bakının, bütövlükdə isə Azərbaycanın ictimai-siyasi həyatında mühüm yer tutan Qubernator Staroselski 2 il sonra Azərbaycanda ilk rus-tatar məktəbinin qurucuları Həbib bəy Mahmudbəyovun və Sultan Məcid Qənizadənin müraciətini qəbul edəcək, onların ən böyük arzusunun gerçəkləşməsi üçün şərait yaradacaqdı…

“Əkinçi” qəzeti cəmi 2 il fəaliyyət göstərdi. 56 nömrəsi 1000 tirajla işıq üzü gördü. Şərqin, Türk dünyasının, Azərbaycanın ilk ana dilli mətbu orqanı olaraq milli mətbuatı, milli məfkurənin təməl prinsipinə çevrildi. 1975-ci il iyulun 22-də işıq üzü görən “Əkinçi”nin nüfuzlu mətbu orqana çevrilməsi üçün Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani, Məmmədtağı Əlizadə Şirvani, Seyid Əzim Şirvani, Güney Azərbaycandan Əhsənül Qəvaid, Dərbənddən Heydəri kimi qələm sahibləri əllərindən gələni əsirgəmədilər. “Vəkili-namələmi-millət” imzası ilə məqalələrini “Əkinçi”yə ünvanlayan Mirzə Fətəli Axundzadə qəzetin xeyirxahlarından idi. Bütün çətinliklərə, maddi sıxıntılara, mühafizəkar qüvvələrin hücumlarına baxmayaraq, Həsən bəy Zərdabi onu qoruya bildiyi yerə qədər yaşatdı.

Millətin cəhalətdən qurtuluş yoluna körpü olan “Əkinçi”yə təzyiqlər təkcə “sapı özümüzdən olan baltalardan” gəlmirdi. Qara yellər həm də Peterburqdan, Tiflisdən, Qafqaz Canişinliyindən, Bakı Qubernatorluğunu yoldan edən erməni millətçilərindən gəlirdi. Bu torpaqların tarixi sakinlərinin oyanışına, qəflətdən qurtuluşuna, milli məfkurədən milli dövlətçiliyə uzanan yoluna körpü olan “Əkinçi”nin bağlanması üçün bütün qara qüvvələr səfərbər olunmuşdu. “Şapkalı rus”, “Sünni Həsən bəy” adı ilə damğalanan Həsən bəy Zərdabiyə təzyiqlər dayanmadıqca, onun üzərinə yeriyənlərin sayı çoxalırdı. “Əkinçi” belə bir çətin şəraitdə bağlandı, qəzetin redaktoruna heç yerdə iş verilmədi.

Zərdabi məcbur olub ata-baba yurduna köçdü. Zərdabi ömür-gün yoldaşı, silahdaşı Hənifə xanım Abayeva-Məlikova və 4 övladı ilə birlikdə, nə az, nə çox düz 16 il sürgün həyatı yaşadı. Yerli ruhanilərin, mühafizəkarların, erməni daşnaklarının təhdid və təzyiqlərinə tabladı. Sürgündə belə millətin cəhalətdən qurtuluşu üçün qələm çaldı. Tiflisdə, Bakıda çıxan qəzetlərdə elmi-publisistik məqalələrlə çıxış etdi. Hənifə xanımın Zərdabda qurduğu ilk Türk-müsəlman Qadın Məktəbinə dəstək verdi, yerli əhalinin kənd təsərrüfatı işlərinin yüngülləşdirilməsi üçün bioloq alim kimi maarifçilik məsələlərini yerinə yetirdi, məsləhət ünvanı oldu.



## Bakı Dumasının deputatı

Həsən bəy1896-cı ildə övladlarının böyüməsi, təhsil məsələlərinin şəhərdə davam etdirilməsi, ən əsası “Kaspi” qəzetini mətbəəsi ilə birlikdə satın alan Hacı Zeynalabdin Tağıyevin çağırışı, Çar Rusiyasındakı hakimiyyət dəyişikliyi ilə bağlı Bakıya döndü. Milli mətbuatın qurucusu “Kaspi” qəzetinin redaktoru, yetirmələrindən biri hüquqşünas – jurnalist Əlimərdan bəy Topçubaşova müavin təyin olunaraq, ustad-şəyird müqəddəsliyi yaşamağa başladı. Bakıya dönüş, onun ictimai fəaliyyətinin siyasi fəaliyyətlə əvəz olunmasına rəvac verdi.

Bakı əsilzadələrinin iradəsi, Hacı Zeynalabdin Tağıyevin diqtəsi ilə Həsən bəy Zərdabi Bakı Şəhər Dumasına seçildi. Həsən bəy 28 qlasnıdan biri idi. İki qlasnı-deputat Dumaya başçılarını itirmiş ailələrin qəyyumu olaraq seçilmişdilər. Onun biri, ilk rus-tatar oğlan məktəbinin qurucusu Həbib bəy Mahmudbəyov, digəri isə ilk milli mətbuatın – “Əkinçi”nin qurucusu Həsən bəy Zərdabi idi. Hər ikisi Dumada təhsil və maarif məsələlərinə baxır.

Bu iki tarixi şəxsiyyətin, qüdrətli simanın fəaliyyəti illərində ölkənin təhsil siyasəti ilə bağlı mühüm layihələr gerçəkləşdi, məktəblər, kitabxana və qiraətxanalar quruldu. “Nicat” Xeyriyyə Cəmiyyətinin dəstəyi, Hacı Zeynalabdin Tağıyevin, Təzəpir məscidinin axundu Ağa Əlizadənin diqtəsi, Nəriman Nərimanovun, Üzeyir bəy Hacıbəyovun qayğısı, Həbib bəy Mahmudbəyovun və Həsən bəy Zərdabinin iradəsi ilə Müəllimlərin I Qurultayı keçirildi.

1906-cı ilə təsadüf edən həmin qurultaydan sonra da, II qurultay keçirildi. Həsən bəy Zərdabi ora ancaq təbrik məktubu ünvanlaya bildi, artıq o, ömrünün son aylarını yaşayır, yataqdan dura bilmirdi. Amma ən böyük arzularından biri də gerçəyə çevrilmişdi. Millətin müəllimləri bir yerə cəm olur, maarif məsələlərini müzakirə edirdilər.

## Tağıyevin mükafatını qız məktəbinə verdi

Həsən bəy Zərdabi qüdrətli publisist, nüfuzlu şəxsiyyət, görkəmli ictimai-siyasi xadim, məğrur insan idi. O, millətini inkişaf etmiş millətlərin sırasında görmək istəyirdi. Məktəbi, mətbuatı, teatr və incəsənəti ona körpü hesab edirdi. Millətin cəhalətdən qurtuluşu üçün məktəbə və müəllimə çıraq kimi baxırdı. O çıraqlardan biri 1917-ci ildə Bakıda Hacı Zeynalabdin Tağıyev tərəfindən şölələndi. Tağıyevin Qız Məktəbi quruldu. Rəsmi sənədlərdə adı Aleksandra Fyodorovna adına Qızlar Məktəbi kimi keçsə də, hər kəs onu Tağıyevin Qız Məktəbi kimi tanıyıb, qəbul etdi.

Bu məktəbin qurulmasında Həsən bəy Zərdabinin xüsusi yeri, rolu və xidmətləri var idi. Həsən bəy nəinki məktəbin nizamnaməsini yazmışdı, onun açılması üçün Çar Rusiyasına, Qafqaz Canişinliyinə, Bakı Qubernatorluğuna məktublar ünvanlamışdı. Tağıyevlə birlikdə qəbullarda olmuşdu. Etinasızlıqlar görsə də, məqsədindən dönməmişdi. Tağıyev məktəbin tikintisi üçün böyük sərmayə yatıraraq Nikolayevski küçəsindən, İsmailliyə binasının yanından torpaq sahəsi götürmüşdü. Binanın layihəsini İsmailliyənin memarı Qoslavskiyə tapşırmışdı.

1917-ci ilin iliq bir payız günündə Tağıyevin Qız Məktəbi qapılarını ilk şagirdlərinin üzünə açmışdı. Açılış törənində ölkənin nüfuzlu şəxsiyyətləri iştirak edirdi. Açılış törənindəki təbrik məktubunu Həsən bəy Zərdabi imzalamış, məktubu Əlimərdan bəy Topçubaşov oxumuşdu. Məktub “Çox yaşa, Zeynalabdin!” nidası ilə bitirdi.

Bütün varlığını millətin maariflənməsinə həsr edən Həsən bəyin adı da, özü də, şəxsiyyəti də Bakı əsilzadələri, xüsusən də Tağıyev üçün əziz idi. Tağıyev açılış törənində məktəbin qurulmasında zəhməti keçən hər kəsə mükafatlar təqdim edir.

Mükafatı alanların sırasında Zərdabi tək və yeganə şəxs idi ki, ondan imtina edir, mükafatı məktəbin ianə-yardım fonduna bağışlayır. Bu, Tağıyevin əmri ilə məktəbin Qəyyumlar Şurasının sədrinə müavin təyin olunan, məktəbin qurulmasında bilavasitə iştirak edən, öncə müəllim, sonra isə müdir kimi tələbə qızların ana sevgisini, müəllim ucalığını qazanan Hənifə xanım Abayeva-Məlikovanın ömür-gün yoldaşına yaraşan ən ali məqam idi. Bir də, axı, həmin gün Tağıyev “Bir oğlana təhsil verməklə təhsilli bir insan qazanırsınız, bir qıza təhsil verməklə isə təhsilli bir ailə!” nidası ilə Zərdabinin ən böyük arzusunu gerçəyə çevirmişdi.

## Cənazəsini göyərçinlər müşayiət etdi ...

Bütün həyatını milli birlik, əbədi dirilik adlı müqəddəsliyə həsr edən, mənsub olduğu milləti milli mətbuatdan milli məfkurəyə, milli məfkurədən milli dövlətçiliyə yol gətirən, Cümhuriyyət qurucularının mənəvi atası kimi tarix yaradan Həsən bəy Zərdabi qürur dolu tərcümeyi-halı, möhtəşəm vida mərasimi ilə belə tarixin canlı salnaməsinə çevrilir. O dövrü xatırlayan insanlar, böyük qələm sahibləri söyləyirlər ki, Zərdabinin vida mərasimində iynə atsan, yerə düşməzdi. On minlərlə insan Bakı küçələrinə axışıb onun cənazəsini sonsuz ehtiram hissi ilə Bibiheybət məzarlığına yola salırmış. Bu azmış kimi, sanki, Bakıda göyərçin qalmayıbmış, ağ göyərçinlər müqəddəs ruha, mələyə dönüb Zərdabinin cənazəsini müşayiət edirmiş.

## “Müqəddəs Anna” qızıl medalını yaxasına taxmadı

Həsən bəy 1907-ci ildə Bibiheybət pirində torpağa verildi. 30 il sonra, 1937-ci ilin dəhşətli repressiyaları zamanı Şura hökuməti Azərbaycanda bütün dini abidələri məhv edir, onları kulublara, mədəniyyət evlərinə çevirir. Din xadimlərini sürgünə göndərir, yerində güllələyir, dini kitabları oda, atəşə qalayır. Taleyin sərt üzünün qurbanı olan Bibiheybət piri dağıdılır. Dağıdılan məzarların içərisində Zərdabinin müqəddəsliyi də vardı. Unudulmaz Hənifə xanım və qızı Qəribsultan xanım Zərdabinin məzarından sümüklərini çıxarır, sandığa yığır, evə gətirib uzun müddətgizlin saxlayır. Üstündən illər ötür, 1957-ci ildə dünyasını dəyişməsindən 50 il keçəndən sonra, Həsən bəy Zərdabinin sümükləri Fəxri Xiyabanda torpağa verilir.

Bu “Şapkalı rus”, “Sünni Həsən bəy” adı ilə damğalanan, bütün həyatını bir qüdrətli Türk-müsəlman olaraq başa vuran, azərbaycançılıq məfkurəsinin təməl prinsiplərini müəyyənləşdirən, cümhuriyyət qurucularının baş ideoloqu kimi tarixlə müasirlik arasında körpüyə çevrilən, dövlət idarələrindəki davamlı fəaliyyətinə görə “Müqəddəs Anna” qızıl medalı ilə təltif olunsa da, sadəcə Xaç quruluşunda olduğuna görə onu yaxasına taxmaqdan imtina edən, “Dil kimi din də millətin sütunudur!” nidası ilə yaddaşlara yazılan Həsən bəy Zərdabinin haqqı idi. Ana südü kimi halal haqqı!

O, bu dünyaya mənsub olduğu millətin, məmləkətin Fəxri Vətəndaşı olaraq gəlmişdi. Gəldi, yaratdıqları, qurduqları ilə tarix yaratdı. O tarixin səhifələrinə adını iradənin gücü, xarakterin əyilməzliyi, sonsuz Vətən Sevgisi ilə yazdı!

*Şərəf CƏLİLLİ*

*“Xalq qəzeti” üçün*

# “Deyəsən, dünya bəşəri dəliliyə gedir?!.”

## *Müsahibimiz Xalq yazıçısı Elçin Əfəndiyevdir*

**Ədəbiyyat zamanın nəbzi, mənəvi-mədəni həyatın barometridir. Azərbaycan ədəbi tənqidi msəlləhn əsgər kimi ədəbi prosesi daim izləyir, uğur və qüsurları təhlil süzgəcindən keçirir. Bu baxımdan Xalq yazıçısı Elçinin son dərəcə maraqlı və obyektiv analitik tədqiqatları var. “İstiqlal”, “Şərəf”, “Şöhrət” ordenləri ilə təltif olunmuş ünlü qələm sahibi ilə yazıçı-publisist Əkrəm Qaflanoğlunun söhbəti də elə bu barədədir.**



**– Elçin müəllim, sizin “Aqoniya”, yoxsa təkamül”, “Sosrealizm bizə nə verdi?”, “Söz azadlığı tənqidimizə nə verir?”, “Məsuliyyəti nə üçün janrın boynuna qoyuruq?” və digər geniş analitik tədqiqatlarınız ədəbi prosesə həsr olunub. Ümumiyyətlə, tənqid və ədəbi proses haqqında çox yazmısınız. Bu gün vəziyyət necədir?**

– İlk baxışda bir rəngarənglik var, axır vaxtlar oxuduqlarımı deyirəm: Sadıq Elcanlının, Hədiyyə Şəfaqətin, Ulucay Akifin, Mir Mehdinin, esseləri, hekayələri; çoxlu maraqlı şeirlər və yeni imzalar, qadın tənqidçilər əməlli-başlı bir ədəbi zümrə yaradıb – Elnarə Akimova, Sevda Sultanova, Südabə Ağabalayeva, Mətanət Vahidin məqalələri, Orxan Arazın, Əsəd bəy – Qurban Səid, Bədirxan Əhmədlinin “Əli və Nino”, rəhmətlik Paşa Əlioğlunun orta əsr klassik ədəbiyyatımız, xüsusən, Azərbaycandilli və az tanınan, bəzən isə heç tanınmayan müəlliflər, ədəbi nümunələr haqqında yazdıqları, Hacı Firudinin klassiklərlə bağlı maraqlı və sağlam fikir mübadiləsi üçün münbit ədəbi zəmin yaradan məqalələri, Azər Turanın XIX-XX əsr Azərbaycan və ümumiyyətlə, türk ədəbiyyatı və ictimai fikir nümayəndələrinin şəxsiyyəti və yaradıcılığı haqqındakı məqalələri. Yadıma düşənləri deyirəm. Fəxri Uğurlunun orijinal, bir az da maarifçi yazıları, Təyyar Salamoğlunun Abbas Səhhət, yaxud Məti Osmanoğlunun “Tatar nəğməsi” haqqında yazdıqları maraqlı tədqiqatlar...

Bütün bunlar ədəbi prosesə canlı bir dinamika gətirir, ancaq bax, bu dediklərim və demədiklərim səviyyəsində çağdaş ədəbi təsərrüfata və tənqidə qiymət verən araşdırıcı məqalələrə, istisnalara yox, görümlü və aparıcı təmayülə rast gəlmək mümkündürmü? Yox. Mümkün deyil. Üzdən getmək, yazmaq naminə yazmaq... Qoy, bir misal çəkim. Bizim təcrübəli tənqidçimiz Cavanşir Yusifli çox aktivdir və bu, çox yaxşıdır. Ancaq bax, bir məqaləsi yadıma düşür. Haqlı olaraq ədəbi tənqidi, ədəbi mülahizələri təhlilin dərinlərinə varmağa çağırır və bu, əlbəttə, aktual məsələdir, ancaq təəssüf ki, bəzən özü də üzdən gedir. Misal üçün, Cavanşir müəllim rəhmətlik Zəlimxan Yaqubun şeirlərində “əsas xassə”ni araşdırır. Onun fikrinə görə, nədir bu əsas xassə? Cavanşir müəllimin yazdığına görə, bu əsas xassə intuisiya və improvizasiyadır. Poeziya nədir, Əkrəm? Bədii sözün obrazlaşdırılması deyil? Füzulidən tutmuş, Əli Kərimə qədər... Əgər bədii söz obrazlı şəkildə deyilirsə, bu improvizasiya sayəsindədir də, elə deyilmi?

Dünyada elə bir şair yoxdur ki, improvizasiyası olmasın, əgər varsa, deməli, şair deyil. O ki, qaldı intuisiya məsələsinə, bu, şairli, nasirli, dramaturqlu, ümumiyyətlə ədəbiyyatın “əsas xassəsi”dir və rəhmətlik Zəlimxanın poeziyasını, ya da başqa bir şairin əsas yaradıcılıq xassəsinin bu cür ümumi xüsusiyyətlərlə səciyyələndirərək üstündən keçmək, ədəbi-metodoloji baxımdan yüngül yolla getməkdir, nəzəri axtarışın məhdudluğu və həvəssizliyi, şövqsüzlüyü, bəlkə də yorğunluğudur. Bəzi saytlara da baxıram. Primitiv – guya təbii danışıq dilində – təhkiyə, məhdud qavranışlar, yalançı “məlumatfüruşluq” və s. Çayxana yaxşı yerdir, bizdə gözəl çayxana ədəbi ənənələri var, ancaq saytlarda, mətbuatda ədəbi tənqidi formasına görə də, məzmununa görə də çayxana söhbətinə çevirmək olmaz. Deyəsən, bir az uzun oldu, hə?.. Ancaq bir faktı da qeyd edim: Moskvada nəşr edilən, hələ də sovetdən sonra nüfuzunu saxlamağı bacaran “Literaturnaya qazeta”da İsa Həbibbəylinin koreyalı yazıçı Han Kanın “Vegeterian” romanı haqqında məqaləsi dərc edilib. Bu, səhv etmirəmsə, “Litqazeta”da Han Kan haqqında ilk məqalələrdən biri, bəlkə də birincisidir. Azərbaycan aliminin rusdilli böyük auditoriyaya Nobel mükafatçısını təqdim etməyi, onun romanını təhlil etməyi tənqidimiz üçün perspektivli və əhəmiyyətli hadisədir. Mənim özüm üçün də maraqlı məqalə idi, çünki bu yazıçıdan heç nə oxumamışam. “Litqazeta”dan söz düşmüşkən, Anarın hekayəsinin də orda dərc edilməsi yaxşı hadisələrdən biridir.

**– “Həvəssizlik” dediniz. Həvəs niyə azalır?**

– Yəqin bunun səbəbi bir deyil, iki deyil – ictimai, maddi, mənəvi, ədəbi... Məşhur tənqidçi var idi – Lev Anninski. Sənət, ümumiyyətlə mənəviyyat haqqında söhbətlərində müxbir ondan soruşur ki, müasir rus cəmiyyətinin mənəvi bələdçilərə ehtiyacı varmı? Anninski cavab verir ki, bələdçilərə ehtiyacı yoxdur, ancaq mənəvi avtoritetlərə ehtiyacı var, onlar isə yoxdur. Bu gün bizim ədəbi prosesdə, ümumiyyətlə ədəbiyyatımızda da “mənəvi avtoritetlər” qıtlığı yaranıb. Ədəbi tənqid təsirləndirmir, heyrətləndirmir. Yəqin elə buna görə də ədəbiyyata yeni gələnlərdən və hərdən də maraqlı mülahizələr söyləyən Cəlil Cavanşir deyir ki, tənqidçilərin laqeydliyi onu narahat etmir (Gülür). Gedib yaradıcılığıyla məşğul olur.

**– Sizcə, bu gün bizim ədəbi prosesdə qabarıq nəzərə çarpan nədir?**

– Böyük mənada mütaliə məhdudluğu. Klassika ilə bərabər, müasir dünya ədəbiyyatına bələdliyin axsamağı. Elmi-nəzəri səviyyənin ictimai fikrin bugünkü sürəti ilə ayaqlaşmaması. Professionallığın çatışmaması. Buna görə də məhdud dairədən çıxmaq çətin olur. İstisnalar var, əlbəttə, söhbət külldən, ümumi mənzərədən gedir. Bütün bu səbəblər barədə ayrı-ayrılıqda danışsaq, uzun çəkər. Bu gün xarici ədəbi tənqiddə oxucularla bağlı “monitor insanları” termini yaranıb, yəni ədəbiyyatı, kitabı monitor (internet) əvəz edib. Bu da klassik ədəbiyyatı tamam arxa plana çəkir. Eyni zamanda internet “klip təfəkkürü” yaradıb və tənqid də “klip təfəkkürü” ilə yazmağa başlayıbsa, bu, ədəbi prosesdə ədəbi-estetik hərc-mərcliyə gətirib çıxara bilər və çıxarır. Görürəm ki, bu mənəvi-estetik xəstəlik bizim ədəbi prosesdə də əməlli-başlı qabarmağa başlayıb.

**– Bədbin bir mənzərə yaranır...**

– Söhbət bədbinlikdən getmir, Əkrəm. Dünən televiziya ilə uşaq yeməyinin reklamı gedirdi, deyir ki, “xoşbəxtlik uşağın mədəsindən başlayır”. Uşağın mədəsindən sağlamlıq başlayar, xoşbəxtlik yox və nə qədər ki, xoşbəxtliyin mədə ilə başlaması psixologiyası bizimlə bir yerdədir, o uşağın gələcək xoşbəxtliyi sual işarəsi altında olacaq. Gərək ki, “Kulis” saytında idi, bir yazı oxudum, deyir ki, biz niyə yəhudilər kimi ola bilmirik? Bax, elə buna görə. Bu gün “xoşbəxtliyi mədələrində gördüyümüz” o uşaqlar kimdir? Bir çox peşələrin, o cümlədən də gələcək ədəbi prosesdəki imzaların sahibləri. Nə pul o balaca uşağa xoşbəxtlik gətirəcək, nə var-dövlət, nə məşhurluq, nə də quzu kababı. Bilirsiniz, yadıma nə düşdü? 1994-cü ilin iyulunda unudulmaz Heydər Əliyevin Səudiyyə Ərəbistanına səfəri. Mən də onu müşayiət edirdim. Çox zəngin, dəbdəbəli zalda kral Fəhd ibn Əbdül Əziz ilə görüşləri oldu. Fəhd təxminən, 75 yaşlarında idi, ancaq yaşından da qoca görünürdü. Elə ilk təmasdan söhbətləri çox səmimi alındı. Rəhmətlik Heydər Əliyevin belə söhbətlərdə öz yüksək səriştəsi, sırf insani nöqteyi-nəzərdən məxsusi cazibəsi var idi.

Aradan nə qədər il keçib? 30 ildən çox. Ancaq kral o zaman bir söz dedi, indiyə qədər hafizəmə hopub qalıb. Barmağı ilə zaldakı zərli-zibalı, qızıl örtüklü sütunları göstərərək: “Hər şey var, – dedi. – Ancaq xoşbəxtlik yoxdur...” Bunu yada salmaqla, mən, əlbəttə, təzədən velosiped kəşf etmirəm, məlum həqiqəti deyirəm ki, xoşbəxtlik mənəvi bir anlayışdır. Biz uşağın mədəsinin dərdini çəkməklə bərabər, onun mənəviyyatının da dərdini çəkməliyik. Hansı peşə sahibi olursa-olsun, o cümlədən də ədəbiyyat adamı, onun gələcək mədəniyyətinin, dünyagörüşünün də dərdini çəkməliyk. Hər şey buna bağlıdır. Sözlərim çox gurultulu səslənmədi? (Gülür)

**– Yox, yox...**

– Yadıma düşmüşkən, bunu da deyim ki, bizim əlaqədar qurumlarımız beynəlxalq ədəbi əlaqələri, nə qədər imkan varsa, gücləndirməlidir. Müasir dünyada beynəlxalq ədəbi institutlar ciddi rol oynayır. Ədəbiyyatımızı tanıtmaq, məhdud coğrafi məkandan çıxarmaq istəyiriksə, bu işdə ədəbi inteqrasiya olduqca mühüm bir problemdir. Özü də söhbət ondan getmir ki, kimsə haradasa bir mükafat alıb, ya da kiminsə xaricdə kitabı çıxıb. Mükafat da, kitab da yaxşıdır.

Ancaq o zaman milli ədəbiyyatın yükünü qaldırmaq və daşıya bilmək olar ki, həmin beynəlxalq ədəbi institutlarla qarşılıqlı tərəf-müqabil ola biləsən. Vaxt var idi ki, anekdot səviyyəsində qadağalarla rastlaşırdıq. Yadıma gəlir (gülür), “Cənnətim Qarabağ” mahnısında belə bir misra var idi: “Aylı, ulduzlu Cıdır düzü...” O misranı dəyişib, eləmişdilər: “Aylı, gündüzlü Cıdır düzü”. Bunun da səbəbi o idi ki, “Aylı, ulduzlu Cıdır düzü” Türkiyə bayrağındakı ay-ulduzu xatırladır. İndi belə eybəcər şeylər yoxdur, ancaq yalnız sevimli Türkiyə ilə də kifayətlənmək olmaz. Rəhmətlik Azad Mirzəcanzadənin sözü olmasın, “deyə bildim?”

**– Siz bir sıra məqalələrinizdə, müsahibələrinizdə demisiniz ki, ədəbiyyatın missiyası əbədidir. Yəni nə qədər həyat davam edəcək, ədəbiyyat da öz missiyasını yerinə yetirəcək. İstərdim ki, bu barədə də bir neçə kəlmə deyəsiniz.**

– Yenə də elə o fikirdəyəm. Ədəbiyyat Xeyirin müttəfiqidir və yarandığı gündən Şərə qarşı mübarizə aparıb və aparır. Ədəbiyyatın missiyası həyat bitəndə sona çatacaq. Ancaq ədəbiyyatın forması dəyişəcək və artıq dəyişir. Ədəbiyyatın əsas yükünü nə daşıyır? Kitab. Bax, indi təzə termin yaranıb. Kitablar iki formaya, hissəyə bölünməyə başlayıb: “kağız kitab” və “elektron kitab”. “Elektron kitab” artıq yeni nəsil üçün doğmalaşıb. Mənim üçün doğma deyil, ögeydir. Ancaq bir müddətdən sonra hamı üçün, o cümlədən, gələcək “mən”lər üçün də doğmalaşacaq.

**– Uzun illərdir ki, mən sizin mütaliəyə bağlılığınızın şahidiyəm. Rəhmətlik Rafiq Tağı deyirdi ki, Elçin müəllim, hətta dəmiryolçuların qəzetlərini də oxuyur... Xatırlayıram ki, siz Yazıçılar İttifaqında işləyəndə Rafiqin ilk kitabını necə çətinliklə nəşr etdirdiniz, ön söz yazdınız... Hazırda nə oxuyursunuz? Maraqlıdır.**

– İndi? Amerika sovetoloqu var, Robert Taker. Onun Stalin haqqında böyük bir monoqrafiyası var, bunu oxuyuram. Görürsən? (Elçin müəllim kitabı göstərir) Stalin və stalinizm haqqında klassik tədqiqatlardan biri hesab olunur. Dünən Azər Turanın “Qəbulə xanım və I Pyotr” kitabını oxudum. Kiçikdir, ancaq yaxşı qələmlə emosional yazılmış bir kitabçadır.

**– Vaxtı ilə “Aşıq poeziyasında “dünya” obrazı haqqında kiçik monoqrafiya yazmışdınız. O dünya ilə bugünkü dünya barədə nə deyə bilərsiniz?**

– Nə deyə bilərəm? Bax, Avropada da, Asiyada da qədim dövrlərdə, orta əsrlərdə, padşahlar, cəngavərlər, sülalələr, hərbi yürüşlər zamanında qırğından, qəddarlıqdan, vəhşilikdən mühafizə üçün qala divarları tikirdilər. Bu gün də çox inkişaf etmiş sivil ölkələrdə yenidən 3-4 metr hündürlüyündə, kilometrlərlə uzunluğunda mühafizə qalaları tikməyə başlayıblar. ABŞ-da artıq tikilir, Finlandiya tikir, Norveç görürəm ki, belə tikinti üçün büdcədən xeyli vəsait ayırıb və s., və i.a. Top, tüfəng, atom, kosmik silahlanma, hərbi lazer... Əli Kərimin “Daş” şeiri yadıma düşür.

Düşünürəm ki, dünya hara qayıdır, Əkrəm? Bir var, fərdi dəlilik, bir də var, bəşəri dəlilik. Deyəsən, dünya bəşəri dəliliyə gedir... Böyük dövlətlərin ikili siyasi və təmənnalı standartlar dünyası... Mən bir neçə dəfə demişəm, yenə təkrar edirəm: Azərbaycanın bu ikili standartlar dünyasında ərazisini və suverenliyini bərpa etməsi mənim üçün bir əfsanədir. Belə çıxır ki, əfsanə ancaq nağıllarda olmur. Prezidentimiz də, əsgərlərimiz də, şəhidlərimiz və qazilərimiz də əfsanə yaratdı... Bu, həqiqətdir. Ədəbiyyatla bağlı başqa bir sualın var?

**– Ədəbiyyatımıza yeni nəsillər gəlir, demək olar ki, hər gün yeni imzalara rast gəlirik. Nəsillər bir-birini əvəz edir. Bu barədə nə deyə bilərsiniz?**

– 60-cılardan indi kim qalıb? Prozadan danışıram. 3-4 nəfər.

Rəhmətlik Hüseyn Kürdoğlunun misraları yadıma düşür. Əgər düz deyirəmsə, belədir:

**Gəzdim gəncliyimi, tapa bilmədim,**
**Qaçıb qocalıqdan dağda gizlənib!**

İş burasındadır ki, bu, “Gizlənpaç” oyunu deyil, əbədi, həmişəlik bir gizləntidir. Bizdən sonra isə 70-cilər gəldi: Afaq Məsud, Sabir Rüstəmxanlı, Kamal Abdulla, Seyran Səxavət, Aqil Abbas, Məmməd Oruc... İllər keçdikcə nəsilləri bir-birindən ayırmır, əksinə, birləşdirir. İndi biz demirik ki, Qoqol filan ədəbi nəslin, Tolstoy isə o biri nəslin, yaxud Balzak filan nəslin, Flober isə filan nəslin nümayəndələri idi? Dərsliklərdə deyə bilərik, ümumilikdə isə deyirik ki, XIX əsr rus, yaxud fransız ədəbiyyatı. 70-cilərdən sonra da bir neçə ədəbi nəsillər gəlib. Bu dövrün Azərbaycan ədəbiyyatında bir küll olaraq kimlər qalacaq, kimlər gedəcək, bunu gələcək müəyyən edəcək. Bu gün isə oxuduqlarıma görə məndə belə bir təəssürat var ki, bunu bir neçə dəfə demişəm, təkrar edirəm, ədəbiyyatımız özünü axtarmaq prosesindədir, özünü tapmaq istəyir, ya da özünü tapmaq üçün çalışır.

**– Bir sualı da verməyə bilmirəm. Bu gün hamımızı hiddətləndirən Yekaterinburq hadisələrini nəzərdə tuturam.**

– Bilirsən, iki Rusiya var: bir var, imperiya Rusiyası və imperiya ambisiyası, imperiya iddiaları. Böyük rus şovinizmi. Bu barədə mən «Baş» romanında ətraflı yazmışam. Bu günlərdə Yekaterinburqda törədilən vəhşilik, bax, həmin rus imperiya ambisiyalarının, dediyim o böyük rus şovinizminin təzahürüdür. Bir də var, Tolstoy, Qoqol, Puşkin, Dostoyevski, Çexov, Çaykovski, Pliseskaya, Tarkovski Rusiyası. Ancaq faciə burasındadır ki, bu ikinci Rusiya həmin imperiya ehtiraslarının, iddialarının, get-gedə güclənən rus şovinizminin, rəhmətlik Üzeyir bəy demişkən, “nikolaylar və generallar hakimiyyətinin” içində itib-batır. Mən Yekaterinburqda həlak olanların ailələrinə, bütün yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

**– Bəzən mətbuatda, sosial şəbəkədə qəflətən ortaya bir mövzu atılır. Başlanır bu mövzunun müzakirəsi.**

– Misal üçün?

**– Misal üçün, bu yaxınlarda Alim Qasımovun rep oxumağı barədə xeyli söz-söhbət oldu. Biri müdafiə etdi, biri əksinə, tənqid etdi...**

– Hə, mənə göstərdilər, gördüm... Buna nə deyə bilərəm, Əkrəm? Heç nə. Görünən dağa nə bələdçi?

**– 37-38-ci illər... Siz son illərdə sovet tarixi ilə bağlı çox yazmısınız: Stalin haqqında pyes, Mir Cəfər Bağırov haqqında böyük esse-oçerk, Müşfiqin, Cavidin, Çəmənzəminlinin, Ömər Faiqin faciəli həyatı, repressiya illəri... Son zamanlar mətbuatda da repressiya hadisələri ilə bağlı yazılar çıxır. Bu yazılar sizi qane edirmi?**

– Əvvəla, mənim həyatımın böyük bir hissəsi sovet dönəmində keçib. Bu, necə bir dövlət idi? Necə quruldu, necə dağıldı? Necə və niyə? İkincisi də, yox, qane etmir. 37–38-ci il hadisələri yeraltı suların siyasi-ictimai-inqilabi-psixoloji burulğanı üzərində vaqe olurdu. O hadisələrdən bəhs edəndə, “filankəs filankəsi satdı” səviyyəsində mülahizələr üzdən getməyin nəticəsidir. Bu hadisələrin absurda gətirib çıxaran miqyası müqabilində “satqınlıq”, “böhtan”, “saxtalaşdırma” kimi məfhumlar zəif anlayışlardır.

Səməd Vurğunu “yaltaq” adlandırıb, mətbuata çıxarmağı, bunu müzakirə etməyi mən biabırçılıq hesab edirəm. Onu görə yox ki, Səməd Vurğunun, ya onun kimi bir başqasının həyat yolu aydan arı, sudan duru olub. Ona görə ki, dediyim həmin burulğanın içində nəfəs alan bu insanlar, indiki halda bu sənətkarlar – Mikayıl Müşfiq, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Osman Sarıvəlli, Süleyman Rəhimov, Əli Vəliyev, Əbülhəsən, Mirzə İbrahimov, Mir Cəlal, Mehdi Hüseyn... – XX əsrdə Azərbaycan ədəbi dilini görünməmiş bir sürətlə saflaşdırdılar, təmizlədilər, inkişaf etdirdilər, ictimai şüurda milli-mənəvi “mən”i silkələdilər, Sabirin yuxulayan qəhrəmanlarını oyatdılar... Azdır?

**– Elçin müəllim, istəyirəm, bir az da şəxsi həyatdan, şəxsi hisslərdən danışaq. Olar?**

– Olar. Ancaq görək söhbət hansı hisslərdən gedir də? (Gülür.) Çox dərinə getmə.

**– Misal üçün, mən bilirəm ki, siz musiqiyə çox bağlısınız. Bu barədə bir-iki söz olar?**

– Olar, əlbəttə. Dünyada elə bir qələm sahibi ola bilər ki, musiqiyə biganə qalsın? Ağlım kəsmir. İlk gənclik çağlarımda, 60-cı illərdə caza çox həvəsli idim. O illərdə rəhmətlik Vaqif Mustafazadə ilə də dostluğumuz var idi. Sonralar, qəribədir, bilmirəm niyə, o caz həvəsi yavaş-yavaş soldu. Ancaq Vaqifə indi də tez-tez qulaq asıram. Bu gün o illərin cazını yox, estradasını tez-tez xatırlayıram, internetdə qulaq asıram: Edit Piafa, İv Montana... Daha sonrakı dövrdəki Toto, Dassen, Dalida, Çelentano... Bizim Mirzə...

O ki qaldı muğamata, muğamata qulaq asmaq mənim həyat tərzimin bir hissəsidir. Xanın səsini və nəfəsini, Ağababanın “Zabul”unu, Hacıbabanın “Rast”ını, Yaqubun “Mənsuriyyə”sini, Yavər Kələntərlinin “Bayatı-Şiraz”ını, Şövkət xanımın “Şahnaz”ını, Rübabənin “Humayun”unu, Sara Qədimovanın “Qatar”ını mənim üçün heç nə əvəz edə bilməz. Şikəstələr, xalq mahnıları, Qədirin “Sona bülbüllər”i... Bülbül, Rəşid, Müslüm... “Ölkəm”dən tutmuş bu tərəfə, bizim romanslarımız... Bəhram Mansurovun tarı...

Bir də ki, simfonik musiqi. Xüsusən, Fikrətin simfoniyaları, ümumiyyətlə onun klassik musiqisi. İllər Fikrət Əmirovu elə bil, yenidən qaytarır, yenidən açır, yenidən tanıdır. Soltan Hacıbəyovun “Karvan”ı... Seyid Rüstəmovun, Tofiq Quliyevin, Rauf Hacıyevin mahnıları... Əkrəm, bu söhbəti saxlamasam, uzandıqca uzanacaq...

**– Elçin müəllim, onu da bilirəm ki, sizin görüşlər keçirməklə o qədər də aranız yoxdur. Televiziyadan, mətbuatdan, cürbəcür təşkilatlardan tez-tez mənə müraciət edirlər ki, sizinlə əlaqə saxlayım, görüşlərə, verilişlərə dəvət edirlər. Çox vaxt da imtina edirsiniz. Niyə?**

– Əkrəm, yazı-pozu hər şeyi deyir də... Ancaq, əlbəttə, hərənin bir xasiyyəti var. Folkner Heminquey haqqında deyirdi ki, o, yəni Heminquey öz bioqrafiyasının rejissorudur. Düz deyirdi. O cür rejissorluq daha artıq məşhurlaşdırır, kütləviləşdirir. Ancaq bax, bu gün Heminqueyi də yaşadan həmin rejissorluğu yox, əsərləridir.

**– Axır vaxtlar, xüsusən, cavanlar tənhalıqdan çox yazırlar. Sizin tənhalıq barədə fikriniz?**

– (Gülür) Sizə bir söz deyim. Mən 25-30 yaşlarımda tənhalıq barədə daha çox düşünürdüm, nəinki indi. Bu gün tənhalıq hissiyyatı məni narahat etmir. Yəqin ailəyə görə, yazı-pozuya görə. Bir də ki, yazı-pozudan, kitab-dəftərdən sonra tənhalığa vaxt qalır ki?.. O ki qaldı tənhalıq mövzusuna, tənhalıqdan şikayət etmək yox, tənhalığın obrazını yaratmaq lazımdır. Dur, sənə bir şeir göstərəcəyəm. Gərək burda olsun (Elçin müəllim özünün dediyi kimi, üstü “yazı-pozu” ilə, qovluqlarla, qəzet kəsmələri ilə dolu yazı mizində axtarıb, kiçik bir kitabçanı götürür). Budur, Faiq İsmayılov adlı bir cavan şairin kitabçasıdır. Tanımırdım, oxumamışdım. Gənc yaşında vəfat edib. Bax, gör nə deyir? (Oxuyur)

**Bir mənəm,**
**bir də ağ divarda**
**qara kölgəm...**
**deyirəm, nə yaxşı**
**tək deyiləm.**

Sizə doğrusunu deyim ki, bu beş qısa misra məndə bu cavan şairin daxilində tragik bir tənhalıq təəssüratı yaratdı. Çox istedadlı cavan olub. Hayıf... Vaqif Mustafazadənin də kiçik bir “Tənhalıq”ı var, elə bil piano ilə yox, şeirlə deyir, sözlə danışır...

**– Elçin müəllim, müstəqil Azərbaycanın “İstiqlal”, “Şərəf”, “Şöhrət” ordenləri ilə təltif edilmisiniz, Xalq yazıçısı, Əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru, Bakı Dövlət Universitetinin professorusunuz, çoxlu mükafatlarınız, başqa fəxri adlarınız var. Bunların hansı sizin üçün ən qiymətlisidir?**

– (Gülür) Hamısı! Bir də ki, eləcə Elçin, vəssalam.

***XQ***

Üzeyir Hacıbəyli – 140

# Azərbaycan korifeyi Stalin mükafatı komitəsində

**1940-cı ildə yaradılmış, 1952-ci ilə qədər fəaliyyət göstərmiş Stalin mükafatı komitəsi SSRİ-də elm, texnika, ədəbiyyat və incəsənət sahəsində fərqlənənləri təltif edirdi. Mötəbər komitəyə ən görkəmli şəxsiyyətlər daxil idi.**



Türk dünyasının dahi bəstəkarı, publisisti, dramaturqu, alimi, pedaqoqu, ictimai xadimi Üzeyir bəy Hacıbəyli də Stalin mükafatı komitəsi yarandığı gündən ona üzv seçilib, ömrünün sonuna kimi də həmin tərkibdə qalıb. O, Dövlət mükafatı ilə bağlı müzakirələrdə Səməd Vurğun, Sergey Prokofyev, Dmitri Şostakoviç, Mixail Şoloxov və başqalarının əsərləri haqqında müzakirələrdə fikir söyləyib, mükafatların verilməsində müstəsna rol oynayıb. Sonralar bu mükafat SSRİ Dövlət mükafatı adlandırılmışdır.



Ü. Hacıbəyli özü də iki dəfə Stalin mükafatına layiq görülüb. Birinci dəfə 15 mart 1941-ci ildə bu mükafat dahi bəstəkarın "Koroğlu" operasına verilib. Bu barədə Stalin mükafatı komitəsinin 1940-cı il 30 dekabr tarixli geniş iclasının stenoqramında professor A .B. Qoldenveyzerin çıxışında oxuyuruq: "...Biz 6 namizədin siyahısını vermişik. Opera bölməsi üzrə seksiya "Koroğlu" operasına görə Hacıbəyovu təqdim etmişdir. Əsas belədir: Milli dekadalar bir sıra opera əsərləri göstərmişlər. Onların arasında Hacıbəyovun operası böyük müvəffəqiyyət qazanmışdır. Böyük teatrda tamaşaya qoyulmaq üçün qəbul edilmişdir. Bu, milli operalardan ən dəyərlisidir".

İkinci dəfə isə Üzeyir bəy Hacıbəyli 26 iyun 1946-cı ildə "Arşın mal alan" filminə görə Stalin mükafatı ilə təltif edilib.

Üzeyir bəyin özünün Stalin Mükafatı Komitəsinin iclaslarında maraqlı, dəyərli çıxışlarından ikisi mənə rast gəlib. Onlardan biri Dmitri Şostakoviçin, digəri isə Səməd Vurğunun "Fərhad və Şirin" dramı nın Stalin mükafatına namizədliyinin müzakirəsi ilə bağlıdır. Komitənin 21 noyabr 1940-cı il tarixli geniş iclasında başqa bəstəkarlar haqqında da fikirlər söylənilmişdir. Üzeyir bəy Hacıbəyli Prokofyev, Şostakoviç, Xaçaturyan, Myaskovski, Qlier haqqında tənqidi fikirlərini bildirib, səlis və obyektiv çıxışı ilə onların yaradıcılığının dərinliyinə varıb.

Beləliklə, Üzeyir bəy Hacıbəylinin Stalin komitəsindəki çıxışlarının stenoqramını ana dilimizə çevirərək, musiqi ictimaiyyətinin və Üzeyir bəy pərəstişkarlarının diqqətinə çatdırırıq. İnanırıq ki, bu, xalqımız üçün dəyərli nümunə olacaq. Bir daha Üzeyir bəyin nə qədər humanist, obyektiv, sənəti dərindən bilən və hörmət edən sənətkar olduğunu bariz şəkildə görəcəyik.

Sitat: "Şostakoviç yüksək üsluba malik dünya əhəmiyyətli sənətkardır. Onun 5-ci simfoniyasına mükafat verilməsinə heç kim etiraz etməzdi. Burada yalnız böyük sənətkara xas olan, özünəməxsus orkestr səslənməsi sirri vardır. Qavranılmasına görə də bu əsər 1-ci yerdə durur. Burada geniş dinləyici kütləsi üçün heç bir formallıq, heç bir hoqqabazlıq yoxdur.

Lakin Şostakoviçin kvinteti məcbur edir ki, klassikanı unudasan və musiqini başqa cür anlamağa yönələsən. Burada aydın, məntiqli musiqi fikri görünmür. Bu nədir, lad musiqisidir, ya qeyridir? Əsərin əsasında müəyyən bir məqsəd olmalıdır, burada isə o yoxdur.

Qeyd etdiyim kimi, Üzeyir bəy Hacıbəylinin Stalin mükafatı komitəsindəki ikinci çıxışı böyük şairimiz Səməd Vurğunun dili haqqında, onun "Fərhad və Şirin" dram əsərinin ali mükafatına təqdim edilməsi ilə bağlıdır. 19 fevral 1942-ci ilə aid həmin çıxışdan müddəalar: "Səməd Vurğun müasir Azərbaycan ədəbiyyatının parlaq nümayəndələrindən biridir. Burada mən deyərdim ki, nəinki parlaq nümayəndələrindən biri, hətta ən istedadlı nümayəndəsidir. Azərbaycan dilinin nümunələrini Azərbaycan ədəbiyyatı xəzinəsinə daxil edərək o, xalqının həyatının bütün sahələrini müxtəlif yollarla əks etdirməyi bacarmışdır. Şairin şeirləri ana vətənə dərin hisslərlə, hədsiz məhəbbətlə doludur. O, seir sənətinə mükəmməl yiyələnmişdir. Dramaturgiya yoluna isə o, 3 dramla daxil olmuşdur. Bir dramaturq kimi Səməd Vurğunun əsas cəhəti odur ki, onun əsərlərində real xarakterlər verilir və lirik şairin dərin psixologizmi hiss olunur.

Bir dramaturq olaraq deyim ki, onun yaradıcılığının ikinci əsas tərəfi odur ki, o, insan həyatını romantik və filosof şair kimi təsvir edir. Hazırkı "Fərhad və Şirin" əsəri bizim ədəbiyyatımızda və teatrda böyük əhəmiyyət kəsb edən hadisədir. O, Nizami haqqında yazmış və onu müasirləşdirərək, sözün əsl mənasında, çağdaş vətənpərvərlik dramı yaratmağa müvəffəq olmuşdur. Bu, nəzmlə yazılmış dramdır.

O, epik asudəliyi və dramatizmi birləşdirir. Bunlar hər zaman çox gözəl dillə yazılmışdır. Və bu nəinki Azərbaycan, hətta bütün çağdaş dramaturgiyanın nailiyyətlərindən biridir".

Dahi, müdrik sənətkar Üzeyir bəy Hacıbəylinin bu çıxışından sonra Səməd Vurğunun "Fərhad və Şirin" dramı qeydsiz-şərtsiz Stalin mükafatına layiq görülüb.

Bəli, əvəzsiz sənətkar olan Üzeyir bəy, sözün əsl mənasında, müdrik şəxsiyyət idi. Düzü-düz, əyrini-əyri söyləməkdən çəkinmirdi. Bütün situasiyalarda xeyrin qalib gəlməsinə çalışırdı. Qoyulan məsələlərə müdrikcəsinə yanaşır, yaxşıların uğuruna imza atırdı. Yüksək səviyyələrdə böyük dühanın fikir və mülahizələri hörmətlə qarşılanırdı. Həm Azərbaycan, həm də SSRİ rəhbərliyi yanında onun sözü keçirdi. Və Üzeyir bəy Hacıbəylinin fikirlərinə, düşüncələrinə hər zaman ehtiyac duyulurdu...

***Səadət QARABAĞLI,***
***üzeyirbəyşünas***

# Dünya səyyahları Qarabağda



**Xəbər verdiyimiz kimi, dünyanın 15 ölkəsindən ölkəmizə qonaq gəlmiş səyyahlar Qarabağ və Şərqi Zəngəzurun rayonlarına səfər ediblər. Qonaqlar Füzuli, Xocavənd, Şuşa, Xankəndi, Xocalı, Ağdam, Kəlbəcər, Laçın, Zəngilan və Cəbrayılda olublar.**

Amerikalı Çarlz Vilinin rəhbərlik etdiyi dünya şöhrətli MTP (Most Traveled People) beynəlxalq səyyahlar klubunun xəttilə bir neçə gün ərzində 30 nəfərlik heyət yenidən qurulan bölgələrdə həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri ilə tanış olub. Qonaqlara məlumat verilib ki, infrastrukturun qurulması ilə yanaşı, rayonların əsl tarixi siması özünə qaytarılır, abidələr bərpa olunur. Səyyahlar Şuşa, Xankəndi və Laçındakı şəhər poçtlarından öz vətənlərinə məktublar göndəriblər. Onlardan biri – səyyahlar klubunun üzvü, irlandiyalı səyyah Devid Cozef Langan deyib: "Göndərdiyim poçt kartlarında möhtəşəm Şuşa qalası əks olunub. Həmçinin poçt markaları vurulub və bu günün tarixi yazılıb. Bu yeni poçtlar çox gözəldir. Əməkdaşları da gülərüz və mehribandırlar. Burada keçirdiyim günlər həmişəlik yaddaşımda qalacaq"

Laçında MTP klubunun üzvləri "Hoçazfilm" yaradıcılıq studiyasının pavilyonuna və "Yurd qalareyası"na gələrək, çəkilişləri müşahidə edib, yerli sakinlərin toxuduğu xalçalarla tanış olub, "Gilabi Ceramics" mərkəzində isə gildən hazırlanan əl işlərinə baxıblar.

Marşrut üzrə gəzilən hər yerdə səyyahlara Ermənistan silahlı qüvvələrinin törətdiyi vəhşiliklər barədə ətraflı bilgilər verilib və bildirilib ki, artıq 5 ilə yaxındır, ərazilərimiz qarış-qarış ermənilərin basdırdığı minalardan təmizlənir. Cəbrayıl rayonunun Mehdili kəndində minatəmizləmə işlərinin həyata keçirildiyi əraziyə baxış keçirilib.

Ümumiyyətlə, bu səfər işğaldan azad edilmiş ərazilərin "dark tourism" çərçivəsində tanıdılması, nəhəng quruculuq-bərpa işlərinin nümayişi üçün böyük imkan yaradıb.

Jurnalistlərlə söhbətində beloruslu səyyah Yelizaveta Makey təəssüratını belə bölüşüb: "Biz burada iqtisadi artımı, çoxsaylı inşaat obyektlərini, insanların bu bölgənin inkişafı üçün necə böyük əzmlə çalışdıqlarını müşahidə edirik. Buna qəlbən sevinirəm. Hesab edirəm ki, bu ərazi turizm, ümumiyyətlə, beynəlxalq turizm üçün çox cəlbedicidir. Qarabağın şəhərlərinə səfər edəndə yeni tikilən binalarda gözəl və ənənəvi memarlıq üslublarını görmək olur. Qarabağ elə yerdir ki, burada tarixi duymaq, ənənəvi mətbəxin dadına baxmaq, dağ landşaftından həzz almaq mümkündür. Bölgənin çox gözəl havası var".

Qeyd edək ki, son 4 il ərzində dünyanın əsas səyyahlar klublarının xətti ilə Qarabağ və Şərqi Zəngəzura 13 dəfə səfərlər təşkil edilib və səyyahlar səfər edib. 500 nəfərdən çox səyyah erməni işğalından azad olunmuş əraziləri gəzib, zəngin təəssürat əldə edib. Budəfəki səfər sayca 14-cü qrup səfəri idi.

***Ə.ƏLİYEV***
***XQ***

# Yaddaşları oyadan kitablar

## *Bir müəllifin 2 toplusunun anlatdıqları*

**İndiki kitab bolluğunda təbərrik kimi çətin ələ düşən hansı mətnləri tapıb mütaliə etməli? Yaddaşımızı necə qoruyub saxlamalı? Bir oxucu kimi son illər mütaliə etdiyim, yaddaşımı təzələyən belə kitablardan ikisi – tanınmış jurnalist, publisist Məzahir Əhmədoğlunun "Metamorfoz" və "Uembli arayışı" kitabları oldu.**

Qələm dostum bu yaxınlarda 70 yaşını başa vurub. "Qızıl qələm" və "Ali media mükafatı" laureatıdır. Ədəbi yaradıcılığa şeir və publisistik yazılarla başlayıb. Əvvəllər Göyçayda çıxan "Yeni həyat" qəzetində işləyib, redaksiyanın nəzdində yaradılmış Poeziya Klubuna rəhbərlik edib. AZƏRTAC-da, "Kənd həyatı" jurnalının bazasında çıxan "Biznes" qəzetində xüsusi müxbir olub. 2007-ci ildən isə çalışdığı "Ədalət" qəzetində maraqlı yazıları ilə oxucu rəğbəti qazanıb.

Məzahirin "Uembli arayışı" kitabı 2011-ci ildə Mətbuat Şurasının tövsiyəsi əsasında nəşr olunmuşdur. Həmin kitab BDU-nun jurnalistika fakültəsinin 2012-ci il buraxılışında diplom müdafiəsi siyahısında yer alaraq yeni bir vəsait kimi istifadə edilmişdir.

Kitablarını oxuduqca nə qədər yaxın, doğma adlarla qarşılaşdıq. "Metamorfoz" kitabına "Ön söz əvəzi" yazmış yazıçı-publisist Loğman Rəsizadə oxucudan intellektual səviyyə tələb edən bu ciddi kitabı oxuyub dərk etmək üçün açar yeri, ipucu kimi "kod" verir: "Yazıçının, jurnalistin böyüklüyü həyatda çoxlarının görüb sezə bilmədiklərini gözaltı etmək, ən sadə həyat hadisələrində qeyri-adilikləri, dünyanın mürəkkəb proseslərinin cizgilərini tapıb üzə çıxarmaqdır. Məzahirin əsərlərində biz bunun geniş spektiri ilə qarşılaşırıq. O, adilikdə qeyri-adilikləri görə bilir. Həm də çox məharətlə onu bədii publisistikanın predmetinə çevirə bilir."

Kitabda müəllifin digər qələm dostlarının ürəkdən gələn dəyərli fikirləri də yer alıb. Əməkdar jurnalist Əflatun Amaşov yazıb: "Məzahir barədə o kəslər danışır ki, imzalarına da, şəxsiyyətlərinə də media aləmində hörmətlə yanaşırlar. Çünki sabit təbiətli, xeyirxah xislətli bu insanın özü də yüksək keyfiyyətin daşıyıcısıdır. M. Əhmədoğlunun yaradıcılığı mövzular palitrasıdır".

Müəllif hər iki kitabında toplanan bir-birindən maraqlı, bəzən də az qala sənədli hekayə sayılacaq esselərində kimləri yada salıb yaddaşımızı oyatmır! Əli Kərimin doğulub böyüdüyü şəhərdə dəfninin iştirakçısı olan, o vaxt Göyçayda yaşayan yeniyetmə Məzahir Əhmədoğlu sonralar bunu "Tale oyunumu, yoxsa intihar?" adlı essesində elə yanğı ilə qələmə alıb ki, şairin poeziyası birəm-birəm onun pərəstişkarları olan oxucuların bir daha yadına düşür. Və yaxud şöhrətləndikdən sonra da Bakının "Neftçi" komandasına sadiq qalan futbolçu Anatoli Banişevski, onun əksi olan Eduard Markarov, Mirzoyan qardaşları, Vitali Şevçenko...

"Uembli arayışı" adlı kitabdakı esselərdən birində Braziliyanın möhtəşəm "Marakana" stadionunda yerli komandanın qapısına qol vuran, azarkeşləri yerlərində donduran futbol əfsanəmiz, bir vaxt ünsiyyətdə olduğum Banişevskinin futbola idman kimi deyil, incəsənət kimi baxması mahir bilici kimi əsaslandırılır. Elə esselər var ki, indiki informasiya bolluğunda sənə yeni məlumatlar ötürür, həm də maarifləndirir. Az qala hər birindən sonra oxucu yaddaşı təzələnir, neçə-neçə xatirə yada düşür.




Məzahir Əhmədoğlu "...Və digər rəsmi şəxslər" adlı essesində maraqlı fikirlər irəli sürür: "Mən dünyanın böyük yazıçıları, şairləri, rəssamları bəstəkarları... haqqında bir şeylər fikirləşəndə mütləq Azərbaycanın keçmişində və indisində onların bənzəri və ya davamçılarını da axtarıram". Sonra da qürurlandığı sənətkarlarımızın adlarını çəkməklə bir daha yada salır.

Peşəkar rəssam tanıdığı bir şəxsiyyətin portretini kətan üzərində rənglərlə necə yaradırsa, Məzahir Əhmədoğlu da esselərində tanıdığı adamın istər daxili, istər zahiri portretini sözlərlə eləcə yaradır.

...İlk dəfə yaşıl rəngli xarici pasportumuzu alanda arzum bu idi ki, əvvəl Ərdəbili, Təbrizi, İstanbulu görüm. Sonra... sonra da şəhid ağalarımızın torpağa tapşırıldıqları Kərbəlanı, Məşhədi ziyarət edim. O pasportumun müddəti keçdi, xərcini ödəyib yenisini aldım. Onun da müddətinin başa çatmasına az qalıb. Möhürsüz səhifələr... Nə yaxşı ki, İstanbul haqqında nə qədər oxusam da, Məzahir Əhmədoğlu görmək nisgilimdəki bu şəhəri mənə daha yaxından tanıtdı.

Çalışdığı "Ədalət" qəzetində vaxtaşırı onun "köşə" yazıları çap olunub. Hamısı da bir-birindən maraqlı, məzmunlu və aktual. Elə biri "Qartalı sevmək" yazısı. Televiziyada təbiətlə bağlı çıxışlarına istər yaşlı, istər cavan tamaşaçı auditoriyasının maraqla izlədiyi bir veriliş. Verilişin aparıcısı unudulmaz alimimiz Qara Mustafayevin çıxışları. "Qartalı sevmək" və xəritələrdə qartal şəklindəki doğma Azərbaycanımız...

"Uembli arayışı", "Metamorfoz" kimi orijinal, fərqli kitabların müəllifi olan dostum Məzahirin, təəssüf ki, mən qarışıq oxucuların da səbirsizliklə, intizara gözlədiyi növbəti kitabı hələ işıq üzü görməyib. Bir vaxtlar gündəlik çap olunan, hər sayında yazıları dərc edilən "Ədalət" qəzeti də indi həftədə bir dəfə az səhifələrlə çap olunur. Oxucuların gözləri onun imzasını axtara-axtara qalır.

Məzahir Əhmədoğlunun yeni yazılarını, kitablarını gözləyirik.

***Aydın TAĞIYEV,***
***yazıçı-publisist***

# Milli mətbuatımızın tarixi zəngin mənəvi qaynaqdır




**"Magen David Azərbaycan" – İnsan Hüquqları Müdafiəsi və Xeyriyyə Cəmiyyəti Azərbaycan milli mətbuatının 150 illiyi ilə əlaqədar jurnalistlərlə görüş keçirib.**

"Four Seasons Notel Baku"da keçirilən mərasimdə əvvəlcə qələmin qılıncdan iti olduğu dövrdə medianın cəmiyyətdəki roluna həsr edilmiş videoçarx nümayiş etdirilib. Kadrlarda "Əkinçi" qəzetinin banisi Həsən bəy Zərdabidən üzü bu yana milli mətbuatımızın keçdiyi şərəfli yola, ulu öndər Heydər Əliyevin mətbuatı dəyərləndirməsinə, Prezident İlham Əliyevin mediaya diqqət və qayğısı ilə bağlı faktlara işıq tutulub. Vətən müharibəsi zamanı yüksək vətənpərvərlik və cəsarət göstərmiş mətbuat nümayəndələri, qələmini silaha çevirmiş şəhid jurnalistlər ehtiramala anılıb.

Sonra Milli Məclisin deputatları Anatoli Rafailov və Səbinə Salmanova, eləcə də "Magen David Azərbaycan" İnsan Hüquqları Müdafiəsi və Xeyriyyə Cəmiyyəti Mərkəzinin direktoru David Silvestrov çıxış edərək mətbuatımızın keçdiyi şərəfli yoldan, mediaya dövlət qayğısından danışıb, şanlı yubiley münasibətilə jurnalistləri təbrik edərək, onlara ən xoş arzularını çatdırıblar.

Mərasim musiqili proqramla davam edib.

***XQ***

# Çeşməliyə gedən yol...

## Tovuzda sosial problemlər səyyar qəbullarda daha tez həll olunur

**Çeşməli gözəl bir kənddir. Adamları da təbiəti kimi mülayim və xoş xasiyyətli, gülərüz, torpağa bağlı insanlardır. Burada əhalinin sayı heç 700 nəfərə də çatmır. Əkinçiliklə, maldarlıqla məşğuldurlar. Əsasən də kartof əkini ilə məşğul olan əhali yetişdirdiyi məhsulların satışını həm yerli bazarlarda, həm də digər MDB ölkələrində edir. Yəni əlverişli şəraitin və məhsuldar torpağın olması əkinçilik sahəsinə daha çox diqqət yetirilməsinə şərait yaradıb. Həmçinin arıçılığa, son illərdə isə tütünçülüyə meyl edənlərin də sayı artıb...**



Həsənli də böyük kənd deyil. Əhalisinin sayı Çeşməlidən iki dəfə azdır. Bu kənd Həsənli nəslinin adı ilə belə adlandırılır. Təsadüfi deyil ki, kənddə az qala iki nəfərdən birinin soyadı Həsənli, ya Həsənovdur.

Nəyə görə yazıya bu iki kənd haqqında məlumatla başladıq? Məsələ burasındadır ki, hər iki kəndin adamları heç vaxt xırda bir problemi, necə deyərlər, aləmə car çəkməklə, gileylənməklə həll etməyi sevmirlər. Çeşməlinin də, Həsənlinin də sakinləri hərəsi bir işin qulpundan tutmağı bacarır, yaşıllığa, yolların rahatlığına, həyət-bacalarının təmiz saxlanmasına fikir verirlər.

...Səyyar qəbula bir gün qalırdı. Həmişə olduğu kimi ağsaqqallar yenə də yerli icra və bələdiyyə nümayəndələri ilə bir yerə yığışıb məsləhətləşirdilər: "deyək, deməyək?" Qərara aldılar ki, desinlər. Çünki Tovuz rayon mərkəzindən bu kəndlərə gələn yolun təmir olunması və ya yeni yol salınması onların gücündən kənar məsələ idi.

Ertəsi gün rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov Çeşmelidə səyyar görüş keçirərkən yol məsələsi qaldırıldı. Təbii ki, rayon rəhbəri onları sonadək dinlədi, qeydlərini apardı, amma konkret bir söz demədi. Çünki bu məsələnin həlli nəinki həmin kəndlərin, heç rayon icra hakimiyyətinin də gücündə deyildi...

Bir müddət keçməmiş xəbər yayıldı ki, nəinki bu iki kəndin, bütövlükdə bir neçə yaşayış məntəqəsini birləşdirən avtomobil yollarının yenidən qurulması ilə bağlı ölkə Prezidentinin tapşırığı var.

Bəli, çoxsaylı vətəndaş müraciətləri nəzərə alınaraq sözügedən yolun asfaltlanması ilə bağlı rayon icra hakimiyyəti aidiyyəti qurumlar qarşısında məsələ qaldırılmış və artıq bu ildən Tovuz və Gədəbəy rayonlarını əhatə edən və 13 yaşayış məntəqəsini birləşdirən Çatax–Çeşməli–Mollalar–Məşədivəlilər–Həsənli Abbasqulular–Papaqçılar–Güvəndik–Lazılar–Novosaratovka marşrutu üzrə avtomobil yollarının yenidən qurulması işlərinə başlanılmışdır. Hazırda layihə çərçivəsində ümumi uzunluğu 24,6 kilometr olan avtomobil yollarının əsaslı şəkildə bərpası həyata keçirilir. Uzun müddət təmir olunmadan istismarda olan bu yollar təbii amillərin təsiri nəticəsində yararsız vəziyyətə düşmüşdü. Xüsusilə payız-qış mövsümündə dağlıq ərazilərdə yerləşən yaşayış məntəqələri ilə nəqliyyat əlaqəsində çətinliklər yaranırdı.

Dövlət başçısının müvafiq tapşırıqlarına əsasən, yol infrastrukturunun təkmilləşdirilməsi və əhalinin gediş-gəlişinin yaxşılaşdırılması məqsədilə sözügedən yolların yenidən qurulmasına başlanılması əhalini hədsiz sevindirib. Layihə üzrə avtomobil yolları IV, bəzi sahələrdə isə V texniki dərəcəyə uyğun şəkildə yenidən qurulur. Bu aylarda layihənin Çatax–Çeşməli–Novosaratovka istiqamətində torpaq işləri, yolun hamarlanması və normativ enə salınaraq genişləndirilməsi işləri həyata keçirilir. Hazırkı mərhələdən sonra texnoloji ardıcıllığa uyğun olaraq yol əsasının tikintisi və asfalt-beton örtüyünün döşənməsi işləri icra olunacaq. Eyni zamanda, yolboyu suların ötürülməsi məqsədilə zəruri nöqtələrdə suötürücü boruların quraşdırılması da layihə çərçivəsində nəzərdə tutulub.

Qəribli kəndində keçirilən növbəti səyyar qəbul da yadda qalıb. Qəbulda yaxın Ağbaşlar kəndinin sakinləri də iştirak edirdilər. Qəriblinin kənd inzibati ərazi dairəsinə daxil olan kənd sakinlərindən bir neçə nəfəri çıxış edərək Zəyəmçay çayı üzərində yerləşən körpünün qəzalı vəziyyətdə olmasını dilə gətirdilər, təmir olunmasına köməklik göstərilməsini xahiş etdilər. Məlumat üçün bildirək ki, rayon mərkəzindən 50 kilometr uzaq məsafədə yerləşən Ağbaşlar kəndi Tovuz-Qovlar-Ağbaşlar avtomobil yolunun 50-ci kilometrliyində Zəyəmçay çayının sağ və sol sahilində, dağətəyi bir ərazidə yerləşir. Kənddə olan 79 fərdi yaşayış evindən 35-ni rayon mərkəzi və digər yaşayış məntəqələri ilə Zəyəmçay çayı üzərində 1993-cü ildə quraşdırılmış dəmir konstruksiyalı, uzunluğu 45 metr, eni isə 2,5 metr, istismara yararsız və qəzalı vəziyyətdə olan körpü birləşdirir. Uzun müddət istismar olunduğuna, həmçinin sel sularına məruz qaldığına görə körpünün dəmir konstruksiyadan düzəldilmiş dayaqları sıradan çıxmışdır. Ümumiyyətlə, körpünün dayanıqlılığı buradan yük maşınlarının keçməsinə imkan vermir. Kənar məhəccərlərinin olmaması isə piyadaların hərəkəti üçün təhlükəlidir. Körpünün bu vəziyyətdə olması Ağbaşlar kəndinin sosial-iqtisadi inkişafına bilavasitə təsir göstərir. Məhz kənddə keçirilən səyyar qəbul-görüşlər zamanı səsləndirilən bu fikirlər əsasında aidiyyəti qurumlar qarşısında məsələ qaldırılmış və ölkə Prezidentinin tapşırığı ilə körpünün yenidən qurulması layihələndirilmişdir. Yaxın vaxtlarda körpünün tikintisinə başlanacaqdır.



...Tovuzda hər səyyar qəbul səbirsizliklə gözlənilir. Maraqlı, həm də təqdirəlayiq haldır ki, son illər adamlar şəxsi xahişlərindən, müraciətlərindən daha çox doğma kəndlərinin problemlərindən danışır, onların həll olunmasını istəyirlər. Xahişlər, müraciətlər də tədricən həll olunur, adamlar da razı qalırlar.

Rayonun Cəlilli kəndində keçirilən səyyar qəbul zamanı şəhid anası Abbasova Bəsti Əli qızı müraciət edərək 50 evin transformatordan məsafəsi çox olduğuna görə həmin evlərin keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin olunmadığını bildirərək yaxın məsafəyə əlavə bir ədəd transformatorun quraşdırılmasını xahiş etmişdir. Qəbulda iştirak edən rayon elektrik şəbəkəsinin rəhbərliyinə dərhal müvafiq tapşırıq verilmiş və həmin 50 ev üçün yeni güc mərkəzi yaradılmış, yeni, daha güclü transformator quraşdırılmış, beləliklə şəhid anasının və digər sakinlərin bu problemi həll olunmuşdur.

Yeri gəlmişkən, səyyar qəbullar zamanı qaldırılan və sakinləri narahat edən əsas problemlərdən biri də rayonun elektrik təsərrüfatında olan problemlərdir. Belə ki, yeni yaşayış massivləri salındığına, istehlakçıların sayı əhəmiyyətli dərəcədə artdığına görə uzun müddət istismar olunan elektrik təsərrüfatı real tələbatı ödəmək imkanında deyildi. Bu istiqamətdə edilən çoxsaylı müraciətlər nəzərə alınaraq aidiyyəti qurumlar qarşısında məsələ qaldırılmış, rayonun Əyyublu, Ağdam, Səfərli, Məsimlər, Papaqçılar, Qaradaş, Qayadibi, Qandallar, Göyəbaxan kəndlərində elektrik təsərrüfatının yenilənməsi istiqamətində işlər aparılmış, köhnə transformatorlar, dayaqlar dəyişdirilmiş, elektrik xətləri kabelləşdirilmişdir.Eyni zamanda rayonun Sarıtala, Çobansığnaq, Almalıtala kəndlərinin elektrik təsərrüfatının yenidən qurulması layihələri təsdiqlənmişdir.

Məlumdur ki, səyyar qəbullar ölkənin hər yerində, o cümlədən Tovuzda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı əsasında keçirilir və səmərəliliyi də göz qabağındadır.Bunun bir üstünlüyü də ondan ibarətdir ki, səyyar qəbullarda rayon rəhbərinə ünvanlanan müraciətləri hamı görür və eşidir. Məsələlər həll olunmasa, növbəti səyyar qəbulda başçı üçün sakinlər qarşısında çıxış etmək bir qədər çətin olur. Təbii ki, elə məsələlər var o, rayon rəhbərliyinin gücü xaricindədir. Lakin icra hakimiyyətinin başçısı cənab Prezidentimizin yerdəki nümayəndəsidir. O, bu işlərə, müraciətlərə nəzarət etməli, ümumiləşdirməli və müvafiq qurumlar qarşısında məsələ qaldırmalıdır. Belə də olur. Yuxarıda qeyd etdiyimiz məsələlər kimi.

**Fuad Rzayev, rayon icra hakimiyyəti ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri:**

– Müvafiq tapşırığa əsasən vaxtaşırı olaraq yerlərdə RİH başçısının səyyar qəbul-görüşləri keçirilir. Görüşlərdə əsas məqsəd vətəndaşları narahat edən problemlərlə yerindəcə tanış olmaq və problemlərin həlli istiqamətində tədbirlər görməkdir. Bu ilin 6 ayı ərzində rayonun 20 yaşayış məntəqəsində icra hakimiyyəti başçısının səyyar qəbul-görüşləri keçirilmişdir. Bu görüşlərdə 142 müraciət qeydə alınmış, onların 56-sı həll edilmiş, 39-u ilə bağlı müvafiq izahat verilmiş, 3 məsələ ilə əlaqədar aidiyyəti qurumlar qarşısında məsələ qaldırılmış, 44 məsələnin həlli müvafiq idarə və müəssisə rəhbərlərinə tapşırılmışdır.

Kənd və qəsəbələrdə bizim icra nümayəndələrimiz var. Onlardan yaşayış məntəqələrinin problemləri haqqında vaxtaşırı məlumatlar alır və ümumiləşdiririk. Əksəriyyətini özümüz, daxili imkanlar hesabına həll edirik. Digər qlobal problemlər isə müvafiq mərkəzi qurumlarla həll olunur. Məmməd müəllim bu işlərə qarşı olduqca diqqətlidir. Yaranmış vəziyyət, problem, hər hansı bir müraciət barədə rayon icra hakimiyyətinə vaxtında məlumat verməyən icra nümayəndəsinə və ya digər yerli qurumların rəhbərlərinə qarşı isə çox sərtdir, həddindən artıq tələbkardır. Bunu rayonda hamı bilir.



...Tovuz Qərb bölgəsində əhalisinin sayına görə Şəmkirdən sonra ikinci böyük rayondur. Son vaxtlar çox inkişaf edib, dəyişib, daha da gözəlləşib. Rayonda bu inkişafı ölkə Prezidentinin Tovuza və tovuzlulara göstərdiyi diqqət və qayğı ilə əlaqələndirirlər.

Başqa bir vacib məqam tovuzluların fəallığının, rayonun inkişafında yaxından iştirak etmələrinin, torpağa bağlılıqlarının, maraqlı təşəbbüs və təkliflərlə çıxış etmələrinin nəticəsidir. Elə hər səyyar qəbulda bu fəallıq, dövlətə və dövlətçiliyə sədaqət hissi açıq-aşkar hiss olunur...

***Həm let QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Tovuz**

## Beynəlxalq həyat

# PKK xəyanətkar oyundan çıxarıldı

## *Türkiyədə tarixin yeni səhifəsi açılıb*

**Türkiyə Respublikasında terrorla mübarizənin 47 illik mərhələsində tarixi dönüş nöqtəsi yaşanır. İraqın Süleymaniyyə şəhərində PKK-nın bir qrup üzvünün rəsmi şəkildə silahları təhvil verməsi və bunun ardınca Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Tarixdə yeni bir sayfa açılıb" bəyanatı təkcə ölkə daxilində deyil, regionda da sülh və təhlükəsizlik üçün yeni ümidlər doğurur.**



Ankaranın Kızılcahamam rayonunda hakim Ədalət və İnkişaf Partiyasının 32-ci İstişarə və Dəyərləndirmə Toplantısında çıxış edən Prezident Ərdoğan bildirib ki, terrorla mübarizədə əvvəllər buraxılmış strateji səhvlər PKK-nın güclənməsinə zəmin yaradıb. 1984-cü ildən bu yana on minlərlə insanın həyatını itirdiyini və ölkə iqtisadiyyatına 2 trilyon dollardan çox ziyan dəydiyini vurğulayan dövlət başçısı "bu səhifə artıq bağlanır" mesajını verib: "Biz türklər, kürdlər, ərəblər və bütün xalqlar olaraq birgə yaşamın, dialoqun və qarşılıqlı hörmətin zəminində güclənə bilərik. Bütün problemlər zorakılıqla deyil, demokratik yollarla həll olunmalıdır."

Prezident vurğulayıb ki, Türkiyə Silahlı Qüvvələrinin Suriya və İraq sərhədlərində keçirdiyi lokal antiterror əməliyyatları ölkənin təhlükəsizliyini gücləndirib. Türkiyə istehsalı olan silah və texnologiyaların istifadəsi isə xarici asılılığın azalmasına və əməliyyatların effektivliyinin artmasına səbəb olub. Cənab Ərdoğanın sözlərinə görə, PKK artıq Türkiyənin içərisində əvvəlki kimi təsir gücünə malik deyil və mülki vətəndaşlara, dövlət strukturlarına qarşı təhlükə qabiliyyəti ciddi şəkildə zəifləyib.

PKK-nın tərk-silah prosesi hökumət və müxalifət dairələrində müsbət qarşılanıb. MHP sədri Dövlət Baxçeli prosesi "Terrorsuz Türkiyə yolunda sağlam addım" kimi dəyərləndirib. CHP lideri Özgür Özel isə bəyan edib ki, prosesin davamlılığı yalnız "ədalət və şəffaflıq" prinsipləri üzərində mümkündür.

Bu konsensusu daha da gücləndirən addım isə Türkiyə Böyük Millət Məclisində (TBMM) yeni komissiyanın yaradılması barədə razılıqdır. AK Parti, MHP və DEM Partiyanın təmsilçiləri bu komissiyanın işinə cəlb olunaraq, tərk-silah prosesinin hüquqi və ictimai nəzarətini həyata keçirəcək.

Süleymaniyədə baş tutmuş silah təhvilvermə mərasimi yalnız Türkiyə üçün deyil, region üçün də mühüm əhəmiyyət kəsb edir. İraq Kürd Regional Hökumətinin prosesə verdiyi dəstək, Suriya və İraq kürdləri ilə aparılan danışıqlar Ankara-Bağdad-Ərbil üçbucağında yeni diplomatik dinamikaların formalaşdığını göstərir.

Prezident Ərdoğanın "İraq və Suriyadakı kürd qardaşlarımızın məsələsi də bizim məsələmizdir" sözləri Türkiyənin gələcəkdə regional təhlükəsizlik arxitekturasında birləşdirici rol oynamaq niyyətini təsdiqləyir.



Təhlükəsizlik ekspertlərinin fikrincə, PKK-nın silahları təhvil verməsi Türkiyənin cənub-şərqində sosial və iqtisadi canlanma üçün əlverişli mühit yaradacaq. Sərhəd təhlükəsizliyinin möhkəmlənməsi və təhlükəsizlik orqanlarının yükünün azalması, yeni investisiya imkanlarının ortaya çıxmasına səbəb olacaq.

Bundan başqa, parlamentdə yaradılan komissiya isə əvvəlki həll prosesilə müqayisədə daha geniş siyasi iştirak və monitorinq mexanizmləri ilə təchiz olunacaq. Bu da prosesin legitimliyini və davamlılığını təmin edəcək əsas şərtlərdəndir.

Bir sözlə, Süleymaniyədə atılan bu tarixi addım Türkiyənin illərlə davam edən terrorla mübarizəsində dönüş nöqtəsi kimi dəyərləndirilir. Prezident Ərdoğanın "Qardaşlıq, birlik və rifah" çağırışları bu mərhələnin yalnız təhlükəsizlik deyil, həm də ictimai və siyasi konsolidasiya baxımından həlledici rol oynayacağını göstərir. Buna görə də, qardaş ölkənin terrorsuz, güclü və birliyə əsaslanan Türkiyəyə çevriləcəyi gün uzaqda deyil.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 142 (30836) 13 iyul 2025-ci il, bazar

## İDMAN

## 5 boksçumuz Avropa yarımfinalında



**Azərbaycanın 5 boksçusu Serbiyanın Novi Pazar şəhərində yeniyetmələr arasında təşkil olunan Avropa birinciliyində yarımfinala yüksəlib.**

Boks Federasiyasının mətbuat xidməti xəbər verir ki, ilk 2 gündə boksçularımızdan 7-si qələbə qazanıb. Onlardan ikisi 1/4 finala yüksəldiyi halda, beşi yarımfinala vəsiqə qazanıb. Yarımfinala vəsiqə qazanan boksçularımız özləri üçün azı bürünc medalı da təmin ediblər.

Beləliklə, Məhəmməd Rəsulov (50 kq), Raul Heydərli (54 kq), Səfdər Məmmədzadə (+80 kq), Cəmilə Muradlı (50) və Zəhra Məmmədova (54 kq) yarımfinalda güclərini sınayacaqlar.

Qeyd edək ki, Avropa birinciliyinə iyulun 16-da yekun vurulacaq.

## Dünya basketbolunda növbəti qələbəmiz



**Azərbaycanın qadınlardan ibarət 3x3 basketbol millisi Dünya Seriyasının Buxarest mərhələsində növbəti qələbəsini qazanıb. Belə ki, komandamız C qrupunda Sinqapuru məğlub edib - 22:10.**

Qeyd edək ki, Azərbaycan millisi seçmə mərhələnin A qrupunda 2 gün əvvəl Yaponiyanın “Tsukuba” (21:10) və İsveçrənin “Lozanna” (21:11) komandalarını da üstələyib.

Yığma dünən gecə qrupda ikinci matçını Ukraynaya qarşı keçirəcəkdi. Qəzetimiz çapa verilərkən oyunun nəticəsi bəlli deyildi.

## Həmyerlimizə Avropa voleybolunda etimad



**Azərbaycan Voleybol Federasiyasının (AVF) Təlim və aşağı yaş qrupları üzrə iş şöbəsinin koordinatoru Nərgiz İsmayılova Avropa Voleybol Konfederasiyasından (CEV) növbəti təyinat alıb.**

Mütəxəssis kişi voleybolçular arasında (U-22) 2026-cı ildə keçiriləcək Avropa çempionatının təsnifat mərhələsinin oyunlarında iştirak edəcək. Nərgiz İsmayılova iyulun 11-13-də Türkiyədə keçirilən B qrupunun oyunlarında supervayzer kimi hakimlərin işinə və yarışın təşkilinə qiymət verəcək. Qeyd edək ki, burada ev sahibi ilə yanaşı, Serbiya, Almaniya və Çexiya millilərı də mübarizə aparır.

*M.HACIXANLI*
*XQ*

Yurdumuzu tanıyaq

# Pirşağı – Xəzərin quzey ləpədöyəni

## Paytaxtətrafı qədim kənd son illərdə abad qəsəbəyə çevrilib




**Pirşağı Bakının qədim kəndlərindədir. Abşeron yarımadasının şimalında, Xəzər dənizinin sahilində yerləşir. Son onillər boyu bu yaşayış məntəqəsi xeyli böyüyərək qəsəbəyə çevrilib. Pirşağı qəsəbəsi inzibati bölgüyə görə Bakının Sabunçu rayonuna ərazisinə daxil edilib.**

Pirşağı toponiminin yaranması ilə bağlı müxtəlif fikirlər var. Bu sözü əsasən “Piri-Şahi” (yəni Şah Piri), yaxud “Pir uşağı” (kənddəki pirdə doğulan uşaq) kimi izah edirlər. Başqa versiyalar da var.

Pirşağıda çox sayda tarixi mədəniyyət abidələri var. Burada qorunan əsas tarixi abidələrindən biri XVII əsrə aid Pirşağı məscididir. Məscidin günbəzi 4 tağın üzərində inşa edilib. Məscid 1937-ci ilə qədər kənd sakinlərin ixtiyarında olub. Lakin “qırmızı sovet terroru” dönəmində burada ibadət yasaq olunub. Uzun onillər məscidin bir hissəsi kolxozun taxıl anbarı, digər hissəsi isə həkim ambulatoriyası kimi istifadə olunub. Nəhayət, təxminən 20 il əvvəl məscid kənd sakinlərinin şəxsi vəsaiti ilə bərpa olunub.

Pirşağı kəndi 1918-ci ilin qanlı mart terroru hadisələrində erməni vəhşiliklərinin şahidi olub. Pirşağının Əmir, İsmayıl, Əbdülmömünin, Qəzənfər, Qara Mahmud adlı qeyrətli kişiləri ermənilərə qarşı vuruşublar. Onları adları və əməlləri bu gün də yaddaşlarda yaşayır və hər dəfə bu barədə söz düşəndə xoş sözlərlə yad edilir.

Məlumdur ki, Abşeron torpağı təbii müalicəvi gölləri ilə tanınıb. Bu mənada Pirşağı da istisna təşkil etmir. Buradakı bulanıqlı su və palçıqdan oynaq xəstəliklərinin müalicəsində istifadə edilib. Vaxtı ilə Pirşağıda müalicəvi əhəmiyyətli “Ağ nohur”, suyu çox duzlu olan “Qızıl nohur”, nisbətən çökək ərazidə isə “Çadra” və “Ağ” adlı göllər olub. Təəssüf ki, Abşeronda gedən urbanizasiya prosesi nəticəsində göllər qurudulub və ərazilərində yaşayış məhəllələri salınıb.

Deyilənlərə görə, “Qızıl nohur” gölü əhalinin köməyinə çox çatıb. Yerli sakinlər bu göldən duz da çıxarıblar. Qadınlar duzu həvəngdəstədə döyərək xörəyə də qatıblar. Pirşağılılar duz yığımında elliklə iştirak edər, qışa azuqə ehtiyatı görərdilər. Üstəlik, bir qismini sataraq, çörəkpulu da qazanardılar. Avqust ayına qədər duz yığımı başa çatardı. Sonrakı aylarda duzun rəngi dəyişər, qırmızımtıl çalar alardı.

Yeri gəlmişkən, duz gölünün ətrafından yığılan gilabidən saç yumaq üçün istifadə olunardı. Ötən əsrin 70-ci illərinə qədər ərazi mühafizə olunub. Sonradan gölə, təəssüf ki, çirkab suları axıdılıb.

Ötən əsrdə Pirşağı bağlarında yay aylarında ədəbi məclislər keçirilərdi. Belə məclislərə o dövrün adlı-sanlı ziyalıları, şairlər, yazıçılar, musiqiçilər dəvət olunardı. Görkəmli şairimiz M.Müşfiq məşhur “Yenə o bağ olaydı” şeirini məhz Pirşağıda qələmə alıb.

Şair Zeynal Xəlil, tənqidşi Cəfər Xəndan, müğənni Məmmədəli Əliyev belə görüşlərdə həvəslə iştirak edərdilər. Kəndin mədəniyyət evində teatr tamaşaları göstərilərdi. Yaşlı sakinlər tanınmış mərhum xanəndə, Xalq artisti Rübabə Muradovanın buradakı çıxışlarını indi də xatırlayırlar. Rübabə xanımın kənddəki bağ evi həmişə qonaq-qaralı olardı. Pirşağıdakı qadın toylarının çoxunu Rübabə xanımın məlahətli səsi rövnəqləndirib. Deyilənlərə görə, müğənni kasıb ailələrdən pul almazdı.

Pirşağıda görkəmli din xadimləri yetişib. Şeyxülislam Axund Ağa Cavad oğlu Əlizadə 1871-ci ildə Pirşağı kəndində doğulub. AXC dövründə şeyxülislam vəzifəsində işləyib. O, 1944-cü ildə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədri və yenidən şeyxülislam təyin olunub. Xatırladaq ki, görkəmli geoloq alim, akademik Akif Əlizadə şeyxülislam Ağa Əlizadənin nəvəsidir.

Görkəmli neftçi, akademik Xoşbəxt Yusifzadə 1934-cü ildə Pirşağıda doğulub. 1947-ci ildə Azərbaycan Neft-Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsinə daxil olub. Neft sahəsində adi mühəndislikdən yüksək rəhbər vəzifələrə qədər yüksəlib. Ulu öndər Heydər Əliyev onun haqqında demişdir ki, “Azərbaycanda Xəzər dənizini Xoşbəxt Yusifzadə kimi bilən ikinci adam yoxdur”.

Yeri gəlmişkən, Xoşbəxt Yusifzadənin fədakar əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Akademik dövlətimizin ən ali mükafatlarına – “Şöhrət”, “İstiqlal” və “Heydər Əliyev” ordenlərinə layiq görülmüşdür. 2020-ci ildə 90 illik yubileyi dövlət səviyyəsində keçirilib. Pirşağı qəsəbəsindəki oxuduğu 112 nömrəli tam orta məktəbə və Xəzərdə üzən gəmilərdən birinə akademikin adı verilib. Dünya şöhrətli neftçi-alim, akademik Xoşbəxt Yusifzadə 2023-cü il oktyabrın 3-də vəfat edib.

Əslən Pirşağıdan çox sayda alim, mədəniyyət xadiminin adını çəkmək olar. Keçmiş Sovet İttifaqının kosmik proqramının yaradıcılarından biri olan artilleriya general-leytenantı Kərim Kərimov, tanınmış şair Mikayıl Rzaquluzadə, füzulişünas araşdırmaçı Həkim Qəni, Əməkdar mədəniyyət işçisi Süleyman Məlikov, türkoloq alim Mustafa Kərimov, Xalq artistləri Həbib Bayramov, Firəngiz Şərifova, Oqtay Mirqasımov, Əməkdar artist



Müxlis Canızadə və başqaları Pirşağı kəndinin yetirmələrdir.

Son illər Pirşağı qəsəbəsi çox gözəlləşib. Prezident İlham Əliyevin göstərişinə əsasən, bir neçə ildir ki, Bakı şəhərinin və Abşeron rayonunun qəsəbələrində, eləcə də Pirşağıda xüsusi abadlaşdırma işlərinə başlanılıb.

Həyata keçirilən tədbirlərin əsas məqsədi buradakı insanların daha yaxşı şəraitdə yaşaması, özlərini daha rahat hiss etmələridir. Pirşağı tarixən iqlim terapiyası üçün əlverişli zona hesab olunub. Yekunda ekoloji vəziyyətin də yaxşılaşdırılması hədəf kimi qarşıya qoyulub.

*Təranə CƏBİYEVA*

# Bakı Ali Neft Məktəbində “Məzun günü”

**Tədbirin açılışını edən rektor Elmar Qasımov bildirib ki, builki məzunlar Dövlət Neft Şirkətinin və ölkənin müxtəlif sənaye müəssisələrində, xarici şirkətlərdə, həmçinin özəl və dövlət qurumlarında çalışmağa başlayıblar. Onlar, eyni zamanda, dünyanın nüfuzlu universitetlərinə qəbul olaraq təqaüdlər qazanır və təhsillərini davam etdirirlər.**




ARDNŞ-nin vitse-prezidenti Ziba Mustafayeva çıxışında məktəbin tələbələrə yüksəkkeyfiyyətli təhsil verməklə yanaşı, onların işlə təminatına da xüsusi diqqət yetirildiyini söyləyib. Qeyd olunub ki, 2024/2025-ci tədris ilində Bakı Ali Neft Məktəbinin bakalavriat səviyyəsindən 148, magistratura səviyyəsindən 172 nəfər olmaqla, ümumilikdə 320 tələbə məzun olub. Onlardan 52-si fərqlənmə diplomu ilə bitirib, 142 nəfəri xanımdır. Məzunların 24 nəfəri isə SOCAR-ın Gənc İstedadlar Proqramının iştirakçısıdır.

Elm və təhsil nazirinin müavini İdris İsayev, digər natiqlər məzunları təbrik ediblər. 2025-ci il məzun buraxılışı üzrə ali məktəbin birincisi - “İlin tələbə”si, informasiya təhlükəsizliyi ixtisasının məzunu İsmayıl Məmmədzadə adını fəxri kötüyə həkk edib.

Diplomları təqdim edənlər sırasında Çin Xalq Respublikasının ölkəmizdəki səfiri Lu Mey də yer alıb. Xanım səfir məzunlara uğurlar arzulayıb.

*XQ*

Hava

## Qızmar bir bazar günü...



**Milli Hidrometeorologiya Xidmətindən verilən xəbərə görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 21-26° isti, gündüz 35-38°, bəzi yerlərdə 40° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunu, nisbi rütubət isə gecə 70-80 faiz, gündüz 40-45 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 21-26° isti, gündüz 35-39°, bəzi yerlərdə 41° isti, dağlarda gecə 13-18° isti, gündüz 23-28° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3170
SİFARİŞ 1415
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00